RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 253 (8276) CÜMƏ, 15 noyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




Noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti işə başlayıb.
AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Sammitin açılış mərasimində iştirak ediblər.
Əvvəlcə birgə foto çəkdirildi.
Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə nitq söylədi.

# İLHAM ƏLİYEV Bakıdan dünyaya çağırış etdi:

## dindən siyasi məqsədlər üçün istifadə etməyin, münaqişələrə dini don geyindirməyin

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill.

Hörmətli din xadimləri, qonaqlar, xanımlar və cənablar.

Mən bütün qonaqları səmimiyyətlə salamlayıram. Dünya dini liderlərinin II Zirvə görüşündə iştirak edən bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu beynəlxalq tədbirin çox böyük əhəmiyyəti var. Biz fəxr edirik ki, Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə evsahibliyi edir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır və bundan sonra da oynayacaqdır.

Bakıda belə mötəbər tədbirin keçirilməsi, hesab edirəm ki, təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən, o cümlədən bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Qeyd etməliyəm və biz fəxr edirik ki, islam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Biz islam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava vardır.

Beynəlxalq təşkilatlar, eyni zamanda, dünya dini liderləri Azərbaycanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirirlər. Azərbaycana bir neçə dəfə səfər etmiş zati-müqəddəsləri Moskva və Bütün Rusiyanın Patriarxı Kirill, Azərbaycana səfər etmiş Roma Papası Fransisk, İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etmiş şəxslər Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə öz sözlərini demişlər. Bu sözlər, bu yüksək qiymət bizim üçün çox dəyərlidir və bu, reallığı əks etdirir.

Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri, yəni, bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir. Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini zəmində, etnik zəmində, məzhəb zəminində bir çox xoşagəlməz hallar - münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik.

Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətlərinin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyev Azərbaycan xalqının böyük oğludur və bütün dövrlərdə - həm sovet dövründə, həm müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Dövlət-din münasibətlərinin təməlini məhz Heydər Əliyev qoymuşdur, necə ki, müasir Azərbaycanın bütün başqa istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur. Ancaq ilk iki ildə müstəqillik formal xarakter daşıyırdı. Demək olar ki, ölkə idarəolunmaz vəziyyətdə idi. Xüsusilə 1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi tərəfindən həyata keçirilmiş hərbi çevriliş nəticəsində vəziyyət daha da ağırlaşdı, Azərbaycan dərin böhrana düçar oldu, ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti tariximizin qara ləkəsidir. Bu, rüsvayçılıq dövrüdür və təsadüfi deyil ki, Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi bir il dözə bildi, bir ildən sonra öz liderinə üz tutub Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ona ölkənin gələcəyini etibar etdi.

Heydər Əliyev hakimiyyətə gələndən sonra, ilk növbədə, qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi istiqamətində önəmli addımlar atdı, erməni işğalının qarşısını aldı və Azərbaycan işğal altında olmuş bəzi torpaqları geri qaytara bildi. Ölkədə sabitlik bərqərar oldu, inkişaf yoluna qədəm qoyuldu.

Ardı 2-ci səh.

## Hədəf Azərbaycanı müasir və inkişaf etmiş ölkəyə çevirməkdir

### İlham ƏLİYEV: "Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir"

Son illərin sosial-iqtisadi mənzərəsi Azərbaycanın qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyən bir ölkə olduğunu göstərməklə yanaşı, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf kursunun praktikada özünü tam doğrultduğunu nümayiş etdirir. Bu baxımdan qazanılmış nailiyyətlər ölkə rəhbərliyinin inkişaf kursunun təməlində dərindən düşünülmüş elmi-iqtisadi əsasların, dövlətin və xalqın maraqlarının təmin olunmasının dayandığını göstərir.

### Sosial rifaha xidmət edən siyasət

Bu ildən isə Azərbaycan öz inkişafının tamamilə yeni mərhələsinə daxil olub. Həm iqtisadiyyatda, həm sosial sferada tamamilə yeni, köklü islahatların təməli qoyulub. *"2019-cu ildən başlayan islahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır".*

Ardı 9-cu səh.

## Payızlıq taxıl əkininin mühüm dövrüdür

**Hazırda əkinçi üçün mühüm dövrdür. Düzdür, onun üçün il boyu iş var - əkir, becərir, toplayır, satışın qayğıları ilə yaşayır. Bu işlər, konveyer prosesi tək bir-birini tamamlayır.**

Bütün bunların hamısının başlanğıcında isə əkin dayanır. Torpaq mülkiyyətçisi üçün keyfiyyətli şum aparılması, torpağın aqrotexniki tələblər səviyyəsində əkinə hazırlanması və sahəyə yüksək məhsuldarlıqlı toxum səpilməsi başlıca şərtdir.

Atalar əbəs yerə demişlər: "Nə əkərsən, onu da biçərsən". Bizcə, buraya "necə əkərsən" sözlərini də əlavə etmək olar.

Ardı 9-cu səh.

## Sahibkarlığın inkişafı iqtisadi artımın təminatıdır




Bax: səh. 7

## Kəmərlər Səngəçalda qovuşur

**Səngəçal terminalı regionun neft-qaz ixracı mərkəzidir. Azərbaycan neftini və qazını dünya bazarlarına aparan boru kəmərləri başlanğıcını buradan götürür.**

Səngəçal terminalı fəaliyyət göstərdiyi qısa dövr ərzində Azərbaycanın təkcə neft-qaz sənayesində deyil, bütün tarixində əhəmiyyət kəsb edən hadisələrin şahidi olub. 1997-ci ildə "Əsrin müqaviləsi"nin "Çıraq"dan alınan ilk neftini, sonrakı illərdə "Azəri"nin mərkəzi, qərb və şərq hissələrinin, "Dərinsulu Günəşli"nin, "Şahdəniz-1" və "Şahdəniz-2"nin karbohidrogenlərini qəbul edib.

Ardı 9-cu səh.

## Bələdiyyə seçkiləri

### Seçki Məcəlləsində səlahiyyətli nümayəndələrin hüquq və vəzifələri, həmçinin fəaliyyətlərinin əsasları təsbit edilib

**Azərbaycan Respublikasının Konstitusiyasında yerli özünüidarəetmə orqanı kimi təsbit edilmiş bələdiyyələrə seçkilər 2019-cu il dekabrın 23-nə təyin edilib.**

Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsində göstərilir:

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 213-cü maddəsinə əsasən bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası (MSK) təyin edir.

MSK bələdiyyə seçkilərinin keçirilməsi ilə əlaqədar müxtəlif maarifləndirmə tədbirlərini həyata keçirir. Maarifləndirmə tədbirləri sırasında hazırda geniş ictimaiyyətə təqdim olunan mövzu xüsusi əhəmiyyət kəsb edir. Nəzərə almalıyıq ki, 2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 1606 bələdiyyəyə 15156 bələdiyyə üzvü seçilməlidir və bu seçkilərdə vətəndaşların özləri tərəfindən, seçicilərin təşəbbüs qrupu və seçkilərdə iştirak edən siyasi partiyalar tərəfindən bələdiyyə üzvlüyünə namizədlər irəli sürülür.

Qeyd edək ki, hər bir qeydə alınmış namizədin və siyasi partiyanın səlahiyyətli nümayəndələr və vəkil edilmiş şəxslər təyin etmək hüququ vardır.

Ardı 10-cu səh.

# Azərbaycan dinlərarası dialoqun

*Əvvəli 1-ci səh.*

Biz beynəlxalq təcriddən çıxa bildik, iqtisadi və siyasi islahatlar aparılmağa başlandı. O cümlədən dövlət-din münasibətlərinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, şeyx həzrətləri bu istiqamətdə çox böyük fədakarlıq və fəaliyyət göstərmişdir. Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət-din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət-din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri din-dövlət münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir. Çünki hər bir ölkənin sabitliyi hər bir ölkənin gələcəyi deməkdir. Sabitlik pozulan yerlərdə inkişafa da yer qalmır. Əfsuslar olsun ki, son illər ərzində dini zəmində müxtəlif ölkələrdə iğtişaşlar, müharibələr, münaqişələr baş alıb gedir. Əfsuslar olsun ki, bir çox hallarda dini şüarlar altında böyük cinayətlər törədilir.

Şeyx həzrətləri Azərbaycanın ümumi inkişafına çox böyük töhfə vermiş böyük şəxslərdən biridir. Bu ilin avqust ayında mənim sərəncamımla Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeni şeyx həzrətlərinə verilmişdir və bu gün təntənəli şəkildə bu yüksək mükafat şeyx həzrətlərinə təqdim ediləcəkdir.

Dinlərarası münasibətlərə gəldikdə, hesab edirəm ki, bu münasibətlərin spektri kifayət qədər genişdir. Biz Azərbaycanda ümumi konsepsiyaya baxdıqda görürük ki, bir neçə istiqamət var, bu, sadəcə olaraq, dini liderlərin bir-biri ilə əlaqədə olması demək deyil. Bu, müxtəlif tədbirlərin keçirilməsidir və önəmli mesajların verilməsidir. Mən bu tədbirlərin arasında Azərbaycanda bir neçə il bundan əvvəl keçirilmiş I Avropa və IV İslam Həmrəyliyi oyunlarını da qeyd etmək istəyirəm. Baxmayaraq ki, bu, idman yarışlarıdır, ancaq bu yarışların çox böyük siyasi mənası vardır. Çünki təsəvvür edin, cəmi iki il ərzində bir ölkədə, bir şəhərdə islam ölkələrinin və Avropa ölkələrinin idmançıları yarışır və eyni zamanda, dostluq əlaqələri yaradırlar. Çünki bu oyunlar, sadəcə olaraq, idman yarışı deyil. Bu oyunlar Azərbaycanda bir dostluq festivalına, dostluq bayramına çevrilmişdir. Hər iki idman yarışında 100-dən çox ölkə təmsil olunurdu, minlərlə idmançı, məşqçi, qonaq iştirak edirdi və əlbəttə ki, bu oyunların dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqində böyük rolu vardır.

Keçən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etmişik. "Bakı Prosesi" bizim təşəbbüsümüzlə başlanmış prosesdir və bu gün bu, geniş beynəlxalq dəstəyə malikdir. O cümlədən BMT "Bakı Prosesi"ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Mədəniyyət nazirlərini dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərinin toplantısına biz Avropadan nazirləri dəvət etdik. Azərbaycan nadir ölkələrdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzvdür və biz bu imkandan istifadə edib "Bakı Prosesi"nə start verdik. Bayaq qeyd etdiyim kimi, bu gün beynəlxalq aləmdə "Bakı Prosesi" çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır.

Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə




usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bizim bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin bizim torpaqlarımızdan çıxarılması haqqında açıq-aydın müddəalar var, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir və bildirməliyəm ki, Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmışdır, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşmüşdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir - Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir.

Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır.

Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır.

Mən bir daha qonaqları səmimiyyətlə salamlayıram və Zirvə görüşünə uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncamı oxundu.

Dövlət başçısı İlham Əliyev "Heydər Əliyev" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

Sonra **Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür PAŞAZADƏ** çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Əziz qardaşım, zati-müqəddəsləri, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill həzrətləri.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyeva.

Hörmətli rəyasət, dəyərli dini liderlər və dövlət xadimləri, əziz qonaqlar.

Dünya dini liderlərinin II Bakı Sammitində hər birinizi salamlamaqdan böyük şərəf duyuram. Allah-Təala Qurani-Şərifdə içərimizdə "yaxşılığa çağıran, xeyirli işlər görməyi buyuran və pis əməllərdən çəkindirən bir camaat" olmasını bizə tövsiyə etmişdir. Bugünkü Zirvə görüşündə məhz belə bir cəmiyyət toplanmışdır, milyonlarla dindarları təmsil edən qüdrətli dini liderlər, böyük nüfuza malik şəxsiyyətlər, siyasi və ictimai xadimlər bir araya gəlmişlər. Bu məqamda mən II Bakı Sammitinin dəyərli qonaqlarının iradəsini ifadə edərək, Bakı Zirvə görüşünün ərsəyə gəlməsinə xeyir-dua vermiş, tədbirimizə mənəvi və əməli dəstək olmuş Azərbaycan Prezidenti cənab İlham Əliyevə hamımızın adından minnətdarlığımı bildirmək istərdim.

Azərbaycan dövlətinin başçısı zati-aliləri Prezident İlham Əliyev qlobal miqyasda ümumbəşəri dəyərlərin carçısı, dünya miqyasında multikulturalizm, islam həmrəyliyi ideyalarının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi"nin müəllifidir. Multikulturalizm bizim həyat tərzimizdir. Bu milli-dini birlik ideyası ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan müasir Azərbaycanda zati-aliləri Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək dövlətçilik təfəkkürü ilə milli-mənəvi dəyərlərə verdiyi önəm sayəsində bəşəri birliyə xidmət edən multikulturalizm, islam həmrəyliyi kimi ideyaların reallaşması istiqamətində uğurlu addımlar atılır və bu addımlar beynəlxalq aləmdə böyük siyasi-mənəvi rezonans yaradır. Qeyd edim ki, Azərbaycan Prezidentinin tövsiyəsi ilə 2017-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi təsis edildi və dövlətimizin başçısının ideya müəllifi olduğu qlobal çağırışlar Mərkəzimizin İspaniyada, Almaniyada, Avstriyada keçirdiyi beynəlxalq tədbirlərdə böyük rəğbətlə qarşılandı.

Bu gün keçirilən bu möhtəşəm Sammitin əsas məqsədi beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan etməkdir. Təəssüf ki, müasir dövrümüzdə insanlar arasında təcavüzə, zorakılığa və ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları ictimai təhlükəyə çevrilməkdədir. İnformasiya-kommunikasiya sahəsindəki müasir texnologiyalar, sosial şəbəkələr, kütləvi media vasitələri nifrət çağırışlarını bütün dünyada genişmiqyaslı sistemə çevirir. Qlobal miqyasda nifrət çağırışları İraqda, Suriyada, Fələstində, Əfqanıstanda və digər ölkələrdə sabitliyi pozmuş, hərbi və soyqırımı cinayətlərinə rəvac vermişdir. Nifrətin ideoloji təsirləri altında Qərb dünyası miqrant problemlərinə antihumanist münasibətlə bəşəri fəlakətlərə, bəlkə də cinayətlərə yol açır. Məhz belə nifrət çağırışları sayəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu Ermənistan tərəfindən hərbi təcavüzə və soyqırımına məruz qalmış, 20 faiz torpaqlarımız işğal edilmiş, 1 milyondan çox insan əzəli torpaqlarından qaçqın və məcburi köçkün düşmüş, dini və mədəni abidələrimiz vəhşicəsinə dağıdılmışdır. Əfsuslar olsun ki, beynəlxalq hüququn norma və prinsiplərinə rəğmən bu tarixi ədalətsizlik bu günə qədər davam etməkdədir.

Nifrət çağırışlarının, təhrik mesajlarının çoxalması olduqca aktual problemdir. Təsadüfi deyil ki, BMT-nin Ekspert qrupu bununla əlaqədar xüsusi qətnamə qəbul etmişdir. KAİSİİD Beynəlxalq təşkilatının iclasında qeyd olunduğu kimi, "Nifrət nitqlərinə qarşı mübarizə insan hüquqlarının müdafiəsinin vacib elementidir". Zati-aliləri İlham Əliyev cənablarının beynəlxalq müstəvidə aktual problemlərin həllində hər zaman öncül olduğunu, dərin təfəkkür tərzini bildiyimiz üçün nifrətə çağırış probleminin fəsadlarını və ictimai təhlükəsini nəzərə alaraq, Sammit iştirakçıları adından zati-alilərinə müraciət etmək istərdim. Burada iştirak edən BMT və KAİSİİD Beynəlxalq dinlər və mədəniyyətlərarası Dialoq Mərkəzi və Bakı Dinlərarası Əməkdaşlıq Mərkəzinin birgə təşkilatçılığı ilə "Qlobal nifrət çağırışları ilə mübarizədə din, siyasət və ictimaiyyət xadimlərinin birgə səyləri" mövzusunda gələcəkdə beynəlxalq konfransın keçirilməsinə dair təşəbbüsümüzün zati-aliləri tərəfindən dəyərləndirilərək razılıq verilməsi beynəlxalq ictimaiyyət və biz din xadimləri üçün Allahın köməyi ilə müstəsna əhəmiyyət kəsb edə bilər.

Biz Azərbaycan heç vaxt söz azadlığının və demokratiyanın əleyhinə olmamışıq. Biz söz azadlığını nifrət çağırışlarına çevirənlərin əleyhinəyik. Söz - Yaradanın insana əmanətidir, insan hər sözü üçün Allah qarşısında məsuliyyət və cavabdehlik daşıyır. Söz - Ana, Vətən, Nur, Məhəbbət, Cənnət də ola bilər, Söz - savaş, müharibə, ölüm, cəhənnəm də ola bilər. Bizim məqsədimiz təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq, İlahi Nurun ardınca getməyi Sözlə təbliğ etməkdir. Çünki bütün dini kitablarda deyildiyi kimi, iman gətirənlər qardaşdırlar! Hamımız babamız Adəmdən, Adəm isə torpaqdan yaranmışdır. Torpaq qardaşlarını birləşdirən cəhətlər isə onları ayıran və yadlaşdıran cəhətlərdən qat-qat üstün və dəyərlidir!

Zati-aliləri, möhtərəm Sammit iştirakçıları. Mən öz iştirakı ilə tədbirimizi zinətləndirən ali qonaqlarımıza, Sammitə təbrik məktubları göndərən dövlət və din xadimlərinə, beynəlxalq təşkilatlara və ictimai qurumlara minnətdarlığımı bildirirəm. Özəlliklə uzun illər səmərəli fəaliyyətimiz sayəsində özümə dost, qardaş bildiyim zati-müqəddəsləri Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill həzrətlərinə, digər dəyərli şəxsiyyətlərə və burada iştirak edən qardaş və bacılarıma təşəkkür edirəm.

Mənim və ailəm üçün çox əlamətdar haldır ki, bəşəri məsələlərin müzakirə olunduğu və mühüm qərarların bəyan edildiyi Dünya dini liderlərinin builki Bakı Sammiti yubileyimlə eyni vaxta təsadüf edir. Bu tarixi gündə Azərbaycan dövlətinin başçısı, zati-aliləri İlham Əliyev cənabları məni ölkəmizin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif etdi. Ulu Öndər Heydər Əliyevin adını əbədiləşdirən ordeni mənə təqdim etməklə Azərbaycan Prezidenti yüksək səviyyəli dövlətçilik təfəkkürünü, dünyəvi dövlətin milli-dini dəyərlərə və din-dövlət münasibətlərinə ali diqqətinin bariz nümunəsini nümayiş etdirdi. Böyük qardaşım, Ulu Öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülmək həyatım boyu mənim üçün böyük şərəf və fəxarət olacaqdır. Bu, mənim 70 illik yubileyimə və 40 illik Şeyxülislamlıq fəaliyyətimə verilən ən böyük dəyərdir. Bu illər ərzində Ulu Öndərin və daha sonra zati-alilərinizin rəğbəti və dəstəyi ilə Qafqaz Müsəlmanları İdarəsini dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa birgə nail olduq. Böyük tarixi nailiyyətimiz olan müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi və milli-mənəvi dəyərlərimizə qayıdışı təmin etmək üçün zati-alilərinizin rəhbərliyi ilə var qüvvəmizlə çalışmaqdayıq. Bu gün əminliklə deyə bilərəm ki, harada dövlət və din münasibətləri düzgün məcrada inkişaf edirsə, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı mütləq labüddür!

Zati-aliləri, möhtərəm cənab Prezident. Hörmətli Sammit iştirakçıları. Mən bir daha Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bu Sammitdə iştirakına və ali təltifinə görə minnətdarlığımı bildirirəm. Ümidvaram ki, Sammitin qərarları Yekun sənədində öz əksini tapacaq, Dünya dini liderlərinin II Bakı Sammiti qloballaşan dünyanın müasir çağırışlarının, aktual problemlərinin həllinə Azərbaycan dövlətinin dəyərli töhfəsi olacaqdır. Bu Sammit dünya dinləri tarixinə əlamətdar hadisə kimi həkk olunacaq və beynəlxalq müstəvidə qarşılıqlı anlaşma mühitinin möhkəmlənməsinə xidmət edəcəkdir, İnşallah!

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuhu.

* * *

**Moskvanın və Bütün Rusiyanın Patriarxı KİRİLL** çıxış edərək dedi:

- Zati aliləri, çox hörmətli cənab Prezident.

Zati-aliləri xanım Mehriban Əliyeva.

Mənim əziz qardaşım, möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Zati müqəddəslər və hörmətli dini liderlər.

Mən Azərbaycan hökumətinin, bu Sammitin qonaqpərvər sahibi Şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə böyük sevinclə Bakıya gəlmişəm.

Bu tədbiri hərtərəfli dəstəklədiyinə və söylədiyi fikirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirmək istərdim. 2010-cu ilin aprelində Dünya dini liderlərinin ilk Bakı Sammitinin keçirildiyi vaxtdan demək olar ki, 10 il sonra dinlərarası münasibətlər sahəsində yeni meyillər meydana çıxıb və ənənəvi dinlər qarşısında yeni çağırışlar durub. Son illər Bakıda və bir çox ölkələrdə Azərbaycanın himayədarlığı altında müasirliyin çətin suallarına birlikdə cavab vermək məqsədilə çoxsaylı dinlərarası və mədəniyyətlərarası tədbirlər keçirilir. Əsasən Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri möhtərəm Şeyxülislam Allahşükür Paşazadənin səyləri ilə məhz Bakı qlobal səviyyəli dinlərarası dialoq üçün mühüm meydana çevrilib.

Son onilliklər Yer kürəsinin ayrı-ayrı nöqtələrində müxtəlif münaqişələr və terrorçuluğun indiyədək görünməmiş tüğyanı ilə hamını kədərləndirib. Terrorçular günahsız dinc insanların qanını axıdır. Şri-Lanka, Yeni Zelandiya, Suriya, İraq, Əfqanıstan, Fransa - bunlar son iki ildə dünyanı sarsıdan terror aktlarının törədildiyi ölkələrin heç də tam siyahısı deyil. Etiraf etməliyik ki, ənənəvi dinlərə qarşı müharibə gedir. Bu müharibə şəhər və kəndlərdə, informasiya məkanında, ən vacibi isə insanların şüurlarında və qəlblərində aparılır. Ən təhlükəlisi budur ki, bu müharibədə ön sıralarda gənc nəslin nümayəndələri döyüşür. Ekstremist hərəkatın ideoloqları gənclərdə həyat təcrübəsinin olmamasından, onun nəyin bahasına olursa-olsun öz baxışlarını müdafiə etməyə hazırlığından istifadə edir. Bütün bunlar savadın aşağı səviyyəsi, təkcə digər dinlər haqqında deyil, hətta öz dini ənənələri haqqında baza biliklərinin çatışmazlığı ilə daha da dərinləşir. Biz hamımız bu gün informasiya müharibələrinin aparılması üçün hansı böyük resurslardan istifadə olunduğunu bilirik. Əlbəttə, biz dini xadimlər daimi təhdidlərə vərdiş etmişik. Şər qüvvələr öz həyatını Tanrıya xidmətə həsr edənlərə qara yaxmaq cəhdlərini heç vaxt tərk etməyiblər. Amma bu, o demək deyil ki, biz enerjili və çox şey vəd edən gənclərimizin vicdansız adamlar tərəfindən özlərini aldatmasına və istifadə olunmasına sakitcə durub baxmalıyıq. Niyə ekstremistlərin təbliğatı müəyyən uğur qazanır? Güman edirəm, ilk növbədə, ona görə ki, onlar dindar adamların müasir sekulyar paradiqmalarını qəbul etməmələrindən bəhrələnirlər. Hər tərəfdən təlqin ediləndə ki, həyatda ən əsas şeylər uğur, var-dövlət, ləzzətdir, onda dindar insan bu cür yanlış dəyərlərin aqressiv sırınmasına qarşı etiraz etməyə bilmir. Sistemin ənənəvi dəyərlərinin böhranı təxribatçılar və ekstremistlər üçün geniş meydan açır. Onlar öz ideologiyalarını və sekulyar ideologiyanı asanlıqla dəyişir, onların toxumları münbit torpağa düşür. Buna görə də biz dini liderlər kimi nəinki ekstremizmi rədd və ittiham etməliyik, həm də cəmiyyətdə müqəddəs yazılara əsaslanan sarsılmaz dəyərləri, ailəni, nikahı, böyüklərə hörməti, dinə hörməti, insanın dini seçimini, iztirab çəkənlərə və kimsəsizlərə dəstəyi tərbiyə etməliyik. İnandırıcı nümunələrlə möhkəmləndirilən bu ideyaları biz informasiya məkanında fəal translyasiya etməliyik. Bu gün bizim öz həmrəyliyimizi və əzab çəkən qardaşlarımıza diqqətimizi nümayiş etdirmək üçün çox gözəl imkanımız var. Mən son illərdə dağıdıcı qanlı münaqişələrdən əhalisinin çox ziyan çəkdiyi Yaxın Şərq regionu haqqında danışıram. Terrorçuların Suriyaya və İraqa vurduğu ziyanı görmək ağırdır. Yaxın Şərq böhranı kütləvi miqrasiyaya səbəb olub. Təəssüf ki, heç də bütün miqrantlar gəldikləri ölkələrin yerli əhalisi ilə qarşılıqlı fəaliyyət göstərməyə hazır olmadılar. Çoxlarının elementar dinlərarası və millətlərarası ünsiyyət mədəniyyəti çatmadı. Buna görə də bugünkü Sammit kimi təşəbbüslər xüsusilə əhəmiyyətlidir.

Bu gün sekulyarizm cəmiyyətdə getdikcə daha çox yayılır və özündə dinin olmasını təkzib edir. Sekulyar ideyanın tərəfdarları hesab edirlər ki, dindən imtina etmək bütün insanların ümumi rifahına xidmət edir. İnformasiya texnologiyalarının fəal inkişafı sayəsində cəmiyyətdə dini təşkilatlar obrazı köhnəlmiş məhdud dünyagörüşü sırıyan dini təşkilat obrazı kimi təbliğ edilir, mənəviyyat haqqında müasir təsəvvür yoxdur. Həm də bu zaman dindarlıqla birlikdə kişi ilə qadının ittifaqı kimi nikah, insanın doğulduğu andan təbii həyata qədərki ömrünün toxunulmazlığı, qeyri-təbii ədəbsiz özbaşınalığı aşıq-aşkar tənqid etməyə özündə güc və mərdlik tapan insanlar rədd olunur. Sekulyar ideologiyanın nümayəndələri onları dözülməzlikdə ittiham edirlər. Biz bir vaxtlar xristianlığın bəhrəsi olan, indi isə öz dini simasını sürətlə itirən Avropadakı vəziyyəti ürəkağrısı ilə qəbul edirik.

Bu zala müxtəlif dini ənənələrin nümayəndələri toplaşıblar. Dinlərin obyektiv fərqinə baxmayaraq, biz ictimai tərbiyə məsələlərinə eyni cür baxırıq. Bizim ümumi borcumuz və birgə vəzifəmiz - insanın həyatında mənəvi istiqamətləri göstərməkdir. Dini liderlər siyasi liderlərə yekdilliklə müraciət edə bilərlər və etməlidirlər. Siyasi vəzifələri zəiflərin ağrıları, o cümlədən zəif dövlətlərin hesabına həll etməyi dayandırmağın zəruriliyini birmənalı şəkildə bildirmək vaxtıdır. Enerji resurslarını məsuliyyətsiz bölməyi dayandırmaq vaxtıdır. Dünya ölkələrini birinci, ikinci və üçüncü dərəcələrə bölməyi dayandırmaq vaxtıdır. İstərdik ki, daha inkişaf etmiş və varlı dövlətlər bəşəriyyətin taleyinə görə öz məsuliyyətlərini dərk etsinlər. Onlar qlobal qaydaların diktatorları yox, təhlükəsizliyin və sabitliyin təminatçıları olmalıdırlar. Təcrübənin göstərdiyi kimi, bəzi dövlətlərin digərlərinə öz qaydalarını, ənənələrini və mədəniyyətlərini sırımaları yaxşı heç nəyə gətirib çıxarmır. Xalqların özünəməxsusluğu və azadlığı təhlükəsiz və dinc birgəyaşayışın rəhnidir. Yoxsul ölkələrdə təbii ehtiyatların yırtıcılıqla hasilatının və ətraf mühitin çirkləndirilməsinin dayandırılması çox vacibdir. Biz insanların rifahı üçün yaradılmış Tanrı nemətlərinə görə məsuliyyət daşıyırıq və bizim müraciətimiz hər bir insana ünvanlanıb. Biz də səmimi-qəlbdən inanırıq ki, onu eşidəcəklər.

Mən dini azlıqların təqib olunması kimi problemi xatırlatmaq istərdim. Ən iri yerli pravoslav kilsələrindən birinin rəhbəri kimi mən bir sıra ölkələrdə dindaşlarımın ayrı-seçkiliyə məruz qalması haqqında danışmalıyam. Onlar tez-tez təqiblərə məruz qalırlar. Yaxın Şərqdə, bütün avromik dinlər üçün müqəddəs torpaqda xristianlığın mövcudluğuna ciddi ziyan vurulub. Tarix sübut edir ki, xristianlar, müsəlmanlar və yəhudilər əsrlər boyu bu torpaqda birlikdə yaşayıb və bu gün onlar sülhün qorunması üçün eyni dərəcədə məsuliyyət daşıyırlar. Xristianların təqib olunması haqqında danışarkən Afrikadakı problemdən yan keçmək olmaz. Cənubi Saxaranın bir sıra dövlətləri ekstremist qruplaşmaların nəzarətsiz fəaliyyətindən əzab çəkir. Xüsusilə Nigeriyada xristianların əsl soyqırımı törədilir. Mən bütün xoşməramlı insanları Afrika ölkələrində xristianların problemlərini diqqətdən kənarda qoymamağa çağırıram. Əminəm ki, dini liderlər dialoq yolu ilə bu gün bəşəriyyətin rastlaşdığı problemlərə ciddi təsir göstərə bilərlər. Bizim səsimiz o vaxt inandırıcı olar ki, birlikdə və həmrəyliklə səslənsin. Əminəm ki, biz birlikdə Tanrı qarşısında cavabdeh olduğumuz sülhyaradıcı vəzifəmizi yerinə yetirə bilərik. Səmimi-qəlbdən arzu edirəm ki, bugünkü Sammit bunun təsdiqinə çevrilsin.

Biz buraya daha mühüm və xoş səbəbə görə - Şeyxülislam Allahşükür Paşazadənin 70 illiyini qeyd etmək üçün toplaşmışıq. Bu gün Bakıya dünyanın hər yerindən yüzlərlə nüfuzlu dini liderin gəlməsi faktının özü çox şeydən, ilk növbədə, möhtərəm Şeyxülislamın yüksək nüfuzundan xəbər verir. Biz hamımız onu uzun illərdir ki, dostluğun, dinlər və xalqlar arasında dialoqun ardıcıl tərəfdarı kimi tanıyırıq. Bu gün bizim əziz şeyximizi 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik etmək və ona Rus Pravoslav Kilsəsinə göstərdiyi dəstəyə, sülhyaradıcı xidmətinə və anadan olmasının 70 illiyi ilə əlaqədar Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Müqəddəs Serafim Sarovski" ordenini təqdim etmək mənim üçün olduqca xoşdur.

Patriarx Kirill Rus Pravoslav Kilsəsinin birinci dərəcəli "Müqəddəs Serafim Sarovski" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

**Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas UMAXANOV** çıxış etdi və Prezident Vladimir Putinin Dünya dini liderlərinin II Bakı Sammitinə ünvanladığı məktubu oxudu.

- Çox hörmətli İlham Heydər oğlu.

Zati-müqəddəsləri, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə.

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı.

Hörmətli iştirakçılar, dostlar, qardaşlar, həmkarlar.

Mən artıq burada səslənən fikirlərə xoş niyyətlərlə qoşuluram və məncə, bizim Sammitin məqsədlərinə və vəzifələrinə birbaşa aidiyyəti olan bir sitat gətirmək istəyirəm: "Əsl mənəviyyatı nə milyonlara, nə də milyardlara almaq olmaz, lakin mənəviyyatdan məhrum olan insanların cəmiyyətdə heç bir dəyəri yoxdur, hətta əgər onların həmin milyonları və milyardları olsa da". Bu sözlər Azərbaycan xalqının böyük oğlu, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevə məxsusdur.

Mən daha bir böyük tapşırığı yerinə yetirmək istərdim. Bu gün bu, mənim üçün böyük şərəfdir. Xeyir-dualı Azərbaycan paytaxtında, çoxkonfessiyalı və çoxmillətli Bakıda Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin Qafqaz Müsəlmanları İdarəsinin sədrinə, MDB Dinlərarası Şurasının həmsədri zati-müqəddəsləri Şeyxülislam Allahşükür Paşazadəyə məktubunu səsləndirmək istəyirəm.

"Zati-müqəddəsləri, 70 illiyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Qafqazda sülhün və ictimai razılığın möhkəmləndirilməsinə yönəlmiş çoxillik yorulmaz xidmətinizlə Siz həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təkzibolunmaz yüksək nüfuz qazanmısınız. Sizin Rusiyanın Mərkəzi Müsəlman Təşkilatları və Rus Pravoslav Kilsəsi ilə məhsuldar işbirliyinə, qədim dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimada əsaslanan Rusiya-Azərbaycan münasibətlərinə mühüm töhfələrinizi dərin məmnunluqla qeyd edirəm. Zati-müqəddəsləri, Sizə cansağlığı və mühüm və zəruri dini-maarifçilik, sülhyaradıcı missiyanızda, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar arzulayıram.

Hörmətlə, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin".

Hörmətli İlham Heydər oğlu, Sizin dostunuz Vladimir Vladimiroviç Putindən mənim daha bir tapşırığım var. O, mənə Rusiya Federasiyası Prezidentinin "Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Hümmət oğlu Paşazadənin cəmiyyətdə mənəviyyatın, tolerantlığın yüksəldilməsinə, fəal ictimai fəaliyyətə, xalqlar arasında, mədəni-dini sahədə etimad mühitinin qurulmasına yönəlmiş fəaliyyətinə görə "Xeyirxah işlərə görə fərqlənmə nişanı" ilə mükafatlandırmaq haqqında" fərmanını səsləndirməyi tapşırıb.

Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanov fərmanı oxudu və "Xeyirxah işlərə görə fərqlənmə nişanı"nı Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

**Türkiyə Diyanət İşləri başqanı Ali ERBAŞ** çıxış etdi və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxudu:

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Zati-alilərini və bu toplantıda iştirak edən dünya dini liderlərini hörmət və sevgi ilə salamlayıram.

# inkişafında önəmli rol oynayır







Əs-sələmu aleykum və rəhmətullahi və bərəkətuhu.

Türkiyə Respublikasının Prezidenti möhtərəm Rəcəb Tayyib Ərdoğanın Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə göndərdiyi məktubu diqqətinizə təqdim edirəm.

"Çox hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətləri, Qafqaz Müsəlmanları İdarəsinin sədri.

Əziz dostum, qardaşım Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək təqdiri ilə, anadan olmağınızın 70 illiyi və şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə keçirilən Sammitin uğurlu olmasını diləyirəm.

Fəaliyyətə başlamağınızdan bu günə qədər Azərbaycan ilə birlikdə bölgəmizdə faydalı töhfələrinizlə dini xidmətlərin yayılması sahəsində çox mühüm irəliləyişlərin əldə edildiyini bilirəm. Bu xidmətlərinizin islam aləminin və bütün bəşəriyyətin xeyrinə olmasını sidqi-ürəkdən arzu edirəm.

Uzun illər ərzində belə mühüm və məsuliyyəti böyük olan bir vəzifənin öhdəsindən uğurla gəldiyiniz üçün Sizi təbrik edirəm.

Fürsətdən istifadə edərək Allah-Təaladan Sizə cansağlığı, rəhbərlik etdiyiniz kollektivə uğurlar və müvəffəqiyyətlər diləyirəm.

Sizin vasitənizlə azərbaycanlı qardaşlarımıza sülh, cansağlığı, əmin-amanlıq və xoşbəxtlik diləyirəm.

Ən səmimi salamlarımla,
Rəcəb Tayyib Ərdoğan
Türkiyə Respublikasının Prezidenti".

* * *

**İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi TÜRKMAN** çıxış edərək dedi:

- Azərbaycan Respublikasının möhtərəm Prezidenti bu ili "Nəsimi ili" elan edib.

Azərbaycan dövlətinin, şəxsən cənab Prezident İlham Əliyevin və həmçinin Allahşükür Paşazadənin təşəbbüsü ilə keçirilən bu Sammitə görə təşəkkür edir və uğurlar arzulayıram. Azərbaycan dövlətinə və xalqına xoşbəxtlik diləyirəm. Təşəkkür edirəm.

* * *

**Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-ŞƏRİF** çıxış edərək dedi:

- Cənab Prezident, icazə verin, zati-alinizə, eyni zamanda, qardaş Azərbaycan xalqına gözəl qarşılanma və ev sahibliyinə görə dərin təşəkkür və ehtiramımı bildirim. Habelə icazə verin, Misir rəhbərliyinin - cənab Prezident Əbdülfəttah əs-Sisinin, Misir parlamentinin, hökumətinin və xalqının salamlarını Sizə çatdırım. Həmçinin Sizin müdrik rəhbərliyinizlə uğurlar qazanan Azərbaycan xalqını təbrik edim. İndi Sizin ölkədə müşahidə etdiyimiz rifah və tərəqqi nümunə götürüləcək məsələlərdən biridir.

Misir və Azərbaycan iki qardaş ölkədir və onların arasında tarixin dərinliklərinə varan əlaqələr vardır. Bu əlaqələr dünyaya sülh mesajını daşıyan, ekstremizm və terrorla mübarizə aparan bütün bəşər övladları arasında insani qardaşlığı əhatə edən əlaqələrdir.

Öz adımdan, Əl-Əsəri Şərif alimləri adından, deputatlar adından şeyx həzrətləri Allahşükür Paşazadəyə bəşər övladları arasında dinc yaşayış mədəniyyətini yaymaqda göstərdiyi səylərə görə parlamentin qızıl medalını təqdim etmək istəyirəm. Sizə təşəkkür edirəm.

Misir Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif qızıl medalı Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

**Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm KASİMOV** Sammitdə çıxış edərək dedi:

- Möhtərəm İlham Heydər oğlu.

Çox hörmətli xanım Mehriban Əliyeva.

Çox hörmətli Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri, Bakı Sammitinin iştirakçıları.

İcazə verin, Özbəkistan Respublikasının nümayəndə heyəti adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Heydər oğlu Əliyevə, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə səmimi qəbul, qonaqpərvərlik və Sammitin çox gözəl təşkilinə görə ürəkdən təşəkkürümü bildirim, həmçinin bu cür mötəbər tədbirdə çıxış etmək imkanına görə minnətdarlığımı ifadə edim.

Qeyd etmək lazımdır ki, Azərbaycanda konstruktiv sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmlənməsinə kömək edən beynəlxalq tədbirlərin keçirilməsi gözəl ənənəyə çevrilib. Beynəlxalq Tolerantlıq Günü ərəfəsində bu cür böyük tədbirin təşkili əlamətdar hadisədir və əminəm ki, o, dialoqun dərinləşməsinə, millətlərarası anlaşmanın və dini tolerantlığın möhkəmlənməsi sahəsində sıx əməkdaşlığın inkişafına, müasir çağırışlara və təhlükələrə qarşı fəaliyyətə şərait yaradacaq.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, hazırda - dünya ictimaiyyətinin ziddiyyətlərin, həmçinin dini şüarlar altında ekstremizm və terrorizmin kəskinləşməsi problemlərindən narahatlıq keçirdiyi bir şəraitdə bu, çox vacibdir. Tolerantlıq Günü bizim respublikanın Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin təşəbbüsü ilə Özbəkistanda da geniş qeyd olunur. Bu il respublikanın bütün regionlarında "Özbəkistan - bizim ümumi evimiz" devizi altında təşkil olunan dostluq və mədəniyyət tədbirləri çərçivəsində tolerantlıq həftəsi keçirilir.

Hörmətli Sammit iştirakçıları, bu gün bizim ölkəmizdə, xüsusən yaradılmış İslam Sivilizasiya Mərkəzində, Beynəlxalq İslam Akademiyasında, İmam Buxari və İmam ət-Tirmizi elmi-tədqiqat mərkəzlərində, Ali Hədisşünaslıq Məktəbində milli və dini dəyərlərin dirçəldilməsi və qorunub saxlanılması, görkəmli alim və mütəfəkkirlərin zəngin elmi tarixi irsinin öyrənilməsi və təbliği, cəmiyyətdə dini tolerantlığın möhkəmlənməsi üzrə məqsədyönlü praktik iş aparılır. "Kəlam", "Hədis", "Təsəvvüf", "Akıda" və "Fikh" elmi ilahiyyat məktəbləri açılıb, Özbəkistan Müsəlmanları İdarəsinin dini müəssisələri nəzdində islamın humanist ideyalarını təbliğ edən və yayan təlim kursları fəaliyyət göstərir. Buxaradakı məşhur Miri Ərəb mədrəsəsinin statusu ali dini tədris müəssisəsi səviyyəsinə qaldırılıb. Yeri gəlmişkən, bu məktəbin məzunlarından biri də hörmətli Şeyxülislam Allahşükür Paşazadədir. Burada iştirak edən çox hörmətli din xadimlərinin arasında Miri Ərəb məktəbinin bir neçə məzununu görmək mənim üçün xoşdur. Onlar öz fundamental təhsilini bu mədrəsədə alıblar. Dini konfessiyaların səmərəli fəaliyyətinin həyata keçirilməsi, həmçinin onların cəmiyyət və dövlət həyatında fəal iştirakı üçün hər cür lazımi şərait yaradılıb. Ölkədə 182 qeyri-İslam dini təşkilatı, 16 konfessiya fəaliyyət göstərir. Özbəkistanda ekstremizmə qarşı profilaktika işinin səmərəli sistemi yaradılıb. Bu sistemin prioritet istiqaməti yanlışlıqla terrorçu və ekstremist, yaxud digər qadağan edilmiş təşkilat və qrupların tərkibinə daxil olmuş şəxslərin deradikallaşması və sosiallaşmasıdır. Məqsədyönlü fəaliyyət sayəsində biz radikal ideyaların təsiri altına düşmüş və sonra islah yoluna qayıtmış 20 min vətəndaşın yenidən sosiallaşması üçün əlverişli şərait yaradılmasına nail olmuşuq. Dövlət başçısının təşəbbüsü ilə əsasən Suriya və İraqda silahlı münaqişələr zonasından 220 min vətəndaşımızın vətənə qayıtması üzrə təşkil edilmiş "Mehr" və "Mehr-2" əməliyyatları həyata keçirilib.

Hörmətli Sammit iştirakçıları, müasir qlobal proseslər, təhlükəsizliyə getdikcə artan çağırışlar və təhdidlər səylərin birləşdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və konfessiyalararası dialoqun inkişafının zəruriliyini şərtləndirir. Məlum olduğu kimi, 2018-ci ilin dekabrında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının "Sülh mədəniyyəti" mövzusunda 73-cü sessiyasında "Maarifləndirmə və dini tolerantlıq" adlı xüsusi qətnamə qəbul edilib. Bu gün bütün dünya, o cümlədən islam icması həyəcanlı çağırışlarla üz-üzədir. Dini şüurun siyasiləşdirilməsi və müsəlman gənclərin radikallaşdırılması cəhdləri ən ciddi təhlil, qiymətləndirmə və adekvat cavabların verilməsini tələb edir. Təəssüflə qeyd etmək lazım gəlir ki, müəyyən qüvvələr islamofobiya əhval-ruhiyyəsini qızışdıraraq islamı terrorizm ideologiyası ilə əlaqələndirməyə çalışırlar. Hesab edirəm ki, bu cür reallıq islam dünyasını sıx birləşməyə məcbur edir, ölkələrimizin həmrəyliyi isə dünyada gərginliyin azaldılmasında rol oynaya bilər. Biz hesab edirik ki, bütün ölkələr bərabər səviyyədə bu istiqamətdə səy göstərə bilərlər. Biz bu aktual vəzifələrin öhdəsindən ancaq birgə səylərlə gələ bilərik. Bu fəaliyyətdə bizim böyük əcdadlarımızın mötədillik, dini etiqad, sülhsevərlik və qarşılıqlı anlaşma kimi yüksək ümumbəşəri dəyərlərlə müşahidə olunan mənəvi irsinin mahiyyətinin və məzmununun beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi yer ayrılmalıdır.

Əziz dostlar, əminəm ki, Dünya dini liderlərinin Bakı Sammiti konfessiyalararası münasibətlərin bəşəriyyətin ümumi maraqları naminə inkişafına və ekstremizm, terrorizm və separatçılıq kimi qlobal təhlükələrin aradan qaldırılmasına yeni təkan olacaq.

İcazə verin, Sammit iştirakçılarına məhsuldar iş, möhkəm cansağlığı, sülh və əmin-amanlıq arzulayım.

Hörmətli İlham Heydər oğlu, icazə verin, çox hörmətli Şeyxülislamın Özbəkistan Respublikasının dövlət mükafatı ilə təltif olunması haqqında Özbəkistan Respublikası Prezidentinin fərmanını oxuyum və mükafatı ona təqdim edim.

"Allahşükür Hümmət oğlu Paşazadənin "Dostluq" ordeni ilə təltif olunması haqqında" Özbəkistan Respublikası Prezidentinin fərmanı:

"Dünya sivilizasiyasının inkişafında müsəlman aləminin böyük alimləri və mütəfəkkirlərinin misilsiz töhfəsinin öyrənilməsi istiqamətində məhsuldar və aktiv fəaliyyətinə, müqəddəs islam dininin humanist fəaliyyətinin müxtəlif millətlərin və xalqların nümayəndələrinə geniş çatdırılmasına, beynəlxalq miqyasda konfessiyalararası və mədəniyyətlərarası dialoqun qurulmasına, özbək və Azərbaycan xalqları arasında dostluq və əməkdaşlığın, o cümlədən elm və maarifçilik sahəsində əlaqələrin möhkəmlənməsində böyük xidmətlərinə, dini və dünyəvi biliklərə malik olan ixtisaslı kadrların hazırlanmasında layiqli töhfəsinə, gənc nəslin tolerantlıq ruhunda tərbiyə olunmasına, sülh və anlaşmaya, qarşılıqlı hörmətə görə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Hümmət oğlu Paşazadə "Dostluq" ordeni ilə təltif olunsun".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev".

Dövlət müşaviri Rüstəm Kasimov Özbəkistanın "Dostluq" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

**Gürcüstanın Azərbaycandakı səfiri Zurab PATARADZE** çıxış etdi və Prezident Salome Zurabişvilinin məktubunu oxudu.

- Hörmətli Prezident cənab İlham Əliyev, ilk növbədə, Sizi salamlayıram.

Hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətlərini salamlayıram.

Hörmətli qonaqlar, sizi salamlayıram.

Mən burada Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təbrik məktubunu diqqətinizə çatdırmaq istərdim.

"Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə.

Zati-müqəddəsləri, sizi bir daha böyük ehtiramla 70 illik yubileyiniz və şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Siz öz ölkənizdə dini möhkəmləndirmisiniz, bu isə böyük məsuliyyətli və şərəfli işdir. Təəssüf hissi ilə bildirirəm ki, bu mühüm tarixlərə həsr olunmuş tədbirlərdə iştirak edə bilməyəcəyəm. Gürcülər və azərbaycanlılar fərqli dinlərin nümayəndələridir. Lakin buna baxmayaraq, bizi yaxın dostluq əlaqələri birləşdirir. Bu münasibətlərin qorunub saxlanılmasında və möhkəmləndirilməsində mən hər zaman sizin və Gürcüstanın katolikos-patriarxının şəxsi rolunu görürəm. İnanıram ki, bu dostluq heç zaman sarsılmayacaq, onu qoruyub saxlayacağıq və bununla regionumuzu daha da gücləndirəcəyik. Məhz bizim region üçün sülh, inkişaf xüsusi əhəmiyyət kəsb edir. Sizə uzun ömür və gümrahlıq diləyirəm. Sizə fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Hörmətlə,
Salome Zurabişvili, Gürcüstanın Prezidenti".

* * *

**Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah MEZHİYEV** Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun məktubunu oxudu.

- Hörmətli Prezident İlham Heydər oğlu.

Bu ali məclisin hörmətli iştirakçıları.

Mən Çeçenistan Respublikasının başçısı Ramzan Əhmədoviç Kadırovun adından təbrik məktubunu diqqətinizə çatdırıram.

"Mən Dünya dini liderlərinin II Sammitinin iştirakçılarını və qonaqlarını salamlayıram. Sammit təkcə qardaş Azərbaycan üçün yox, həm də bütün Qafqaz üçün əlamətdar hadisədir. Çeçenistan Respublikasının birinci Prezidenti, Rusiyanın Qəhrəmanı Hacı Əhməd Kadırov hörmətli Şeyxülislam Allahşükür Paşazadənin dostu olub. Onlar Qafqaz üçün mürəkkəb illərdə öz birgə fəaliyyəti ilə qardaş xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma körpüsü yaradıblar. Biz indi bu qiymətli irsin bəhrəsini görürük. Rusiya və Azərbaycan siyasi və dini məsələlərdə ortaq mövqeyə malikdirlər. Bu mövqe radikalizmə yol verilməməsi prinsiplərinə əsaslanır.

Çeçenistanın ekstremizmə və terrorizmə qarşı mübarizədə böyük təcrübəsi var. Qanunsuz silahlı qruplaşmaların 11 mindən çox üzvü Hacı Əhməd Kadırovun səyləri sayəsində tərk-silah olub. Hacı Əhməd Kadırov müharibənin davam etməsinin yolverilməzliyi barədə dindən əsaslar gətirib. Həmin dindən ki, Peyğəmbər bütün dünyaya mərhəmət yayıb. Şübhəsiz ki, islam ümmətinin əsas vəzifələrindən biri bütün sağlam qüvvələrin birləşməsidir və mübaliğəsiz demək olar ki, Şeyxülislam Allahşükür Paşazadənin Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyəti buna xidmət edir. Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin yaradılmasını vaxtında atılmış və zəruri addım olduğunu hesab edirəm. Bu addım ortaq səyləri əlaqələndirməyə kömək edəcək.

Bu gün Qafqazda dinlərin və mədəniyyətlərin dialoquna həmişəkindən daha çox ehtiyac var. Bunun üçün potensial mövcuddur. Başlıcası, dinimizin əməkdaşlığa və qarşılıqlı anlaşmaya çağırmasını əsas tutaraq planauyğun iş aparmaqdır. Müqəddəs Quranda deyilir: "Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!" İslam ümmətinin tarixi bizə meydana gələn problemləri, nifaq və fikir ayrılıqlarını necə aşmağın mümkün və lazım olduğunu göstərir. Bizim saleh əcdadlarımız ağır sınaqlardan keçiblər və sülh və anlaşma şəraitində yaşamağı vəsiyyət ediblər. Birliyin qüdrətli gücü təkcə müsəlmanları deyil, həm də bütün bəşəriyyəti dəyişəcək. Əminəm ki, Sammit müasir dövrün bir sıra aktual problemlərinin həllinə sanballı töhfə olacaq.

Çeçenistan Respublikasının başçısı, Rusiyanın Qəhrəmanı Ramzan Əhmədoviç Kadırov".

Hörmətli şeyx həzrətləri, icazə verin Ramzan Əhmədoviç Kadırovun və bütün çeçen xalqının adından Sizə yubileyiniz münasibətilə təbrikləri çatdırım və Uca Allahın kitabı olan Quranı təqdim edim.

Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah Mezhiyev "Qurani-Kərim"i Şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.

* * *

Əsas **Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm HONLAYN** dini liderlərin ülvi məqsədləri yaymasının vacibliyindən danışdı, Dini liderlərin Bakı Sammitinin əhəmiyyətinə toxunaraq dedi:

- Bu tədbir cəmiyyətlərdə fikir ayrılıqlarının şahidi olduğumuz və din pərdəsi altında nifrət, fanatizm, irqçilik aktlarının həyata keçirildiyi dövrdə mühüm əhəmiyyətə malikdir. Təbii ki, bu, öz fəaliyyəti və işləri ilə ardıcıl olaraq cəsarət və anlayış nümayiş etdirən Prezident İlham Əliyevin rəhbərliyi sayəsində mümkün olmuşdur. Həm Prezident İlham Əliyev, həm də Şeyxülislam sözləri işlərlə uzlaşdırırlar. Onlar bilirlər ki, hansı ortaq dəyərlərə sahib olduğumuzu görmək və bizi ayıran yox, birləşdirən məqamların nələr olduğunu vurğulamaq üçün bir araya gəlmişik. Biz dünya liderləri səviyyəsində buraya toplaşmışıq ki, qarşılıqlı anlaşmanı, tolerantlığı təbliğ edək və Prezident İlham Əliyev və Şeyxülislam tərəfindən müəyyən edilmiş nümunəni izləyək. Mən bizi bu yolla bir araya gətirə biləcək çox lider tanımıram.

Prezident İlham Əliyev və Şeyxülislam bəyanatlar və sözlər verməklə kifayətlənmir, onların həyata keçməsi üçün əməli addımlar atırlar. Başqalarının istismarçılıqla məşğul olub, insanlar arasında gərginliklər yaratdığı bir vaxtda onlar hamının bir araya gəlməsinin nə qədər faydalı ola biləcəyini göstərirlər. Hamı bu yanaşmadan qazana bilər.

Biz bütün dünyada çox vaxt digər dinləri hədəfə almaqla dini motivasiyalı, nifrət zəminində cinayətlərin sayının kəskin şəkildə artdığının şahidi oluruq. Biz xristianların, müsəlmanların, bütün dinlərin nümayəndələrinin hədəfə alındığını görmüşük. Biz xüsusilə yəhudilərə münasibətdə nifrət - antisemitizm aktlarının artmasının şahidi olmuşuq. Yəhudi inancından olan fərdlər və təsisatlar fiziki zorakılıq, ayrı-seçkilik və qısnama aktlarının hədəfinə çevriliblər. Bunun şahidi olmadığımız yerlərdən biri məhz bura - Azərbaycandır.

Bizim Prezident və Şeyxülislamın göstərdiyi nümunəyə əməl etməkdə üzərimizə düşəni etməməyimiz o deməkdir ki, bütün gələcək nəsillər də buna görə əziyyət çəkəcəklər. Nifrətə yox deməyin vaxtı çatıb.

Amerikanın yəhudi icması cənab Prezident İlham Əliyev, Sizə və hörmətli Şeyxülislam, Sizə nümunə olduğunuza sizə ehtiramını bildirir. Siz böyük liderlər və dəyərli dostlarsınız. Ümidvarıq ki, alınan dərslər gələcəkdə digər liderlərə nümunə olacaq.

* * *

**KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin MUAMMAR** çıxışını gənc liderlərin mədəniyyətlərarası dialoqda, tolerantlığın qorunmasında daha böyük rol oynamasının önəminə yönəltdi.

* * *

Sonra **Qüds-Yerusəlimin ortodoks baş ravini Şlomo AMAR** çıxış etdi. O, belə tədbirlərin onların sıralarını artırdığını və daha çox sabitlik gətirdiyini vurğulayaraq dedi:

- Azərbaycan dünya miqyasında elə bir ölkədir ki, burada bütün proseslər sabit, rəvan şəkildə həyata keçirilir. Prezident İlham Əliyev bu gün bir çox cəmiyyətlər üçün bir siyasi xadim kimi çox yaxşı nümunədir, öz fəaliyyəti ilə yaxşı örnəkdir. Biz görürük ki, burada dinlər arasında anlaşmaya xüsusi töhfə verilir. Siz, həmçinin xalqlar arasında da dostluq münasibətlərinin, sülhsevərlik mədəniyyətinin daha da inkişafına töhfə verirsiniz. Siz, əslində, öz səsinizlə bizim bu birliyimizi gücləndirirsiniz.

Mənim yaxşı xatirimdədir, artıq 10 il keçir, mən ilk dəfə ölkənizə səfər etdim, Prezident İlham Əliyevlə görüşdüm və bir sıra digər rəsmilərlə də görüşlərim oldu. Görüşümüz zamanı xüsusi bir qərar qəbul olundu ki, bizim yəhudi məktəbimiz paytaxt şəhərinizdə tikilsin. Biz buna görə minnətdarıq. Əlbəttə, bu, əslində, Prezident İlham Əliyevin xoş məramı, xoş arzusu, niyyəti idi ki, bu məktəb tikildi. Təbii ki, onun istəyi hər zaman insanlar arasında yaxşı işlərin görülməsinə yönələn bir arzudur. Bilirik ki, ümumiyyətlə, Azərbaycanda belə nəcib layihələrin sayı kifayət qədər çoxdur. Bilirik ki, sinaqoqun tam şəkildə bərpa olunmasına, yəhudi icmasının arzu və istəklərinin həllinə böyük töhfələr verilib. Bir azlıq olaraq Azərbaycanda hər zaman Prezident tərəfindən bizə olan rəğbətin, hörmətin şahidi olmuşuq.

* * *

**BMT Baş katibinin humanitar məsələlər üzrə xüsusi məsləhətçisi Abdallah əl-MƏTUQ** çıxış edərək dedi:

- Biz, bu Sammitin məhz Azərbaycanda keçirilməsini yüksək qiymətləndiririk. Birgəyaşayış, multikulturalizm dəyərlərinə dəstək olaraq, bu Sammitdə iştirakımızdan qürur hissi keçiririk.

Xüsusilə də Azərbaycan dini liderlər arasında körpü yaratmaq, dialoq yollarını gücləndirmək, müştərək insani dəyərləri dərinləşdirmək, multikulturalizm və dini dəyərlər vasitəsilə gənclərin düşüncəsini inkişaf etdirmək, həmçinin ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik bir ölkədir.

* * *

**Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Rəşid TEMREZOV** bu tədbirin Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunaraq dedi:

- Əvvəlcə mən hörmətli cənab Prezidentə təşəkkürümü bildirirəm ki, Siz bizi Azərbaycana dəvət etdiniz. Biz hər zaman böyük məmnunluqla ölkənizə səfər edirik və hər zaman burada müsbət dəyişikliklərin şahidi oluruq. Hər zaman anlayırıq ki, regionlararası səviyyədə Rusiya Federasiyasının subyektləri ilə Azərbaycan Respublikası arasındakı əməkdaşlıq ildən-ilə yaxşılaşır, güclənir.

* * *

**Bütün Gürcüstanın katolikos-patriarxı II İlyanın vikarisi mitropolit TEODOR** Patriarxın məktubunu oxudu.

Qloballaşmanın sülhə təsirinin aktual məsələ olaraq qaldığı vurğulanan məktubda problemlərin aradan qaldırılmasında dini liderlərin öz sözlərini deməlәrinin vacibliyi qeyd olunur.

Məktubda deyilir: "Bu beynəlxalq Sammitin təşkilatçılarını və iştirakçılarını, Azərbaycan Prezidenti zati-aliləri cənab İlham Əliyevi, dini liderləri və müxtəlif ölkələrin siyasi xadimlərini səmimi-qəlbdən salamlayırıq. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin rəhbəri Şeyxülislam Allahşükür Paşazadəni xüsusi olaraq salamlayırıq. Onun 70 yaşının tamam olması, eləcə də Şeyxülislam kimi 40 illik xidməti bu tədbirin Azərbaycanda keçirilməsində başlıca meyarlardan biridir".

* * *

**Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri əl-Sayed əl-HAŞİM** çıxış edərək Sammitin önəmindən danışdı, Azərbaycanın dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələri vurğuladı.

* * *

**Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri Xaled AKAŞE** çıxış edərək dedi:

- Cənab Prezident, ölkəniz çoxmillətlidir. Burada müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri dinc yanaşı yaşayırlar. Sizin rəhbərlik etdiyiniz və vətəndaşlarının qayğısına qaldığınız ölkədə din dövlətdən ayrıdır. Bu, nə dinə düşmənçilik, nə də onun cəmiyyətdəki rolunu görməməzlikdir. Bu, adi işlərlə müdrikliyi fərqləndirmək, ədaləti qorumaq, insanlar arasında bərabərliyi həyata keçirmək zərurətindən irəli gəlir.

Həmçinin Azərbaycan Sizin rəhbərliyinizlə təkcə ölkə daxilində deyil, eləcə də regionda və dünya miqyasında qarşılıqlı hörmətin, sülh şəraitində birgəyaşayışın və səmərəli əməkdaşlığın güclənməsi üçün çox dəyərli iş görür. Dini liderlərin bu özünəməxsus toplantısı dediklərimə ən yaxşı sübutdur.

* * *

**"RABİTA" Müsəlman Dünyası Liqası Baş katibinin müavini Əbdüləziz Əhməd SARHAN** və **"Yaşamaq sənəti" beynəlxalq təşkilatının təsisçisinin xüsusi nümayəndəsi Svami DİVYATEÇ** çıxışlarında terrorizmin bütün təzahürlərini pisləyərək gənclərə din haqqında məlumatların daha dolğun çatdırılmasının əhəmiyyətini vurğuladılar, mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyini qeyd etdilər.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə bir daha Sammitin əhəmiyyətini vurğulayaraq tədbirə gələn qonaqlara təşəkkürünü bildirdi.

* * *

Qeyd edək ki, Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak edirlər.

Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə evsahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır.

İkigünlük Sammitdə "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" mövzuları ətrafında müzakirələr aparılacaq.

Sammitin yekunlarına dair Bakı Bəyannaməsi qəbul olunacaq.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il aprelin 11-də Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.

# *Bütün Rusiyanın Patriarxı Kirill:* "Mən Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, Siz bizə dünya dinlərinin nümayəndələri ilə görüşmək imkanı yaratdınız"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 14-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Zati-müqəddəsləri, Sizə bir daha "Xoş gəlmisiniz" demək istəyirəm, Sizi yenidən görməyimə çox şadam. Sağ olun ki, Dünya dini liderlərinin Sammitində iştirak edirsiniz. Sizin bu tədbirdə iştirak etməyiniz ona xüsusi əhəmiyyət verir. Sizin dərin nitqinizi çox diqqətlə dinlədim. Sizin tezislərinizlə, vəziyyətə verdiyiniz qiymətlə, ənənəvi dəyərləri, dünya dinlərinin prinsiplərini müdafiə etmək və dinlərarası dialoqu inkişaf etdirmək üçün nə etmək lazım olması barədə fikirlərinizlə tam razıyam.

Mənim fikrimcə, bugünkü tədbir bütün dünya üçün çox böyük əhəmiyyət kəsb edir. Ona görə ki, dini liderlərin bu formatda keçirilən, bu cür təmsil olunmuş Sammiti dünya dinlərinin liderlərinin əməkdaşlığa yönəlmiş əhvali-ruhiyyəsini əks etdirir. Dünya dinlərinin nümayəndələrinin sözündən çox şey asılıdır. Söz sağalda bilər, söz yaralaya bilər, söz öldürə bilər. Ona görə də bu gün bütün çıxışlarda səslənən bu cür konsensus belə bir nikbinlik yaradır ki, biz birgə səylərimizlə humanizm, əməkdaşlıq, sülh, qarşılıqlı anlaşma dəyərlərini inkişaf etdirəcəyik. Əlbəttə ki, Azərbaycan bu istiqamətdə mühüm rol oynayır. Mən öz çıxışımda dedim ki, biz mədəniyyətlərarası dialoqun inkişafı ilə bağlı humanitar xarakterli çoxlu tədbirlər keçiririk. Lakin bugünkü tədbir, əlbəttə ki, xüsusi tədbirdir. Sevindirici haldır ki, bu tədbirdə dünya dinlərinin görkəmli nümayəndələri, rəhbərləri iştirak edirlər.

Bir daha təşəkkür edirəm ki, Siz vaxt tapıb gəlmisiniz və bu tədbirdə iştirak edirsiniz. Bu gün Mehriban ilə mən Sizinlə həm Bakıda, həm də Moskvada bütün görüşlərimizi xatırladıq. Bütün Azərbaycan xalqının adından Sizə bir daha dərin ehtiramımızı bildirmək istərdim. Biz bilirik ki, Sizin bizə, ölkəmizə münasibətiniz çox xeyirxahdır, Siz dəfələrlə bizə təşrif gətirmisiniz. Sizə bir daha təşəkkür edirəm və ümidvarıq ki, yaxın vaxtlarda yenidən görüşəcəyik.

* * *

Moskvanın və **Bütün Rusiyanın Patriarxı KİRİLL** dedi:

- Cənab Prezident, hörmətli İlham Heydər oğlu, Sizə ürəkdən təşəkkür edirəm. Bakıya səfər etmək mənim üçün həmişə yalnız müsbət emosiyalarla bağlıdır. Biz özümüzdən soruşanda ki, hər hansı bir yer nə üçün xoşumuza gəlir və ya xoşumuza gəlmir, yəqin ki, cavab belə olacaq: hər şey bizim bu və ya digər yerə gedərkən keçirdiyimiz hisslərdən asılıdır. Bakı çox cəhətdən heyrət doğurur. Mən hələ sovet dövründə burada, Bakıda olmuşam və bu şəhər yadımdadır. İndi gördüklərimizi müqayisə etsək, gecə və gündüz qədər fərq var. Bu, əlbəttə, Sizin rəhbərliyinizlə ölkənizdə həyata keçirilmiş və davam edən böyük inkişafa dəlalət edir. Əlbəttə, Azərbaycan yoxsul ölkə deyil, lakin biz elə nümunələr bilirik ki, pulun olması inkişafa kömək etmir. Burada isə həqiqətən görürük ki, vəsait həyatın daha da yaxşılaşmasına, insanların daha yaxşı yaşamasına sərmayə kimi qoyulur.

Bir daha vurğulamaq istərdim ki, təkcə Bakının zahiri görkəmi, əlbəttə, çox böyük tərəqqiyə dəlalət edir. Mən Sizə həm də ona görə təşəkkür etmək istərdim ki, Siz bizə dünya dinlərinin nümayəndələri ilə görüşmək imkanı yaratdınız. Mənim fikrimcə, bizim bu cür görüşlərdən çıxarmalı olduğumuz ən başlıca nəticə ondan ibarətdir ki, əxlaq olmasa dünyada istər siyasi, istərsə də fəlsəfi səviyyədə heç bir konsensus ola bilməz. Dünyada konsensus üçün yalnız bir bazis var - əxlaq. Ona görə ki, əxlaq universal dəyərdir. Əgər nəzərə alsaq ki, əxlaq universaldır, xeyir və şər anlayışları bütün bəşəriyyət üçün eynidir. Bu, birinci növbədə əlbəttə, onu göstərir ki, Tanrı var. Ona görə ki, materialist nöqteyi-nəzərdən bəşər mədəniyyətlərinin bu cür böyük müxtəlifliyi şəraitində vahid əxlaqa malik olmaq mümkün olmazdı. Lakin əxlaq vahid və ümumi olduğuna görə, o bizim ünsiyyət saxlamağımıza, həqiqətən birlik yaratmağımıza və qarşıda duran hədəflərə nail olmağımıza imkan verir. Bu mənəvi, dini amilin vacibliyini anlayan dövlət xadimləri, əlbəttə ki, dərin hörmətə layiqdirlər.

Mən Sizi aşkar görünən nailiyyətlər, Sizin rəhbərliyinizlə xalqınızın, ölkənizin qazandığı uğurlar münasibətilə bir daha ürəkdən təbrik etmək, gələcək işlərinizdə Tanrıdan Sizə kömək diləmək, Sizin gözəl ailənizə xeyir-dua vermək istərdim. Mən bu ailə ilə sadəcə tanış olmaq deyil, onunla daxilən, mənəvi cəhətdən yaxın oldum. Qoy Sizin bütün işləriniz, xalqınızın, ölkənizin firavanlığına yönəlmiş fəaliyyətiniz həqiqətən uğurlu olsun. Tanrının köməyi ilə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər inkişaf etsin. Həqiqətən bu ölkələr çox sıx qarşılıqlı əlaqə saxlayırlar. Moskvada necə böyük Azərbaycan diasporu olduğunu bilirsiniz. Bu, bizim Moskva həyatının mühüm hissəsidir. Tanrının köməyi ilə bütün bu amillər ümumi rifaha xidmət etsin. Qonaqpərvərliyə görə Sizə ürəkdən, səmimi-qəlbdən təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.



## Fələstin Dövlətinin Prezidenti zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan-Fələstin əlaqələri xalqlarımızın istək və iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Fələstin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2019-cu il*

## Azərbaycan-Rusiya mədəni əlaqələrinin möhkəmləndirilməsində xidmətləri olan mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Rusiya Federasiyasının aşağıdakı mədəniyyət xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar incəsənət xadimi"**
Maqomedov Cambulat Musayeviç

**"Əməkdar artist"**
Hacıyeva Fatimə Taqirovna
Xadulayev Mutay Xadulayeviç.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

# Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, rəhbərlik etdiyi nümayəndə heyətinin Dünya dini liderlərinin II Sammitində iştirakından məmnunluğunu bildirdi.

Dünya dini liderlərinin II Sammitinin əhəmiyyətinə toxunan dövlət başçısı Türkiyənin bu tədbirdə geniş tərkibdə təmsil olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev bu yaxınlarda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən növbəti Sammiti çərçivəsində Rəcəb Tayyib Ərdoğanla görüşünü məmnunluqla xatırladı.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

Dövlət başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev Rusiyanın Qaraçay-Çərkəz Respublikasının başçısının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, **Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid TEMREZOV** dedi:

- Çox sağ olun, hörmətli cənab Prezident. Həqiqətən, mən hətta bu gün iştirak edən ölkələrin sayına diqqət yetirdim: 80 ölkə, 10-dan çox dini təşkilat. Əlbəttə, kifayət qədər ciddi meydandır. Bütün qitələrdən, dünyanın bütün ölkələrindən gəlib iştirak edirlər. Eyni zamanda, bizim əziz Şeyximizi yubiley münasibətilə təbrik etmək üçün səbəbdir. Mən təkcə Sizin dəvətinizlə bu il artıq üçüncü dəfədir ki, Azərbaycana səfər edirəm.

**Prezident İlham ƏLİYEV** dedi:

- Bəli. Mən çox şadam ki, tez-tez gəlirsiniz. Bu, çox mühümdür, faydalıdır. Çünki həm Rusiya-Azərbaycan münasibətləri, həm də regionlararası əməkdaşlıq çərçivəsində birgə həll etməli olduğumuz xeyli məsələlər var. Keçən ilin sentyabrında Vladimir Vladimiroviçin və mənim iştirakımla regionlararası forum keçirilib. İndi növbəti regionlararası forum bu ay artıq Moskvada olacaq. Belə ki, bu da mühüm meydandır. İkitərəfli planda da Rusiya-Azərbaycan münasibətlərində bizdə çox fəal siyasi proses gedir, yüksək səviyyədə - idarələr, nazirliklər səviyyəsində görüşlər keçirilir, yəni, çox fəal qarşılıqlı fəaliyyət var. Əlbəttə, zati-müqəddəslərinin Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin bizim Sammitdə iştirakı bu tədbirə xüsusi önəm gətirir. Biz çox şadıq ki, Rusiya Federasiyası Sammitdə çox geniş tərkibdə - həm dini seqmentdə, həm Şimali Qafqaz respublikalarından bizim qardaşlarımız müftilər, həm Prezident Administrasiyası, həm də digər nümayəndələrlə təmsil olunub. Yəni, Sammitdə ən böyük nümayəndə heyəti Rusiya Federasiyasının nümayəndə heyətidir. Sammitin özü də, əlbəttə, qlobal miqyaslı hadisədir. O, çox universal xarakter daşıyır və düzü, mən bilmirəm, belə səpkili tədbir daha harada keçirilir, yaxud keçirilirmi. Buna görə də Azərbaycan bu istiqamətdə də özünü ölkələri, dinləri birləşdirə və dialoq üçün yaxşı imkan yarada bilən ölkə kimi nümayiş etdirdi. Fikrimcə, indi bu, ən mühüm məsələdir.

# Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə ziyafət



Noyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ziyafətdə iştirak ediblər. Sonra konsert proqramı olub.

# Şeyxülislam Allahşükür Paşazadə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüb



Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə noyabrın 14-də Dünya dini liderlərinin II Bakı Sammiti çərçivəsində Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüb.

***AZƏRTAC***

# Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Bakıda “Jen Mironosits” pravoslav kafedral kilsəsini ziyarət edib





Bakıda keçirilən Dünya dini liderlərinin Sammitində iştirak edən Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Azərbaycan paytaxtındakı “Jen Mironosits” pravoslav kafedral kilsəsində ayin keçirib.

AZƏRTAC xəbər verir ki, patriarx Kirillə görüşə təkcə Azərbaycanın xristianları deyil, həm də dövlət nümayəndələri, diplomatik korpusların təmsilçiləri, mədəniyyət xadimləri gəliblər. Onların arasında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov, TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusman və digər rəsmi şəxslər olublar.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein patriarx Kirillə müraciət edərək qeyd edib ki, Moskvanın və Bütün Rusiyanın Patriarxı 2010-cu ildə bu kilsədə keçirilən ayində iştirak edib. O, mitropolit Nikolay Yeruşeviçə məxsus olan müqəddəs ripidləri patriarx Kirillə təqdim edib.

Patriarx Kirill qeyd edib ki, “Jen Mironosits” pravoslav kafedral kilsəsinə xüsusi hisslərlə qədəm qoyub. O, Bakıda fəaliyyət göstərən bu kilsənin yüksək səviyyədə restavrasiyasından məmnunluğunu ifadə edib. “Mən bu kilsədə çoxlu iş görüldüyünün, Azərbaycanda kilsə fəaliyyətinin necə inkişaf etdiyinin şahidi oldum”, -deyə Moskvanın və Bütün Rusiyanın Patriarxı vurğulayıb.

Sonra Rus Pravoslav Kilsəsinin mükafatları təqdim olunub. Azərbaycan Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və Azərbaycanın Rus İcmasının rəhbəri Mixail Zabelinə II dərəcəli Müqəddəs Serqi Radonejski ordeni, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikova isə Patriarx Fəxri Fərmanı təqdim edilib. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının xormeysteri Vaqif Məstanov III dərəcəli Müqəddəs Knyaz Daniil Moskovski ordeni, Rus Mədəniyyəti Mərkəzinin direktoru Qalina Manafova və Arxangel məbədi xorunun rəhbəri Kristina Əfəndiyeva Böyük Moskva Knyaginyası Müqəddəs Yefrosinya ordeninə layiq görülüblər.

Patriarx Kirill daha sonra Bakının müqəddəs himayədarı Apostol Varfolomey ikonasını “Jen Mironosits” pravoslav kafedral kilsəsinə hədiyyə edib.

# Dünya dini liderlərinin II Sammiti işini plenar iclasla davam etdirib















Noyabrın 14-də Bakıda keçirilən Dünya dini liderlərinin II Sammiti işini plenar iclasla davam etdirib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Sammitin Təşkilat Komitəsinin sədri Əli Əhmədov plenar iclasda çıxış edərək Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoqa uzun illərdir böyük töhfələr verdiyini deyib. Qeyd edib ki, torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edilməsinə baxmayaraq, Azərbaycan bu məsələyə xüsusi diqqətlə yanaşır. Dünyanın ayrı-ayrı regionlarında ksenofobiyanın artması dini liderlərin rolunu daha da artırır. Bu gün dünyada multikulturalizmə daha çox ehtiyac yaranıb. Dünya dini liderlərinin Bakı Sammiti yüz milyonlarla insanı narahat edən məsələlərin müzakirə olunduğu əhəmiyyətli platformadır.

Sonra “Bəşəri çağırış” filmi nümayiş olunub.

İclasda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansının nümayəndəsi Migel Angel Moratinos vurğulayıb ki, bu gün bütün insanlar dünyada sülhün bərqərar olması üçün birgə səy göstərməlidir. Dini liderlər sülhün bərqərar edilməsi üçün birgə çalışmalıdırlar. Bəzən din siyasi alətə çevrilir, ondan insanlar arasında nifaq salmaq üçün istifadə edilir.

Malayziyanın dini məsələlər üzrə naziri Mücahid bin Yusif bildirib ki, yalnız qarşılıqlı hörmət və ehtirama əsaslanmaqla dünyada sülhü qorumaq olar. Dini liderlər isə bu ehtiramı yaratmaq baxımından əhəmiyyətli rol oynayırlar.

Türkiyənin Diyanət İşləri başqanı Ali Erbaş qeyd edib ki, son iki əsrdə dünyada dindən siyasi alət kimi daha çox istifadə edilməyə başlanılıb. Bu özünü daha çox islam ölkələrində göstərir. Ali Erbaş Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində ölkəmizin yanında olduğunu vurğulayaraq deyib ki, ermənilərin işğal etdikləri ərazilərdə dini-mədəni abidələri vəhşicəsinə dağıtmasını qətiyyətlə pisləyir.

Berlin yəhudi icmasının rəhbəri Ravvin Yitsaq Ehrenberq müxtəlif dinlərin nümayəndələrinin sülhün bərqərar olunması istiqamətində təcrübələrini bölüşməsinin vacibliyinə toxunub. Bildirib ki, bu, qarşılıqlı anlaşma baxımından da əhəmiyyətlidir.

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin və Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdinov tədbirin əhəmiyyətinə toxunaraq qeyd edib ki, belə tədbirlər dünyada sülhün qorunması baxımından xüsusi önəmə malikdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı diqqətə çatdırıb ki, çoxdinli Azərbaycanda dini ayrı-seçkiliklə bağlı heç bir xoşagəlməz hal yaşanmır. Prezident İlham Əliyevin Şeyxülislam Allahşükür Paşazadənin 70 illik yubileyi ilə bağlı sərəncamı dini müxtəlifliyin qorunması və Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində göstərdiyi fəaliyyətə verdiyi ən böyük qiymətdir.

İslam Əməkdaşlıq Təşkilatının sabiq baş katibi Ekmələddin İhsanoğlu Şeyxülislam Allahşükür Paşazadə ilə bağlı xatirələrini bölüşüb, onun Qafqazda sülhün qorunması istiqamətində fəaliyyətinin bütün dünyada yüksək dəyərləndirildiyini qeyd edib.

Rusiya Müsəlmanları Mərkəzi Ruhani İdarəsinin sədri Talqat Tacuddin Azərbaycan və Rusiya arasında digər sahələrdə olduğu kimi, dini anlaşma baxımından da yaxşı münasibətlərin olduğunu bildirib. Bildirib ki, bu məsələ hər iki dövlətin daim diqqət mərkəzindədir.

Rusiya Federasiyasının İslam Əməkdaşlıq Təşkilatında daimi nümayəndəsi Ramazan Abdulatipov Ulu Öndər Heydər Əliyevin Azərbaycanda tolerantlığın qorunmasındakı rolundan bəhs edib. Qeyd edib ki, bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycan bu siyasətin nəticəsində gündən-günə inkişaf edir.

## “Azərbaycan Respublikasının Dövlət gerbi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 19 yanvar tarixli 460 nömrəli Konstitusiya Qanununun ləğvi barədə

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının Dövlət gerbi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 19 yanvar tarixli 460 nömrəli Konstitusiya Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, №1, maddə 23) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2019-cu il*

## “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq, “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alır:**

1. “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 3, maddə 39; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 515) 1-ci və 2-ci hissələri ləğv edilsin.

2. “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, №7, maddə 515; 2005, № 10, maddə 874; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1303) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 9.1-ci maddədə “Azərbaycan Respublikasının Konstitusiyasında” sözlərindən sonra “və “Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda” sözləri əlavə edilsin;

2.2. 9.2-ci maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

## “Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında” Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında” 2019-cu il mayın 31-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9) 35-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasda “tibbi, defektoloji və psixoloji” sözləri “tibbi və defektoloji, habelə “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji” sözləri ilə əvəz edilsin;

1.2. ikinci abzasda “sosial və psixoloji reabilitasiyasına” sözləri “sosial reabilitasiyasına, psixoloji reabilitasiya və psixoloji korreksiyasına” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577; 2002, № 5, maddə 240; 2003, № 12 (I kitab), maddə 697; 2007, № 6, maddə 560, № 10, maddə 938; 2008, № 7, maddə 602; 2012, № 4, maddə 281; 2014, № 11, maddə 1372; 2015, № 11, maddə 1272; 2018, № 5, maddə 885) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.7-ci, 9.1.6-cı maddələrdə, 11.1-ci maddənin üçüncü cümləsində və 16.3-cü maddədə “sosial-psixoloji reabilitasiya” sözləri “psixoloji reabilitasiya və psixoloji korreksiya” sözləri ilə əvəz edilsin;

2.2. 11.2-ci maddəyə “psixoloqla” sözündən əvvəl “klinik (tibbi)” sözləri əlavə edilsin və həmin maddədə “sosial-psixoloji reabilitasiya və” sözləri “psixoloji reabilitasiya və psixoloji korreksiya, habelə” sözləri ilə əvəz edilsin;

2.3. 14.5-ci maddədə “sosial-psixoloji reabilitasiyasını” sözləri “psixoloji reabilitasiya və psixoloji korreksiyasını” sözləri ilə əvəz edilsin və həmin maddəyə “psixoloq” sözündən əvvəl “klinik (tibbi)” sözləri əlavə edilsin.

**Maddə 3.** “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231; 2007, № 8, maddə 746; 2010, № 3, maddə 171; 2019, № 4, maddə 582; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanunu) 5.6.3-cü maddəsində “sosial-psixoloji reabilitasiya” sözləri “psixoloji reabilitasiya və psixoloji korreksiya” sözləri ilə əvəz edilsin.

**Maddə 4.** “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681; 2006, № 2, maddə 75; 2007, № 1, maddə 5; 2016, № 2 (I kitab), maddə 195, № 12, maddə 2030) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 11.7.2-ci maddədə “sosial, psixoloji və digər kömək” sözləri “”Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada psixoloji yardım, habelə sosial və digər kömək” sözləri ilə əvəz edilsin;

4.2. 13.2.1-ci maddədə “psixoloji-tibbi-pedaqoji reabilitasiyasını” sözləri “tibbi-pedaqoji reabilitasiyasını, habelə psixoloji reabilitasiyasını və psixoloji korreksiyasını” sözləri ilə əvəz edilsin.

**Maddə 5.** “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694; 2013, № 5, maddə 458; 2014, № 11, maddə 1346) 15.1-ci maddəsinə “psixoloji” sözündən sonra “reabilitasiya və psixoloji korreksiyası” sözləri əlavə edilsin.

**Maddə 6.** “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 444, № 12, maddə 1210) 3.0.10-cu maddəsində “yardım, psixoloji reabilitasiya” sözləri “və “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada psixoloji yardım” sözləri ilə əvəz edilsin.

**Maddə 7.** “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190; Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1661-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 14.20-ci maddəyə “təşkil olunur” sözlərindən sonra “və “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə, psixoloji yardım həyata keçirilir” sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 32.3.18-1-ci maddə əlavə edilsin:

“32.3.18-1. “Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2019-cu il*

## “Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1675-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1675-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının “Uşaq hüquqları haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında”, “Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında” və “Təhsil haqqında” qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2019-cu il*

# Mütərəqqi yenilik

## Milli Məclis gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin birinci oxunuşda müzakirəsini başa çatdırdı

Dünən Milli Məclisdə gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi davam etdirildi. Milli Məclisin Sədri Oqtay Əsədov diqqətə çatdırdı ki, zərfə daxil olan sənədlərin cəmi 3-ü - ”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il üçün xərclər smetası haqqında”, “Hesablama Palatasının 2020-ci il üçün xərclər smetası haqqında” qanun layihələri müzakirə olunmayıb və həmin sənədlər bu iclasda geniş müzakirə olunacaq.





### Davamlı iqtisadi inkişaf, şəffaflığın artırılması...

İlk müzakirə olunan sənəd “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi oldu. Dəyişikliklərlə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi və dəyişiklikləri mütərəqqi yenilik adlandırdı. Ziyad Səmədzadə vurğuladı ki, dəyişikliyin məqsədi ölkənin davamlı iqtisadi inkişafı, şəffaflığın artırılması, sahibkarlığın inkişafının təmin edilməsi, eyni zamanda vergi ödənişində uçot-qeydiyyat sisteminin sadələşdirilməsinə şərait yaratmaqdır. Həmçinin ölkədə dövlət orqanları ilə vergi ödəyiciləri arasında ünsiyyətin minimuma endirilməsi planlaşdırılır.

Dəyişikliklər yeddi əsas istiqaməti əhatə edir. Dövlət orqanları ilə elektron məlumat mübadiləsinin genişləndirilməsi ölkədə iqtisadi səmərənin daha da artırılması və sui-istifadə hallarının azaldılmasında faydalı olacaq. Ölkədə sərbəst biznes mühitinin təkmilləşdirilməsi hər zaman diqqət mərkəzindədir.

Layihəyə əsasən, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr 2020-ci il yanvarın 1-dən 4 il müddətində ƏDV-dən azaddır. Məcəllənin 199-cu maddəsinin (Vergi güzəştləri və azadolmalar) 199.14-cü bəndinə təklif olunan dəyişikliyə görə, mikro sahibkarlıq subyekti olan şəxslər əmlak vergisindən azaddırlar (mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər istisna olmaqla).

### Sənaye parkının rezidenti 10 il müddətinə vergidən azad ediləcək

Məcəllənin 218-1-ci maddəsinin (Azadolmalar və güzəştlər) 218-1.1.1-ci bəndinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi 2014-cü il yanvarın 1-dən 10 il müddətində vergidən azad olunur.

Məcəlləyə edilən digər dəyişikliklə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin sənaye və texnologiyalar parkındakı fəaliyyətdən əldə etdikləri gəlir (əməkhaqqından tutulan gəlir vergisi istisna olmaqla) qanunvericiliyə uyğun olaraq sənaye və texnologiyalar parkında qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə gəlir vergisindən azad ediləcək.

Yeniliklər əsasən ədalətli rəqabətin şərti olan bərabər və şəffaf mühitin təmin edilməsini (yalan əqd bağlayaraq əmtəəsiz əməliyyatlar aparan vergi ödəyicilərinə qarşı mübarizənin aparılmasını, riskli vergi ödəyicilərinə nəzarətin gücləndirilməsini, vergidən yayınma hallarına qarşı mübarizənin gücləndirməsini), ƏDV inzibatçılığının təkmilləşdirilməsini, sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsini, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılmasını, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılmasını, vergitutma bazasının genişləndirilməsini, beynəlxalq vergitutma və məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsini özündə ehtiva edir.

Qanun layihəsi 162 dəyişiklikdən ibarətdir. Bu əsasən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergitutma metodunun ləvğ edilməsi və həmin şəxslərin vahid vergi rejimində fəaliyyət göstərməsinin təmin edilməsi (ƏDV və mənfəət vergisi metodu), Transmilli Şirkətlər Qrupu anlayışının müəyyən olunması, quş əti satışının ƏDV-dən azadolma müddətinin daha 4 il müddətinə uzadılması, habelə heyvan ətinin satışının 4 il ərzində ƏDV-dən azad edilməsi ilə bağlı müddəalardır.

Qeyd edildi ki, ölkədə dövlət orqanları ilə vergi ödəyiciləri arasında ünsiyyətin minimuma endirilməsi planlaşdırılır. Dövlət orqanları ilə elektron məlumat mübadiləsinin genişləndirilməsi ölkədə iqtisadi səmərənin daha da artırılmasında və sui-istifadə hallarının azaldılmasında faydalı olacaq. Komitənin sədri Ziyad Səmədzadə atılacaq addımların fayda verəcəyinə və şəffaflığın artırılması sayəsində vergitutma bazasının genişlənəcəyinə inamını ifadə etdi.

### Qanunlar hamı üçün eynidir

Müzakirələr zamanı çıxış edən deputat Qüdrət Həsənquliyev iclasda iştirak edən İqtisadiyyat naziri Mikayıl Cabbarova müraciət edərək təklif irəli sürdü: “Bakının mərkəzi köşklərlə doludur. Həmin köşklərdə “Reklam haqqında” qanuna zidd olaraq şüşələrin arxasında siqaretlər düzülüb. Dünyanın heç bir yerində siqaret bu formada reklam olunmur. Hesab edirəm ki, siz bunları aradan qaldırsanız, hər kəs görəcək ki, qanunlar hamı üçün eynidir. İnsanlar bunu görməyincə, heç bir səylər nəticə verməyəcək”.

Vaxtilə orta məktəb dərsliklərinin ƏDV-dən azad olunması ilə bağlı qərarın verildiyini təqdir edən deputat Fazil Mustafa dedi ki, ali məktəb dərslikləri ilə bağlı bu addım atılmayıb. Onun fikrincə, ümumiyyətlə, kitab və çap məhsulları ƏDV-dən azad olunmalıdır: “18 faiz kifayət qədər böyük rəqəmdir. Belə bir addım atılarsa, kitaba münasibət dəyişər. Faiz aşağı salınanda kitabın qiyməti də ucuzlaşacaq. Bunun üçün cəsarətli addım atmaq lazımdır”.

Deputatın “Azərbaycanda məhkəmə islahatı ciddi şəkildə aparılmalıdır. Bu sahə ilə bağlı iki ay ərzində təkliflər verilməsi tapşırılsa da, 7 ay keçməsinə baxmayaraq hələ də bir xəbər yoxdur. Bu o deməkdir ki, islahatların ləngidilməsi istiqamətində müəyyən mesajlar verilir” fikirlərinə cavab olaraq Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, məhkəmə-hüquq sistemində islahatlarla bağlı sənəd Milli Məclisə daxil olub. Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov isə məsələyə aydınlıq gətirdi. Dedi ki, məhkəmə-hüquq sistemində islahatların daha da dərinləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən Milli Məclisə göndərilən sənəd deputatlara da paylanılıb: “Bu sənəddə ölkəmizin davamlı tərəqqisinin təmin olunması üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Cənab Prezident müxtəlif sahələr üzrə təkliflərin hazırlanıb dövlət başçısına təqdim edilməsi tapşırığını da verib. Bunun ləngiməsi ona görə baş verir ki, bəzi sahələrə 2 ay, bəzilərinə 3, digərilərinə isə 6 ay vaxt verilib. Təkliflər hamısı toplanaraq təqdim ediləcək. Ona görə də bunu ləngimə kimi qiymətləndirmək doğru deyil”.

### 600 min manata yaxın vəsait mətbuat üçün kifayət qədər böyük rəqəmdir

Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov isə dedi: “Məcəlləyə “yalan əqd” anlayışının daxil edilməsini xüsusilə vacib sayıram. Müəssisələrin hüquqi sahibləri ilə yanaşı, faktiki sahibləri, yəni təsisçiləri də məsuliyyətdən kənarda qalmamalıdırlar. Bunları müsbət qiymətləndirirəm. Kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti - reklam xidmətləri istisna olmaqla - ƏDV-dən azad olduğu layihədə əksini tapır. Ancaq bilirsiniz ki, 2016-cı ildən ölkəyə gətirilən qəzet kağızı və hazır çap məhsulları əlavə dəyər vergisinə cəlb edilir. Çünki vergidən azadetmə vaxtilə məcəllə ilə paralel şəkildə Nazirlər Kabinetinin qərarında da əksini tapmışdı. Həmin qərar 2015-ci ildə ləğv edildiyindən ƏDV tətbiq olunur. Olmazmı ki, biz bu məsələdə Nazirlər Kabinetinin ləğv edilmiş qərarını deyil, Vergi Məcəlləsini rəhbər tutaq? Bu verginin tətbiqindən dövlət büdcəsinə cəmi 600 minə yaxın vəsait daxil olur. Rəqəm elə də böyük deyil. Ancaq mətbuat üçün kifayət qədər böyük rəqəmdir”.

Deputat qeyd etdi ki, layihənin digər maddəsində ümumtəhsil müəssisələri üçün dərslik komplektlərinin - iş dəftərləri istisna olmaqla uşaq ədəbiyyatının istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyətnin də ƏDV-dən azad olunduğu göstərilir: “Bu imtiyaz niyə mediaya da şamil edilməsin? Ümumən “Vergi ödəməkdən azad edilmə” adlı 164-cü maddədə elə bəndlər var ki, onlar üzrə ayrı-ayrı sahələrlə bağlı vergidən azadetmə KİV fəaliyyəti qədər önəmli deyil. Ət, çörək və digər yemək məhsulları heç də mənəvi qidadan qiymətli olmamalıdır. Biz hər zaman, hər yerdə bildiririk ki, ölkəmizdə media fəaliyyəti üçün münbit şərait mövcuddur. Bir sıra imtiyazlar var. Mediaya dövlət qayğısı göstərilir. Belə olan halda, məncə, bu sahədə ƏDV-nin ləğvini də növbəti imtiyaz kimi nəzərdən keçirməyə dəyər. Buna ehtiyac var”.

Parlamentin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov isə dedi ki, 2020-ci ilin dövlət büdcəsindən Azərbaycan kinosunun inkişafı üçün 7,5 milyon manat vəsait ayrılıb. Milli Məclisin Mədəniyyət, Əmək və sosial siyasət komitələri və Mədəniyyət Nazirliyinin iştirakı ilə “Kinemotoqrafiya haqqında” yeni qanun layihəsi hazırlanıb: “Həmin qanunda Azərbaycan kinosunun inkişafı ilə bağlı bir neçə məqam əksini tapıb. Onlardan ikisi də vergi məsələləri ilə bağlıdır. Biz verginin vacibliyini anlayırıq. Ancaq kinonun inkişafı naminə müəyyən zaman üçün güzəştlər istəyirik. Bunun üçün keçmiş Vergilər Nazirliyinə, indiki birləşmiş struktura müraciət də etmişik. Müraciət ondan ibarətdir ki, xaricdən gələn investisiyalara və kino istehsalı ilə bağlı vergidən azadetmə və güzəştlər tətbiq edilsin”.

Təklif edilən dəyişikliklərin sahibkarlıq fəaliyyətinin genişlənməsinə, iqtisadiyyatın inkişafına böyük dəstək verəcəyini söyləyən parlamentin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev bildirdi ki, Azərbaycanda qısa müddət ərzində vergilər sahəsində böyük işlər görülüb. Deputat vurğuladı ki, bu gün Azərbaycanda vergi siyasəti ölkədə aparılan islahatlar konsepsiyasına uyğun həyata keçirilir. Bu baxımdan təklif edilən dəyişikliklərin gözəl nəticələr verməsi şübhə doğurmur. Azərbaycanda “startup”lar həyata keçirilir. Bu “startup”lar iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafına çox böyük töhfədir və bunu təşviq etmək lazımdır. Bu baxımdan deputat istəyir ki, nəzərdə tutulan güzəştlər o sahələrə də tətbiq edilsin.

İclasda deputatlardan Naqif Həmzəyev, Aydın Hüseynov, Qənirə Paşayeva, Novruzəli Aslanov, Rəşad Mahmudov, Kamran Nəbizadə, Rauf Əliyev də çıxış edərək fikir və təkliflərini səsləndirdilər.

İclasda çıxış edən İqtisadiyyat naziri Mikayıl Cabbarov səslənən təkliflərə münasibət bildirdi. Nazir bildirdi ki, vergi islahatlarının həyata keçirilməsində və inzibatçılığında xüsusi diqqət yetirilən məqamlardan biri də iqtisadi fəallığın təşviq edilməsidir. 2019-cu ilin 10 ayı ərzində respublika üzrə vergi ödəyicilərinin sayında 44 608 nəfər artım olub: “Başqa sözlə, vergi ödəyicilərinin sayında 10,1 faiz artım qeydə alınıb. O cümlədən əlavə dəyər vergisi ödəyicilərinin sayında 32,9 faiz və ya 5941 nəfər, obyektlərin sayında isə 7,3 faiz artım qeydə alınıb. Bunlar sağlam rəqəmlərdir”.

Nazir ali məktəb dərsliklərinin ƏDV-dən azad edilməsi ilə bağlı təklifi də cavablandırdı. Bildirdi ki, ümumtəhsil və peşə məktəblərindən fərqli olaraq, burada vahid sifarişçi yoxdur: “Ali təhsil çox böyük transformasiyalara uğrayıb. Bir çox hallarda dərslik hansısa məşhur alimin iqtisadi ədəbiyyatı da ola bilər, elmi ədəbiyyat da ola bilər. Bu da ali təhsil məktəbləri üçün dərslik kimi meyarların izlənilməsində çətinliklər yaradır. Bütün bunlara baxmayaraq, biz Təhsil Nazirliyində olan həmkarlarımızla da məsləhətləşmələr aparırıq. Çalışarıq ki, müvafiq qaydada mütləq bu məqamları nəzərə alaq”.

Nazirin çıxışından sonra sənəd səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

### Milli Məclisə 45 milyon manat ayrılır

Sonra “Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il üçün xərclər smetası haqqında” qanun layihəsi müzakirəyə çıxarıldı. Parlamentin İşlər müdiri Firudin Hacıyev dedi ki, Milli Məclisin və onun Aparatının 2020-ci il üçün xərclər smetası 45 milyon 488 min 15 manat məbləğində müəyyənləşib. Xərclər smetasının ümumi dəyərinin 79,7 faizi əməyin ödənişi fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir: “Son illər aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclisin deputatlarının xarici səfərlərinin, eləcə də ölkədaxili ezamiyyələrin sayı xeyli artıb. 1980-ci ildə quraşdırılmış eklektrik yarımstansiyalarında yenidənqurma işlərinin aparılması və yararsız hala düşmüş avadanlıqların yenisi ilə əvəz edilməsi nəzərdə tutulub. Həmçinin informasiya texnologiyalarının inkişafı ilə əlaqədar Milli Məclisin inzibati binalarında, data mərkəzlərində avadanlıqların quraşdırılması, iclas zallarında elektron səsvermə sistemini idarə etmək üçün ayrılmış xüsusi otaqlarda yenidənqurma işlərinin aparılması tələb olunur”.

Firudin Hacıyev Maliyyə naziri Samir Şərifovdan göstərilənləri nəzərə alaraq Milli Məclisin 2020-ci il xərclər smetasında bəzi maddələr üzrə vəsaitin artırılmasını xahiş etdi: “Tikili, avadanlıq və cari təmir xərcləri” maddəsinə 50 min, “icarə və muzdlu xidmətlər” maddəsinə 1 milyon manat, “xarici ezamiyyətlər” maddəsinə 200 min manat, “xarici ölkə nümayəndə heyətlərinin və rəsmi şəxslərin qəbulu, onlara xidmət göstərilməsi” maddəsinə 200 min manat, “maşın və avadanlıqlar” maddəsinə 100 min manat, nəqliyyat vasitələrinin alınmasına 300 min manat və “torpaq, tikili və avadanlıqlar” paraqrafına 50 min manat vəsaitin ayrılmasını istəyirik”.

“Hesablama Palatasının 2020-ci il üçün xərclər smetası haqqında” sənədi isə qurumun rəhbəri Vüqar Gülməmmədov təqdim etdi. Bildirildi ki, palata üzrə xərclər smetasının ümumi məbləği 9 061 223 manat proqnozlaşdırılıb. Qanun layihəsində Hesablama Palatasının xərclər smetası ilə bağlı əməyin ödənişinə 8 167 372 manat (Hesablama Palatası işçilərinin əməkhaqqı 5 671 963 manat, ştatdankənar işçilərin əməkhaqqı 110 898 manat, əməyin ödənilməsi ilə bağlı sair pul ödənişləri 887 073 manat, məcburi dövlət sığorta haqları 1 442 988 manat, icbari dövlət sığortası 23 279 manat, işsizlikdən sığorta 31 279 manat), malların (işlərin və xidmətlərin) satın alınmasına isə 628 245 manat vəsait ayrılması nəzərdə tutulur.

Məruzələrdən sonra Milli Məclisin Sədri Oqtay Əsədov büdcə zərfinə daxil olan məsələlərin yekunlaşdığını bildirdi. Spiker qeyd etdi ki, sənədlərin 2-ci oxunuşda müzakirəsi noyabr ayının 26-da olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Bakıda MDB-yə üzv dövlətlərin Gənclərlə İş üzrə Şurasının iclası keçirilib



Noyabrın 14-də Bakıda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Gənclərlə İş üzrə Şurasının iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın şuraya üzv olan nümayəndələri və ekspertləri iştirak ediblər.

Tədbirdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov iclasın Bakıda keçirilməsindən məmnunluğunu bildirərək deyib: “Bu iclas artıq dördüncü dəfədir Bakıda keçirilir. Builki iclas isə ölkəmizin gənclər siyasəti üçün əlamətdar bir dövrə - Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 illiyinə təsadüf edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin fərmanı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Ötən 25 il ərzində bu sahədə mühüm nailiyyətlər əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində bu gün ölkəmizdə gənclərin inkişafı üçün hər cür imkanlar yaradılıb”.

Azərbaycan əhalisinin 26 faizini təşkil edən gənclərin inkişafına mühüm diqqət yetirildiyini vurğulayan A.Rəhimov ölkəmizdə gənclər siyasəti üçün mükəmməl hüquqi bazanın formalaşdığını qeyd edib. Azərbaycanın MDB məkanında gənclər siyasətinin inkişafında və bu sahədə əməkdaşlığın dərinləşdirilməsində fəal iştirakından danışan nazir deyib: “İkitərəfli müqavilələr tərəfdaşlarımızla münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Əminik ki, gənclər sahəsində əməkdaşlıq gələcəkdə daha geniş vüsət alacaq”.

Rusiyanın Elm və Ali Təhsil nazirinin müavini Marina Borovskaya iclasın əhəmiyyətini qeyd edərək, MDB-yə üzv dövlətlərdə gənclər sahəsinin daha da inkişaf etməsi üçün son illər həyata keçirilən tədbirlərdən danışıb. Gənclərin inkişafında əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayan M.Borovskaya deyib: “Ölkələrimiz arasında gənclər sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Əminik ki, gələcəyimiz olan gənc nəslin inkişafı istiqamətində səylərimizi birləşdirərək daha böyük nailiyyətlər qazanacağıq”.

Azərbaycanın Gənclər və İdman nazirinin müavini İntiqam Babayev ölkəmizdə gənclər siyasəti sahəsində görülmüş işlərlə bağlı ətraflı məlumat verib. Bildirib ki, ölkəmizdə gənclər sahəsində dövlət proqramları qəbul olunur, mühüm tədbirlər həyata keçirilir. Azərbaycan gəncləri beynəlxalq səviyyədə mühüm uğurlar əldə edirlər. Ölkəmizdə müvafiq dövlət qurumları gənclər təşkilatlarının daha geniş miqyasda fəaliyyətinə hərtərəfli dəstək göstərirlər. Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatları dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinə sanballı töhfələr verirlər”.

Tədbirdə MDB-yə üzv dövlətlərdə həyata keçirilən dövlət gənclər siyasəti, “MDB ölkələrinin gənclərlə iş sahəsində beynəlxalq əməkdaşlıq strategiyası”nın 2018-2020-ci illər üzrə Tədbirlər Planı, “MDB üçün 100 ideya” beynəlxalq gənclər layihəsi, “MDB Gənclər paytaxtı”nın seçilməsinin əsasnaməsi və sair olmaqla ümumilikdə 14 məsələ müzakirəyə çıxarılıb və müvafiq qərarlar qəbul olunub.

Şuranın iclası çərçivəsində, həmçinin “Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş” də imzalanıb.

Gənclərlə İş üzrə Şura “Müstəqil Dövlətlər Birliyinin üzv dövlətlərinin gənclərlə iş sahəsində əməkdaşlığına dair” 2005-ci il 25 oktyabr tarixli sazişin icrası məqsədilə yaradılıb. Üzv dövlətlərin gənclərlə iş üzrə səlahiyyətli nümayəndələrindən ibarət şuranın iclasları ildə iki dəfədən az olmayaraq keçirilir.

# Bakıda “MDB üçün 100 ideya” beynəlxalq gənclər layihəsi çərçivəsində sərgi təşkil olunub

Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Gənclərlə İş üzrə Şurasının Bakıda keçirilən iclası çərçivəsində noyabrın 14-də “Baku Crystall Hall”un Media Mərkəzində “MDB üçün 100 ideya” beynəlxalq gənclər layihəsinin final mərhələsi ilə bağlı sərgi təşkil olunub.




AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Gənclər və İdman naziri Azad Rəhimov MDB-yə üzv dövlətlər arasında əməkdaşlığın inkişafında gənclərin rolunun artırılmasına xüsusi diqqət yetirildiyini bildirib. Nazir vurğulayıb ki, “MDB üçün 100 ideya” beynəlxalq gənclər layihəsinin əsas məqsədi Birlik məkanında gənclərin inkişafını, onlar arasında əməkdaşlığın gücləndirilməsini təmin etməkdir. A.Rəhimov gənclərin bu əməkdaşlığın inkişafı istiqamətində ideya və layihələrinin davamlı olacağına əminliyini bildirib, onlara uğurlar arzulayıb.

Tədbirdə MDB-yə üzv dövlətlərdən 30-dan çox gəncin elm, texnika və digər sahələr üzrə layihələri nümayiş olunub. Sərginin məqsədi MDB-yə üzv ölkələrin gənclərinin sosial-iqtisadi əhəmiyyətli innovativ fəaliyyətlərinin dəstəklənməsi, elmi-texniki yaradıcılığa sövq edilməsi və gənclərin beynəlxalq əməkdaşlığının genişləndirilməsidir.

Sərginin yekununda ən yaxşı layihələrin müəllifləri mükafatlandırılacaq. Mükafatlandırma mərasimi noyabrın 15-də təşkil olunacaq.

# Azərbaycan ilə Rusiya arasında gənclər siyasəti sahəsində əməkdaşlığa dair saziş imzalanıb

Noyabrın 14-də Bakıda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Gənclərlə İş üzrə Şurasının iclası çərçivəsində “Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanıb.



AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan tərəfdən Gənclər və İdman naziri Azad Rəhimov, Rusiya tərəfdən isə Elm və Ali Təhsil nazirinin müavini Marina Borovskaya imzalayıblar.

İmzalanma mərasimində çıxış edən Azad Rəhimov Azərbaycanın və Rusiyanın strateji tərəfdaş olduqlarını qeyd edərək deyib: “Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Ölkələrimiz arasında bütün sahələrdə yüksək əməkdaşlıq mövcuddur. Bu saziş münasibətlərin inkişafında vacib mərhələdir. Əminik ki, müqavilə Rusiya və Azərbaycan gənclərinin daha sıx əməkdaşlığı üçün geniş imkanlar yaradacaq”.

Marina Borovskaya ölkələrimiz arasında gənclər sahəsində mühüm işlərin görüldüyünü bildirib. O, imzalanan müqavilənin gələcəkdə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün daha geniş imkanlar açacağını vurğulayaraq deyib: “Gənclər bizim gələcəyimizdir. Azərbaycan ilə Rusiya arasında gənclər sahəsində əməkdaşlıq bu sahənin inkişafına mühüm töhfələr verir. İnanırıq ki, ölkələrimiz arasında gənclər sahəsində əməkdaşlıq daha da inkişaf edəcək”.

Qeyd edək ki, bu saziş iki ölkə arasında gənclər sahəsində əməkdaşlığa dair imzalanan ilk sənəddir.

## 18-23 noyabr Qlobal Sahibkarlıq Həftəsidir

# Sahibkarlığın inkişafı iqtisadi artımın təminatıdır

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə çağdaş tariximizdə keyfiyyətcə yeni dövrün, müstəqil dövlət quruculuğuna aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, iqtisadi müstəqilliyin əsasını qoydu.**

Hələ o dövrdə Ümummilli Liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

Belə görüşlərə nümunə kimi 2002-ci ilin 25 aprel tarixində yerli və may ayında xarici iş adamları ilə keçirilən görüşləri göstərmək olar. Bu görüşlərdə sahibkarlığın inkişafı yolları araşdırılmış, bu inkişafa mane olan əngəllərin aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilmiş, qarşıdakı illər üçün Azərbaycanda Sahibkarlığın inkişafı ilə bağlı Dövlət Proqramı təsdiq olunmuşdur.

Məhz bu görüşlərin və görülmüş işlərin Azərbaycan sahibkarlığının inkişafında mühüm tarixi əhəmiyyətini, habelə ölkənin iqtisadiyyatında sahibkarların artan rolunu, məşğulluğun təmin olunmasında sahibkarlığın inkişafının müstəsna əhəmiyyətini nəzərə alaraq, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 aprel 2016-cı il tarixli sərəncamına əsasən hər il aprelin 25-i Azərbaycanda Sahibkarlar Günü kimi təsis edilmişdir.

Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev ötən dövr ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir.

Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın inkişafı üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın hərtərəfli inkişafında yeni mərhələ yaşanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payını və rolunu artırmaqla, sahibkarlığın inkişafına güclü təkan verir.

Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatlı ölkələrin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahının yüksəlməsinə hesablanmış müxtəlif layihələrin, xeyriyyəçilik aksiyalarının həyata keçirilməsi, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu aktuallıq ilk növbədə onunla şərtlənir ki, elmi-texniki inqilabın məhsulu olan müasir informasiya-kommunikasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, bəzi hallarda insanlar arasında mənəvi uçurumu, psixoloji səddi dərinləşdirir, mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək, ictimai düşüncədə xeyirxahlıq, humanizm, insanpərvərlik, mərhəmət kimi ali keyfiyyətlərin möhkəmlənməsinə nail olmaq missiyası isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sırada dayanır. İnamla deyə bilərik ki, Ülu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin milli mədəniyyətin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olduğu qısa müddətdə öz zəngin fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, bütün dünyada yüksək nüfuz, dərin ehtiram qazanmış, Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmağın qarşıda duran ən başlıca məqsəd olduğunu bəyan etmişdir.

Millət vəkili olduğu dövrdə ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarlığın qanuni mənafelərinin qorunması və işgüzar fəliyyətinin gücləndirilməsi istiqamətində Mehriban xanımın fəliyyəti aktual problemlərə olan həssas münasibətinin ifadəsi idi.

Son illərdə ölkədə qadın sahibkarların sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Birinci vitse-prezident kimi Mehriban xanımın rolu danılmazdır. Belə ki, ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Mehriban xanımın zəngin fəaliyyəti yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Reallıq da göstərir ki, son 16 ildə respublikada uğurla həyata keçirilən siyasət ilk növbədə ölkədəki ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə, Azərbaycanın demokratik və sosial-iqtisadi inkişaf məqsədinə yönəlmişdir. Bu dövrdə Azərbaycanın inkişafı sürətlənmiş, ümumi daxili məhsul istehsalının artım tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilmişdir.



Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatlı ölkələrin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir

2019-cu il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə ölkə Prezidentinin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur. Ölkə Prezidenti iclasda bildirdi ki, "bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır".

Aparılmış islahatların nəticələri beynəlxalq hesabatlarda da öz əksini tapıb, "Doing Business 2020" hesabatında Azərbaycan ümumilikdə 190 ölkə arasında 34-cü mövqedə qərarlaşıb. Belə ki, Azərbaycan biznesə başlama üzrə 9-cu, tikinti üçün icazələrin alınması üzrə 59-cu, əmlakın qeydiyyatı üzrə 44-cü, kreditlərin alınması üzrə 1-ci, vergilərin ödənilməsi üzrə 40-cı, müqavilələrin icrası üzrə 28-ci və müflisləşmənin həlli indikatoru üzrə 47-cidir. Göründüyü kimi, Azərbaycanın "Doing Business 2020" hesabatında ən yüksək nəticə əldə etdiyi sahə kreditlərin əlçatanlığıdır. Bu göstərici üzrə kompleks biznes islahatları çərçivəsində "Daşınar əmlakın yüklülüyü haqqında" qanuna və Mülki Məcəlləyə edilən dəyişikliklərlə uyğunlaşdırmaların aparılması daha çox səmərə verib.

Bu hesabata görə, Azərbaycan ötən ildə olduğu kimi, bu il də 20 ən islahatçı ölkə sırasındadır. Üstəlik Azərbaycandan başqa ilk 25-likdə olan heç bir ölkə top-20 siyahısına daxil edilməyib. Çünki etalona yaxınlaşdıqca ən çox islahat aparan ölkə statusunu qorumaq da çətinləşir.

Aparılan kompleks islahatlar nəticəsində "Doing Business" və digər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin irəliləməsi ölkənin investisiya cəlbediciliyini artırmaqla qeyri-neft sektoruna sərmayə qoyuluşunu asanlaşdırır. Azərbaycan 270 milyard dollardan çox sərmayə cəlb etməklə hər nəfərə düşən sərmayə həcminə görə regionun lider ölkəsidir. Bu ilin ilk 9 ayında da qeyri-neft sektorunda əsas kapitala yönəldilən vəsaitlər 8,9 faiz artaraq 6,3 milyard manatı üstələyib. Sərmayə cəlbinin artması isə həm yeni iş yerlərinin yaradılması, həm də əhalinin sosial rifah halının yaxşılaşdırılması deməkdir.

Prezident İlham Əliyevin uğurlu il kimi qiymətləndirdiyi 2019-cu ildə özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər, islahatlar davam etdirilir.

Bu ilin doqquz ayı ərzində ümumi daxili məhsulun 3 faiz, qeyri-neft sektorunda sənaye istehsalının 15,0 faiz artması dövlətin apardığı mütərəqqi iqtisadi siyasətin bariz nümunəsidir.

2019-cu il Azərbaycan üçün mühüm sosial islahatların və uğurlu iqtisadi layihələrin reallaşdığı il kimi tarixə düşə bilər. Prezident İlham Əliyevin söylədiyi kimi, əgər geridə qoyduğumuz 2017-ci ili iqtisadi sabitləşmə, 2018-ci ili dərin iqtisadi islahatlar ili kimi başa vurmuşuqsa, bu il daha çox sosial sahədə inqilabi islahatların reallığa çevrildiyi tarix kimi yaddaşlara yazılacaq.

Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm addımlardır.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".

Görülən işlərə əsasən deyə bilərik ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından əvvəlki illərdən fərqlənən il olacaq. Prezidentin söylədiyi kimi, Azərbaycan bu il də uğurlar və inkişaf yolu ilə gedəcək.

Dövlət başçısı fevralın 28-də "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən insanlarda olan narahatlığa son qoyuldu. Prezidentin bu fərmanı ilə 800 min nəfərin kredit problemi birdəfəlik həll edildi. Bu fərman sahibkarlarla bank arasında etimad mühitini bərpa etdi, məhkəmə çəkişmələri sahibkarın xeyrinə həll olundu.

Təbii fəlakət və digər hadisələr nəticəsində zərərçəkmiş sahibkarlara dəymiş ziyanın dəqiq hesablanaraq kompensasiya ödənilməsi, eyni zamanda onlara güzəştli şərtlərlə kreditlərin verilməsi, onların qısa müddətdə işlə təmin edilməsi bir daha təsdiq etdi ki, ağır günlərdə, bədbəxt hadisə baş verdikdə dövlət hər zaman sahibkarın yanındadır.

Artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir.

Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 16 il ərzində artması nəticəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir. Bu tədbirlərdən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. Belə ki, fondun fəaliyyəti dövründə 36 min sahibkara 2,2 milyard manat güzəştli şərtlərlə kreditlər verilmişdir ki, bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minədək yeni iş yerinin açılmasına imkan yaradılmışdır. 2019-cu ilin əvvəlindən bugünədək İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri **450** mln. manat olan **887** sahibkara geri qaytarılan vəsaitlər hesabına **130** mln. manat, o cümlədən **857** kiçik və orta həcmli layihəyə **24** mln. manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması **3800-dək** yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin **74%-i** aqrar sektorun, **26%-i** sənaye istehsalı və digər sahələrin, **66%-i** regionların, **34%-i** isə Bakı qəsəbələrinin payına düşür.

Ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir.

Bunu nəzərə alaraq İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılmış Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin qarşısında qoyulan əsas vəzifə ölkədə Kiçik və Orta Sahibkarlığın iqtisadiyyatda rolunun və əhəmiyyətinin, rəqabətqabiliyyətliliyinin artırılması, inkişafının dəstəklənməsi, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir. Hazırda kiçik və orta sahibkarların ümumi daxili məhsulda payının 15 faizə, qeyri-neft ixracında isə 10 faizə çatması üçün əhəmiyyətli islahatlar həyata keçirilməkdədir.

Cari ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan mallar və göstərilən xidmətlər 2 faiz artaraq 31 milyard manat təşkil etmiş, ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft sektorunda məhsul istehsalı 15,2 faiz artmış, həmin dövrdə sənayedə özəl sektorun payı 82 faizə çatmışdır. Bu isə qeyri-neft sektorunda sahibkarların lider olduğunu bir daha təsdiq edir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır.

Azərbaycan artıq dünyada özünəməxsus milli inkişaf modeli ilə seçilən, habelə sərmayədar dövlət və qlobal böhran şəraitində belə makroiqtisadi sabitliyi təmin edən ölkə kimi tanınıb. Prezident İlham Əliyevin rəhbərliyi altında son on altı ildə respublikamız dünyada güclü, müstəqil, müasir və mütərəqqi texnologiyalar əsasında inkişaf edən bir ölkə kimi nüfuz qazanıb.

Hazırda dünyanın nüfuzlu iqtisadi və maliyyə institutlarının rəyləri və proqnozları, ən əsası, uğurlarımızın real mənzərəsi bir daha təsdiq edir ki, ölkə rəhbəri cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin ilk günündən bəyan etdiyi strateji hədəflər, qarşıya qoyduğu vəzifələr artıq reallığa çevrilib. Təsadüfi deyil ki, Azərbaycan iqtisadi keçid dövrünü başa çatdırıb və hazırda dünyanın inkişaf etmiş ölkələri ilə müqayisə olunur.

Ölkə iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Biznes mühitinin dinamik inkişafı ilə bağlı onu da xatırladaq ki, respublikada təkcə yerli sərmayədarlara deyil, həm də xarici investorlara əlverişli mühit yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində güzəştlər müəyyən edilib, sahibkarlığın və ixracın təşviqinə yönələn tədbirlər reallaşdırılıb.

Dövlət başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına uyğun olaraq son illərdə biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, o cümlədən prosedurların sadələşdirilməsi elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, əsassız yoxlamaların qarşısının alınması və digər istiqamətlər üzrə davam etdirilib.

Belə ki, Azərbaycan modeli olan, habelə əhaliyə tez, rahat və keyfiyyətli xidmətlər göstərilməsi məqsədilə yaradılmış "ASAN xidmət" mərkəzləri də məhz bu zərurətdən irəli gəlmişdir. "ASAN xidmət" mərkəzləri tərəfindən idarə olunan Elektron Hökumət Portalı dövlət orqanlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan bəhrələnməsinə, dövlət orqanlarının portala qoşulmuş informasiya sistemləri və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət göstərir.

Ölkə Prezidentinin sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış "DOST" mərkəzləri - Azərbaycanın məşğulluq və sosial təminat siyasəti dünyada mövcud olan ən yaxşı təcrübəni özündə ehtiva etmişdir. Belə ki, əhalinin məşğulluğunun təmin olunmasında bir tərəfdən iş adamlarına yeni iş yerləri açmaq üçün əlverişli şərait yaradılmış, digər tərəfdən isə dövlət əmək bazarında özünə iş tapa bilməyən insanlara aktiv məşğulluq tədbirləri, işsizliyə görə müavinət, işsizlikdən icbari sığorta, işsizlərin səriştələrinin artırılması mexanizmləri vasitəsilə öz dəstəyini əsirgəmir.

Keçid dövrünü geridə qoyan respublikamızın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə əsas məqsədlərdən biri də milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsinə və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Azərbaycanın dünya bazarına ixrac olunan məhsullarına böyük maraq olduğundan ölkədə istehsal edilən məhsulların rəqabət qabiliyyətinin artırılması, dünya miqyasında brendə çevrilməsi üçün iri investisiyaların ayrılmasına ciddi ehtiyac duyulur və bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

İxracın genişləndirilməsi, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının zənginləşdirilməsi istiqamətində dövlət başçısının "Made in Azerbaijan" brendinin xarici bazarlarda genişmiqyaslı təşviqinə dair fərmanı mühüm əhəmiyyət kəsb edir. Fərmana uyğun olaraq potensial ixrac ölkələrinə ixrac missiyaları təşkil edilir, ölkəmizin beynəlxalq əhəmiyyətli sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirakı təmin olunur, Azərbaycan məhsulları xarici kütləvi informasiya vasitələrində reklam edilir, ixrac təşviqinin geri ödənilməsi mexanizmi tətbiq edilir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə son illərdə xarici ölkələrdə Azərbaycan ticarət evləri açılmışdır. Bu il yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində açılan "Azərbaycan Ticarət Evi" ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur. Xarici ölkələrdə "Azərbaycan Ticarət Evi"nin açılması və Azərbaycanın şərab evlərinin yaradılması prosesi bu ildə də davam etdirilməkdədir.

Həyata kecirilən iqtisadi islahatlar Azərbaycan Sahibkarlar Konfederasiyasının qarşısında cox böyük vəzifələr qoyur. Azərbaycanın möhtəşəm uğurlarına, şübhəsiz ki, sahibkarlar ordusu da özünəməxsus töhfələr verməyə çalışır və bu, dövlət başçısının iş adamlarına etimadının bir təcəssümü olaraq mühüm vəzifə kimi qəbul edilir.

Azərbaycan Sahibkarlar Konfederasiyası da ölkə sahibkarlarını təmsil edən bir təşkilat olaraq həm əldə etdiyimiz uğurları dəyərləndirir, həm də müasir çağırışları dərindən təhlil edir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yalnız dayanıqlı dövlət-özəl əməkdaşlığı mexanizmləri vasitəsilə dayanıqlı iqtisadi inkişafa xidmət edəcək effektiv qanunvericilik və idarəetmə çərçivəsi yaratmaq mümkündür. Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər assosiasiya və birlikləri birləşdirən Azərbaycan Sahibkarlar Konfederasiyası bu tədbirlərin uğurla həyata keçirilməsi istiqamətində öz qüvvə və imkanlarını səfərbər etmişdir.

Azərbaycan hökumətinin son illərdə apardığı iqtisadi islahatlarla əlaqədar sənədlərin hazırlanmasında sahibkarların iştirakının vacibliyi qeyd olunur. Azərbaycan Sahibkarlar Konfederasiyası da öz təcrübəsindən qeyd edə bilər ki, bütün maraqlı tərəflərin iştirakı olmadan hazırlanan qanunvericiliyə dəyişikliklər və əlavələr, islahat layihələri praktikada müxtəlif problemlərlə üzləşir.

Konfederasiya öz işini özəl sektorda sağlam qüvvələrin birləşməsi əsasında qurur. Üzvlərimiz sırasına, demək olar ki, ölkə iqtisadiyyatının bütün sektorlarında fəaliyyət göstərən müxtəlif şirkətlər daxildir. Konfederasiya üzvlərinin milli və beynəlxalq platformalardan səmərəli istifadəsi üçün təşkilatımızın nəzdində iqtisadiyyatın sahələri üzrə bölünmüş tematik komissiyalar fəaliyyət göstərir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini quraraq sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminarlar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində mütəmadi olaraq iş aparır.

Biznes mühiti barədə beynəlxalq aləmə geniş məlumatların verilməsi, ölkələrarası biznes əlaqələrinin genişləndirilməsi istiqamətdə konfederasiyanın 15-dən artıq xarici dövlətdə rəsmi nümayəndələrinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Nümayəndələrimizin fəaliyyət istiqamətləri əsasən Azərbaycandakı investisiya imkanları haqqında məlumatların çatdırılması və ölkəmizin ixracyönümlü məhsul və xidmətlərinin xarici bazarlara çıxarılmasına dəstək olmaqdır.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Azərbaycan Sahibkarlar Konfederasiyası Beynəlxalq Əmək Təşkilatının, Beynəlxalq İşəgötürənlər Təşkilatının, İpək Yolu Beynəlxalq Ticarət Palatasının, Sahibkarlar və Sənayeçilərin Beynəlxalq Konqresinin, İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurasının, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvüdür.

Azərbaycan Sahibkarlar Konfederasiyası 5 oktyabr 2019-cu il tarixində Özbəkistanın paytaxtı Daşkənd şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) üzvü olan ölkələrin Biznes və İnvestisiya Forumunda yaxından iştirak etmiş, 14 oktyabr 2019-cu il tarixdə isə Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü çərçivəsində Biznes Forumunun təşkilatçısı olmuş və forumun yüksək səviyyədə keçirilməsini təmin etmişdir.

11 beynəlxalq sərgidə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunacaq, ixracla məşğul olan sahibkarlara maliyyə dəstəyi daha da gücləndiriləcəkdir.

Sahibkarlar Konfederasiyasının yaxından iştirak etdiyi və eyni zamanda təşkilatçısı olduğu tədbirlərdən biri də ölkəmizdə hər il Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində keçirilən tədbirlərdir.

2008-ci ildə başlayaraq hər il bütün dünyada keçirilən və artıq dünyanın 160 olkəsini əhatə edən Qlobal Sahibkarlıq Həftəsi yeni ideyaları reallaşdıran, iqtisadiyyatı irəli aparan və biznes fəaliyyətləri vasitəsilə insanların rahatlığını təmin edən innovasiya sahiblərini və iş yerləri yaradanların fəaliyyətini əks etdirən vacib hadisədir.

Cari ilin 18-23 noyabr tarixlərində keçiriləcək Qlobal Sahibkarlıq Həftəsi bütün dünyada milyonlarla insanı, o cümlədən yeni nəsil sahibkarları müxtəlif tədbir və müsabiqələrə cəlb etməklə onları daha da ruhlandıracaq.

Bir məsələ də qeyd olunmalıdır ki, ölkədə qadın sahibkarlığının xüsusi çəkisi ilbəil artmaqdadır. Sahibkar qadınların fəaliyyətini gücləndirmək üçün Heydər Əliyev Fondu tərəfindən müxtəlif layihələr həyata keçirilir. Bu layihələr qadınlara kiçik və orta biznes müəssisələrinin açılmasında kömək edir. Xüsusilə nisbətən daha aztəminatlı, əlil, qaçqın və məcburi köçkün qadınların sahibkarlıqla məşğul olmasında belə layihələr mühüm əhəmiyyətə malikdir.

Bütün bunlarla yanaşı, Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvü olan xanım iş adamları Qadın sahibkarlığın inkişafı komissiyasının iclaslarında fəal iştirak edərək ölkədən kənarda təşkil edilən tədbir və sərgilərə cəlb olunmaqla Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində dünyanın müxtəlif ölkələrində keçirilən tədbirlərdə iştirak edirlər və beynəlxalq təcrübədən yararlanırlar.

Azərbaycan Sahibkarlar Konfederasiyası tərəfindən Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində keçiriləcək tədbirlərlə bağlı plan hazırlanmış, buna uyğun olaraq 19 noyabr tarixdən etibarən konfederasiyanın təşkilatçılığı ilə "Qadın sahibkarlara yaşıl işıq", "Qadın sahibkarlar üçün "dəyirmi masa", "İqtisadiyyat Nazirliyi ilə Konfederasiyanın iri sahibkarlarla görüşü", "Təcrübəli sahibkarların gənc sahibkarlara tövsiyələri", "Dayanıqlı inkişaf məqsədləri və biznes mühiti", "Sahibkarlar üçün intellektual oyunun təşkili" və digər bu kimi tədbirlər keçiriləcəkdir.

Konfederasiya Azərbaycan iqtisadiyyatının inkişafında sahibkarlığın rolunun qorunub saxlanmasında və inkişaf etdirilməsində genişmiqyaslı işlər aparır.

Ölkə Prezidentinə sadiqlik nümayiş etdirən sahibkarlarımız əminliklə bildirirlər ki, cənab İlham Əliyevin rəhbərliyi altında İnkişafın Azərbaycan Modeli keyfiyyətcə yeni mərhələdə də öz nailiyyətləri ilə davamlı inkişafın istinadına çevriləcəkdir.

Biz Sahibkarlar Konfederasiyası olaraq Azərbaycanda fəaliyyət göstərən bütün iş adamlarını Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində keçirilən tədbirlərdə iştirak etməyə dəvət edirik.

İnanıram ki, ölkə sahibkarları dövlətimizin yaratdığı bu imkanlardan istifadə edərək xalqımızın rifah halının daha da yüksəldilməsi, rəqabətədavamlı istehsal potensialının artırılması üçün öhdələrinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcək, yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edəcəklər.

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Heydər Əliyev Fondu 18 yaşınadək olan şəkərli diabet xəstələrini insulinlə təmin edəcək

Heydər Əliyev Fondunun "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin ediləcək. Birillik layihə çərçivəsində müvafiq dərman preparatları Azərbaycan Diabet Cəmiyyəti vasitəsilə şəkərli diabet xəstələrinə veriləcək.

AZƏRTAC xəbər verir ki, əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Heydər Əliyev Fondu 2004-cü ilin dekabrından etibarən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsini həyata keçirir. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihə çərçivəsində şəkərli diabetdən əziyyət çəkən şəxslərə dövlət tərəfindən göstərilən qayğıya dəstək məqsədilə uşaq və yeniyetmələr müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilir.

# II Azərbaycan Diabet Konqresi keçirilib

Noyabrın 14-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika Endokrinoloji Mərkəzi, Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyası, Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyəti, Azərbaycan Diabet Cəmiyyətinin təşkilatçılığı, Heydər Əliyev Fondunun dəstəyi ilə II Azərbaycan Diabet Konqresi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin sədri, Bakı şəhərinin baş endokrinoloqu Valeh Mirzəzadə noyabrın 14-də Dünya Diabetlə Mübarizə Gününün qeyd olunduğunu diqqətə çatdırıb: "Bu gün bütün dünyada mütəxəssislər diabetlə mübarizənin yollarını müzakirə etmək üçün bir araya gəlirlər. Həmin məqsədlə ölkəmizdə təşkil olunmuş konqresdə təcrübələrini bölüşmək üçün yerli və xarici mütəxəssislər iştirak edirlər. Ümid edirəm ki, konqres şəkərli diabetin idarəetmə prosesini ümumiləşdirməyə və şəkərli diabet xəstələrinə göstərilən tibbi yardım xidmətlərini təkmilləşdirməyə imkan verəcək. Konqresdə pre-diabetlə mübarizə üsulları, onun normal vəziyyətdə saxlanılması, şəkərli diabetə keçməsinin qarşısının alınması da müzakirə ediləcək.

Hazırda Azərbaycanda dispanser qeydiyyatında 250 minə yaxın şəkərli diabet xəstəsi var. Lakin şəkərli diabetdən əziyyət çəkdiyindən xəbərsiz olan xəstələr də mövcuddur. Bu da onu deməyə əsas verir ki, ölkəmizdə 500 minə yaxın insan şəkərli diabetdən əziyyət çəkir".

Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəhbəri Soltan Məmmədov bildirib ki, Heydər Əliyev Fondu ölkədə həyata keçirilən səhiyyə siyasətinə dəstək olaraq 2004-cü ildən "Diabetli uşaqlara xüsusi qayğı" layihəsi çərçivəsində uşaqları lazımi tibbi dərmanlarla təmin etməyə başlayıb. Qeyd olunub ki Heydər Əliyev Fondu Azərbaycanda diabetlə mübarizəyə, eyni zamanda, ürək qüsurlu uşaqların profilaktika, müalicə və əməliyyatlarına, sosial cəhətdən ehtiyacı olan insanlara, əlillərə, o cümlədən ictimai səhiyyə sahəsində aparılan bütün tədbirlərə dəstək göstərir.

Bildirilib ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində qarşıdakı bir il ərzində ölkə üzrə şəkərli diabet xəstəliyi olan 18 yaşadək şəxslər insulin preparatları və şpris-qələmlərlə təmin ediləcək.

Azərbaycan Endokrinologiya, Diabetologiya və Terapevtik Təlimat Assosiasiyasının sədri, Əməkdar həkim Tamfira Əliyeva, Azərbaycan Diabet Cəmiyyətinin sədri Mömünat Ömərova və Azərbaycan Endokrinoloqlar Elmi Cəmiyyətinin sədr müavini, Respublika Endokrinoloji Mərkəzin direktor müavini Qənnadi Babək-Salek şəkərli diabetin dünyada ən geniş yayılmış qeyri-infeksion epidemiya olduğunu bildiriblər. Onlar diabetlə birgə mübarizənin vacibliyini qeyd edib, əhalinin maarifləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Konqres plenar hissələrlə davam etdirilib.

Qeyd edək ki, Beynəlxalq Diabet Federasiyasının məlumatlarına əsasən, diabetli xəstələrin sayı 2000-2017-ci illərdə 151 milyondan 425 milyona qədər artıb. Bu rəqəmin 2045-ci ildə 628.6 milyona çatacağı gözlənilir. Hazırda şəkərli diabetin tibbi-sosial əhəmiyyəti şübhə doğurmur. Bu, 2006-cı il dekabrın 20-də BMT-nin Baş Assambleyası və 2011-ci il 19-20 sentyabrda BMT-nin Baş Assambleya İclasının Siyasi Bəyannaməsi ilə təsdiq olunub. Şəkərli diabetin tibbi-sosial əhəmiyyəti onun nəinki epidemiya xarakteri alması, o cümlədən xəstələrin əlilliyinə və ölümünə səbəb olması ilə əlaqədardır.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, noyabrın 14-də Lerik, Bərdə, Kəlbəcər, Qobustan və Samux rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunub. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə, 4,2 milyon vətəndaşı əhatə edir. Minimum pensiya 72 faiz artırılıb. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Parisdə Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Parisdə UNESKO-nun Baş Konfransının 40-cı sessiyası çərçivəsində Təhsil naziri Ceyhun Bayramov Türkiyənin Milli Təhsil naziri Ziya Selçuk ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə iki qardaş ölkə arasında çoxtərəfli və inkişaf etmiş münasibətlərə toxunulub. Ölkə başçıları və nazirlər səviyyəsində qarşılıqlı səfərlərin əlaqələrin daha da inkişaf etməsinə töhfəsi vurğulanıb.

Tərəflər təhsil sahəsində ikitərəfli əməkdaşlığın inkişafı, tələbə mübadiləsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar. Peşə təhsili sahəsində əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb. Birgə elmi araşdırmaların vacibliyi vurğulanıb. Prezident İlham Əliyevin Azərbaycanda təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan danışan nazir "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

# UNESKO-nun Baş Konfransında Azərbaycan nümayəndə heyəti erməni yalanlarını ifşa edib

UNESKO-nun Baş Konfransının 40-cı sessiyasında ümumi siyasi debatlar zamanı çıxış edən Ermənistan təhsil və elm naziri Arayik Harutyunyan təxribata əl atıb. O, Dağlıq Qarabağ "xalqı"nın öz təhsil hüququndan istifadə edə bilməməsi və mədəni irs abidələrinin qorunması mövzusuna toxunaraq, Naxçıvanda "erməni qəbirlərinin dağıdılması" kimi yanlış fikirlər söyləyib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın UNESKO yanında daimi nümayəndəliyi cavab hüququndan istifadə edib. Müşavir Ayaz Qocayev nümayəndə heyətimizin bəyanatını həmin debatda səsləndirib.

Bəyanatda ölkəmizin ərazisinin 20 faizinin erməni qoşunları tərəfindən işğal olunduğu və bu işğalın uzun illərdir davam etdiyi bildirilib. Qeyd edilib ki, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal altındakı torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, Ermənistan torpaqlarımızı hələ də işğal altında saxlayır. Bir milyon azərbaycanlı doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Bəyanatda vurğulanıb ki, Dağlıq Qarabağ "xalqı" yoxdur, Dağlıq Qarabağın uzun zaman sülh və harmoniyada yaşamış azərbaycanlı və erməni icmaları var. Ermənistan tərəfindən aparılmış təcavüz və separatçılıq siyasəti nəticəsində Dağlıq Qarabağın azərbaycanlı icması etnik təmizlənməyə məruz qalıb. Burada yaşamış azərbaycanlılar öz təhsil hüquqlarından istifadə edə bilmədikləri üçün 2030-cu il Davamlı İnkişaf Proqramının məqsədləri həyata keçirilmir.

Sülh və birgə yaşamaq mədəniyyətini aşılamaqda, nifrət nitqinə qarşı mübarizə aparmaqda təhsilin vacibliyi qeyd olunan bəyanatda belə təhsilin ilk növbədə azərbaycanlıların və ermənilərin etnik uyğunsuzluğundan danışan və nasist generallarının şərəfinə abidə ucaldan Ermənistan rəhbərlərinə tətbiq edilməli olduğu vurğulanıb. Yuxarıda sadalanan belə təhlükəli siyasətin beynəlxalq və regional təşkilatlar tərəfindən də tənqid edildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, mədəni irsin qorunmasına gəldikdə isə, erməni tərəfi ölkəmizin işğal olunmuş ərazilərində Azərbaycanın bütün mədəni irs abidələrini niyyətli şəkildə yerlə yeksan etmələri ilə bağlı hesabat verməlidirlər.

Bəyanatın sonunda bildirilib ki, insanların düşüncəsində sülh yaratmaq üçün UNESKO kimi mötəbər təşkilatdan istifadə etməliyik ki, gələcək nəsillər birgə sülh və harmoniyada yaşamaq ideyasından bəhrələnə bilsin.

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bir qrup şəhid ailəsi və müharibə əlilini mənzillə təmin edib

Noyabrın 14-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda və Abşeron rayonunun Mehdiabad qəsəbəsində yeni yaşayış binalarından alınmış mənzillər bir qrup şəhid ailəsi və müharibə əlilinə təqdim edilib.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, mənzillərin sənədlərinin təqdim olunması zamanı vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq şəhid ailələri və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı ildən-ilə geniş miqyas alır. 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfədən çox, yəni 626 mənzil həmin insanlara təqdim olunub. 2019-cu ildə isə bu kateqoriyalardan olan vətəndaşlara 934 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub və artıq 253 mənzil verilib. Bununla da indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 6907 mənzil təqdim edilib.

Yeni mənzil alan şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, onların ailə üzvləri əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi tədbirlərindən razılıqla bəhs ediblər. Onlar şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə yüksək qayğı göstərildiyinə, yeni mənzillərlə təmin olunduqlarına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

# 34 milyonuncu müraciət



"ASAN xidmət"ə 34 milyonuncu vətəndaş müraciəti qeydə alınıb. Bu müraciət 3 saylı Bakı "ASAN xidmət" mərkəzinə Günay Əliyeva tərəfindən edilib. O, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilən məhkumluq barədə arayışların verilməsi xidmətindən yararlanıb. 34 milyonuncu müraciətin sahibi kimi Günay Əliyeva təşəkkürnamə və simvolik hədiyyələrlə mükafatlandırılıb.

Hazırda 15 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i paytaxt Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli və Şəkidədir. Bundan başqa, regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlər göstərilir.

Həmçinin Bakı şəhərində əhaliyə kommunal sahədə xidmətlər göstərən 2 "ASAN Kommunal" mərkəzi fəaliyyətdədir.

***"Azərbaycan"***

# DSMF-nin Saatlı və Sabirabad rayon şöbələrinin müdirləri barəsində cinayət işi başlanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən kompleks islahatlar çərçivəsində son illər sosial müdafiə sisteminin əhatəliliyi və səmərəliliyi daha da artırılıb, sosial siyasətin başlıca istiqamətlərindən biri kimi əhalinin sosial təminatı sahəsində idarəetmənin təkmilləşdirilməsində, eləcə də ünvanlılığın və şəffaflığın təmin edilməsində əhəmiyyətli irəliləyişlərə nail olunub.

Bununla yanaşı, dövlətin bu sahədə həyata keçirdiyi mütərəqqi siyasətə kölgə sala biləcək mənfi amillərə, o cümlədən əhatə etdiyi geniş əhali kateqoriyasına görə sosial-müdafiə sferasının mühüm komponentlərindən olan əmək və pensiya təminatı sistemində baş verə biləcək sui-istifadə hallarına və vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş digər qanunsuz hərəkətlərə qarşı ən ciddi mübarizə tədbirləri davam etdirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, həyata keçirilməkdə olan belə tədbirlərdən biri kimi Dövlət Sosial Müdafiə Fondunun Saatlı və Sabirabad rayon şöbələrində güzəştli şərtlərlə yaşa görə əmək pensiyalarının təyin edilməsində qanunvericiliyin tələblərinə əməl edilməməsi barədə nazirlikdən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı DSMF-nin Saatlı və Sabirabad rayon şöbələrinin müdirləri Seyidrəsul Abbasovun və Bayram Mikayılovun xidməti vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ayrı-ayrı vətəndaşların pensiya təyinatı ilə bağlı müraciət etdikləri tarixlərdən ən çoxu üç il əvvəl üçün pensiya təyin olunması barədə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq Saatlı rayon şöbəsində 44 pensiya işi üzrə 102 min manat, Sabirabad rayon şöbəsində isə 31 pensiya işi üzrə 95 min manat artıq ödəməyə səbəb olan keçmiş tarixə pensiya məbləğlərini hesablamalarına dair əsaslı şübhələr müəyyən edilib.

Bu xüsusatlarla əlaqədar fakta görə həmin vəzifəli şəxslər barəsində Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Hərbi Dəniz Qüvvələri genişmiqyaslı təlim çərçivəsində tapşırıqları icra edir







Hərbi Dəniz Qüvvələri (HDQ) Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat təlimi çərçivəsində qarşıya qoyulan tapşırıqları icra edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq, HDQ-nin idarəetmə qrupuna müdaxilələr əsasında daxil olan məlumatlar xəritə üzərinə işlənilir.

Təlimə cəlb olunan gəmi taktiki qrupları Xəzər dənizinin əməliyyat zonasında tapşırıqları dəqiq və effektiv icra edir.

# Əməliyyat təlimində qoşunlar yerdəyişmə tapşırıqlarını icra edib







Azərbaycan Ordusunun genişmiqyaslı təlimində qoşunların və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlara köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması üzrə tapşırıqlar icra edilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin məqsədinə uyğun olaraq, əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək bölmələr təyinat məntəqələrinə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqları yerinə yetirirlər.

# Hədəf Azərbaycanı müasir və inkişaf etmiş ölkəyə çevirməkdir

## İlham ƏLİYEV: "Biz elə islahatlar aparırıq ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir"

*Əvvəli 1-ci səh.*

Bu fikirləri Prezident İlham Əliyev fevral ayında mətbuata verdiyi müsahibədə söylədi. Və elə fevral ayında imzaladığı müvafiq fərman və sərəncamlar göstərdi ki, dövlət başçısının fəaliyyətinin əsas qayəsini insan amili təşkil edir.

Artıq il ərzində iki dəfə sosial paketin elan olunması Prezidentin fikirlərinin qısa zamanda real həyatda təsdiqini tapdığını göstərir. Beləliklə, 2019-cu ilin mart və sentyabr aylarında əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin və təqaüdlərin artımını nəzərdə tutan 2 mərhələ üzrə sosial paketlər təsdiqlənib. Bu zəmində minimum əməkhaqqının təxminən 2 dəfə artırılaraq 130 manatdan 250 manata, eləcə də minimum pensiyaların 72,0 faiz artırılaraq 116 manatdan 200 manata çatdırılması bu sahədə atılmış mühüm addımlardandır.

Artımlar eyni zamanda dövlət büdcəsindən maliyyələşdirilən elm, müdafiə, təhlükəsizlik, hüquq mühafizə, təhsil, səhiyyə və digər sahələrdə, habelə dövlət orqanlarında çalışan işçiləri əhatə etmişdir. Bütövlükdə yuxarıda sadalanan artım istiqamətlərinin maliyyə tutumu 2,3 milyard manata bərabər olmaqla 4,2 milyon nəfəri əhatə edir.

### Şəffaflıq və dürüstlük təmin edilir

Təbii ki, bu artıma imkan verən əsas səbəblərdən biri iqtisadi sferalarda həyata keçirilən islahatlardır. Reallıq ondan ibarətdir ki, Azərbaycanda son illərdə aparılan mükəmməl iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Xüsusən vergi və gömrük sahələrində baş verən keyfiyyət dəyişiklikləri bu sırada böyük rol oynayır. Hələ bu ilin yanvarında Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqində Prezident İlham Əliyev bu barədə demişdir: *"Xüsusilə vergi və gömrük sahələrində aparılan islahatlar çox böyük əhəmiyyət daşıyır. Bu sahələrdə sağlamlaşdırma prosesi gözəl nəticələr verir. Bizim maliyyə imkanlarımız genişlənir. Görülmüş işlər, yəni artıq apardığımız islahatlar bu il də özünü böyük dərəcədə göstərəcək".*

Xatırladaq ki, gələn il vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat vəsaitin daxil olması nəzərdə tutulur ki, bu da cari ilin proqnozundan 559 milyon manat çoxdur. Dövlət Gömrük Komitəsi üzrə daxilolmaların proqnozu isə 4 milyard manat nəzərdə tutulur. Bu da 2019-cu ilin proqnozundan 298 milyon manat çoxdur. Artımların əsas səbəbi bu sahələrin özündə aparılan islahatlar, şəffaflığın və dürüstlüyün təmin edilməsidir.

### İdarəçiliyin təkmilləşdirilməsi diqqət mərkəzindədir

İnkişaf həm də mükəmməl idarəetmə deməkdir. Hər bir inkişaf etmiş dövlətin tarixi sübut edir ki, onun yüksəlişinə uyğun olaraq idarəetmə aparatı da daim yenilənib. Çünki inkişaf dövlət idarəçiliyi sisteminin səmərəliliyinin yüksəldilməsini, çevik və məqsədyönlü fəaliyyət göstərən idarəetmə strukturunun formalaşdırılmasını tələb edir. Ölkənin çevik idarəçilik sisteminin olması inkişafın əsas şərtlərindən biridir.

Azərbaycanda inkişafın təmin olunması istiqamətində köklü islahatlar həyata keçirilib. Bu sırada idarəçiliyin təkmilləşdirilməsi daim diqqət mərkəzində olub. Bu məqsədlə ayrı-ayrı dövlət orqanlarında islahatlar həyata keçirilib. Bəziləri ləğv olunub, bəziləri birləşdirilib və ya tamamilə yeni dövlət orqanları yaradılıb. Təbii ki, bu illərdə diqqəti çəkən əsas məqamlardan biri vətəndaşlara dövlət xidmətlərinin göstərilməsinin ən yüksək səviyyəyə çatdırılmasıdır. Artıq ölkədə vətəndaşlara göstərilən xidmətlər daha keyfiyyətli, rahat və müasir innovasiyalarla həyata keçirilir ki, bütün bunlar da cəmiyyətimiz tərəfindən razılıqla qarşılanır. Bu mənada tamamilə şəffaf, çevik və operativ xidmət mexanizminin yaradılması bugünkü Azərbaycanın ən böyük uğurları sırasında yer alır. Təsadüfi deyil ki, Azərbaycanın adı həm də beynəlxalq hesabatlarda ən islahatçı dövlət kimi keçir.

Təbii ki, kadr islahatları da qarşıda duran əsas vəzifələrdəndir. Ümumiyyətlə, Prezident İlham Əliyevin fəaliyyətində yenilikçi, təşəbbükar kadrların, o cümlədən gənclərin irəli çəkilməsi prioritet təşkil edib. Oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə Prezident İlham Əliyev bu barədə demişdir: *"Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXİ əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?"*

Dövlət idarəetmə sistemində son dövrlər gənc kadrlara yüksək etimadın göstərilməsi olduqca təqdirəlayiq haldır. Bu, dövlət başçısının müxtəlif sferaların inkişafında onlara böyük etimad göstərməsinin təsdiqidir.

Bütövlükdə Azərbaycanda həyata keçirilən islahatlar məzmununa görə məqsədyönlüdür və konkret hədəfə hesablanıb. Ən əsası, bu islahatlar məhdud sfera ilə məhdudlaşmayaraq kompleks xarakter daşıyır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, elə islahatlar aparılır ki, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, vətəndaşların rifahına, onların rahat yaşamasına xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dövlət həmişə vətəndaşının yanındadır

"Qarabağ müharibəsi əlili Qurban Qurbanovun ölkə rəhbərinin ona bəxş etdiyi və bankda girovda olan evinin ona qaytarılması bir daha sübut etdi ki, müstəqil Azərbaycan dövlətində vətəndaş amili hər zaman yüksəkdə dayanır və bundan sonra da dayanacaqdır".



Bu fikirlər Qazax Rayon İcra Hakimiyyətində Qarabağ qazisi Qurban Qurbanov və onun ailə üzvləri ilə keçirilən görüşdə səsləndirilmişdir. Qeyd edilmişdir ki, vətən, torpaq uğrunda qəhrəmanlıq, şücaət göstərən, Azərbaycanın ərazi bütövlüyü naminə sağlamlığından keçən vətən oğulları hər zaman dövlətə, Prezidentə arxalanır, ölkə rəhbərini özlərinə himayədar bilirlər.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov Qarabağ qazisi Qurban Qurbanovu və onun ailəsini təbrik etmiş və ona göstərilən bu qayğını ümumilikdə Qarabağ müharibəsi əlillərinə göstərilən qayğı kimi dəyərləndirmişdir. Bildirilmişdir ki, ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə daim çoxsaylı tədbirlər həyata keçirilir. Elə cari il aprel ayının 3-də Heydər Əliyev Fondu tərəfindən yüksək texnologiyalı protezlərlə təmin olunan hərbçilərlə keçirilən görüşü izləyənlər də əmin oldular ki, ölkə rəhbəri və Birinci vitse-prezident hər zaman bu kateqoriyadan olan insanlara dəstək olur. Mehriban xanım Əliyeva bu qərarı ilə, atdığı humanist addımı ilə bir daha sübut etdi ki, Heydər Əliyev Fondu fəaliyyətə başladığı ilk gündən xeyirxah əməlləri ilə ölkənin hər bir vətəndaşını sevindirir. Ən əsası isə, bu, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiqliyin daha bir bariz nümunəsidir.

"Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Qazax rayon şöbəsinin sədr əvəzi Xasay Balayev, birinci qrup Qarabağ müharibəsi əlilləri Namiq Alıyev və Baxış Hüseynov Mehriban xanım Əliyevanın bu addımını yüksək dəyərləndirmiş və Qurban Qurbanovun sevincinə şərik olduqlarını bildirmişlər.

Rayon polis şöbəsinin rəisi Ədalət Əliyev, respublika Vəkillər Kollegiyasının üzvü Şahin Hacıyev də Azərbaycanda vətəndaş amilinin hər zaman ön planda dayandığını bir daha diqqətə çatdırmışlar.

Qurban Qurbanov və həyat yoldaşı Zeynəb Qurbanova xeyirxahlığa görə dövlət başçısına və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıq etmiş, evlərinin onlara bağışlanma xəbərini hədsiz sevinclə qarşıladıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İngilis mütəxəssisləri Bakıda növbəti monitorinq apardılar

Xəbər verildiyi kimi, bu ilin iyul ayından paytaxtın Nərimanov rayonunda Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış yeni pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin icrasına başlanmışdır.



İşlərin yüksək səviyyədə aparılması nəticəsində ötən müddət ərzində xeyli irəliləyiş əldə olunub. Vətəndaşlarla aparılan izahetmə işləri, maarifləndirici tədbirlər və s. öz bəhrəsini verməkdədir. Nərimanov rayonunda 400 ədəd konteyner meydançası yaradılıb, bura tələbata uyğun miqdarda yeni, müasir konteynerlər yerləşdirilrb. Sanitar-gigiyena tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən yaradılan Monitorinq Mərkəzində növbəti dəfə Bakıya ezam olunmuş "Mott MacDonald" şirkətinin nümayəndəsi - tullantı menecmenti məsləhətçiləri Artur Guasti və Nik Vilson ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya çərçivəsində indiyədək görülmüş və nəzərdə tutulan işlər barədə ətraflı məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

Bildirildi ki, tullantıların kompozisiyasının araşdırılmasının təkrarlanması əldə edilən təkrar emal tullantılarının nisbətinin dəqiq öyrənilməsi üçün vacibdir. Kompozisiya araşdırılmasının təkrarlanması hər dəfə nəticələrin dəqiqləşdirilməsi üçündür və hər 2-3 aydan bir təkrarlanması nəzərdə tutulub. Onların bu gəlişi də nəticələri araşdırmaq, növbəti mərhələyə hazırlıq məqsədi daşıyır. Hər gün konteynerlər yoxlanılır, onların yerləşmə strukturu müzakirə olunaraq optimal variant tapılır, ümumi planda dəyişiklik edilərək mövcud vəziyyətə uyğunlaşdırılır.

"Mott MacDonald" şirkətinin nümayəndəsi kommunal xidmətlərin işini yüksək qiymətləndirərək layihənin müvəffəqiyyətlə həyata keçirildiyini qeyd etdi və yaxın vaxtlarda digər rayonların da bu layihəyə qoşulacağını bildirdi.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin kommunal xidmətlər müəssisəsinin direktoru İlqar Hüseynov bildirmişdir ki, əgər layihənin icrasının ilk vaxtlarında gündəlik olaraq 6-7 ton təkrar emala gedən tullantı yığılırdısa, hazırda bu rəqəm 25 tona çatıb.

Layihənin icrasında xırda problemlər ortaya çıxır ki, onlar da qaçılmazdır. Bu problemlər operativ şəkildə aradan qaldırılır. Hər gün yığılan tullantıların tərkibi və çəkiləri araşdırılır, məlumat bazasına əlavə edilir. Bu istiqamətdə işlər gündəlik davam edir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Payızlıq taxıl əkininin mühüm dövrüdür

*Əvvəli 1-ci səh.*

Qeyd etmək lazımdır ki, başa çatmaqda olan 2019-cu il kənd təsərrüfatı ilə məşğul olan fermerlər, torpaq mülkiyyətçiləri üçün uğurlu olmuşdur. Taxıl, pambıq, digər məhsul istehsalçıları yüksək nəticələr əldə etmişlər. Təbiətin mərhəməti pambığın itkisiz yığılmasına imkan yaratmışdır. Kartofçuluq, çayçılıq, çəltikçilik, üzümçülük, meyvəçilik və digər sahələrdəki nailiyyətlər də ürəkaçandır. Yüksək məhsul yetişdirmək, yaxşı nəticələr əldə etmək isə yaxşı qazanc, xoş güzəran, firavan həyat deməkdir. Kəndli əldə etdiyi qazancla ev tikir, oğul evləndirir, qız köçürür, başqa problemlərini həll edir.

Həyata keçirilən islahatlar növbəti illərdə qazanılan uğurların daha çox və dinamik olacağından xəbər verir. Doğrudur, havaların mülayim, yağmursuz keçməsi taxılçılıq üçün çox da əlverişli deyil, lakin taxıl əkən fermerlər ümidsiz deyillər, yaxşı bilirlər ki, təbiət mərhəmətlidir. 10-15 gün o yan-bu yana etsə də, nəticə çox zaman yaxşı olur. Elə bu ümidlə də kəndlilər yeri şumlayır, malalayır, toxum səpirlər.

### Salyan

Salyan ölkənin iri kənd təsərrüfatı rayonlarından biridir. Taxılçılıq burada aqrar sektorun mühüm sahələrindəndir. Keçən ilin payızında cari ilin məhsulu üçün 16 min 734 hektar sahəyə toxum əkilmişdi. Bunun da 9 min 917 hektarı arpa, 6 min 817 hektarı buğda idi. Fermer və torpaq mülkiyyətçiləri əkdikləri sahələri daim diqqət mərkəzində saxlamış, aqrotexniki tədbirləri vaxtında və yüksək keyfiyyətlə aparmışlar. Suvarma, yemləmə, alaq otlarına, xəstəliklərə qarşı mübarizə işlərini optimal müddətdə həyata keçirmişlər.

Çəkilən zəhmət öz bəhrəsini vermişdir. Muğan şəraitində arpa əkilən hər hektardan orta hesabla 36,2, buğda sahələrindən 40,5 sentner məhsul əldə edilmişdir ki, bu da böyük nailiyyətdir. Ayrı-ayrı sahibkarlar isə daha yüksək nəticələrə nail olmuşlar. Aşağı Noxudlu kəndində yaşayan Əli Novruzov hər hektardan 50,4, Sarvan kənd sakini Mərdan Cəlilov 42, Xələc kəndindən Sədrəddin İbrahimov 41, Qızılağacdan olan fermer Arif Cəlilov 40 sentner arpa və buğda götürmüşlər. Bütün fermer və torpaq mülkiyyətçiləri yetişdirdikləri məhsulu satmaq üçün heç bir çətinliklə qarşılaşmamışlar.

Əldə etdikləri nəticələrdən ruhlanan taxılçılar gələn ilin məhsulu üçün cari ildə də payızlıq əkini mütəşəkkil aparırlar. 10 min 100 hektarda arpa, 8 min 643 hektarda buğda əkilməsi proqnozlaşdırılıb. Hələlik 4 min hektardan çox sahədə əkin başa çatdırılmışdır. Torpağa səpilməsi nəzərdə tutulan toxumun 2,217 tonu rayonun sertifikat almış taxılçıları tərəfindən istehsal edilmişdir. Qalan 1400 ton digər regionlardakı müxtəlif toxumçuluq təsərrüfatlarından alınıb gətirilmişdir. Bunlar əsasən "Qobustan", "Taleh-38", "Murov" buğda, "Qarabağ-22", "Qarabağ-33" arpa sortlarıdır. Əkinə 113 traktor, 113 mala və 50 səpin aqreqatı cəlb olunmuşdur.

### Cəlilabad

Cəlilabad ölkəmizin iri taxılçılıq rayonlarından sayılır. Keçən əsrin 60-70-ci illərində burada rekord miqdarda buğda yetişdirilmişdir. O vaxtlar xalq arasında Cəlilabada "Azərbaycanın Ukraynası" deyilmişdir. Rayonda üzüm, kartof, çiyələk və başqa kənd təsərrüfatı məhsulları istehsalı genişləndirilsə də, taxıl istehsalı yenə ön sıradadır.

Cari ildə rayon üzrə 63 min 241 hektar sahədə taxıl yetişdirilmişdir. O cümlədən 54 min 908 hektar buğda zəmilərindən 203 min 708, 4 min 509 hektar arpa sahələrindən 15 min 871, 3 min 824 hektar vələmir əkilmiş sahədən 10 min 18 ton məhsul götürülmüşdür. Buğdanın orta məhsuldarlığı hər hektarda 37,1, arpanınkı 35,2, vələmirinki 26,2 sentner olmuşdur. Fermerlərdən Etibar Hüseynov, Lətif Ağayev, Xasay Feyziyev, Səfər Səfərov və başqaları daha yaxşı nəticələr əldə etmişlər. Onlar taxıl toxumçuluğunun inkişaf etdirilməsində də yaxından iştirak edirlər.

Gələn ilin məhsulu üçün bu payız 60 min hektarda taxıl əkilməsi nəzərdə tutulur. Mütəxəssislərin rəyinə əsasən, bu mövsüm daha çox "Bərəkətli-95", "Qobustan", "Şəfəq-2", "Taleh-38" buğda və "Cəlilabad-19" arpa sortları əkilir. Əkin zamanı istifadə olunan toxumun 630 tonu yerli fermerlər tərəfindən yetişdirilib. Əkin kampaniyası başlamışdır.

### Biləsuvar

Biləsuvarın əhalisi torpağa bağlı insanlardır. Əldə etdikləri çoxillik təcrübə əsasında torpağın dilini bilir və sirlərinə yaxından bələddirlər. Buna görə də bütün sahələr üzrə bol məhsul yetişdirirlər. Rayonun taxılçılıqda da uğurları az deyil. Bir çox rayonlardan fərqli olaraq, indinin özündə biləsuvarlılar əsasən yetişdirdikləri buğdadan istifadə edirlər.

Rayonda yüksək məhsul əldə etməyin ən mühüm şərtlərindən biri növbəli əkin sisteminə ciddi əməl olunmasıdır. Bundan əlavə, torpağa mineral və üzvi gübrələrin verilməsi də həmişə diqqət mərkəzində saxlanılır.

Cari ilin məhsulu üçün ötən ilin payızında 30 min 12 hektardan artıq sahəyə taxıl əkilmişdi. Bunun 13 min 556,7 hektarı buğda və 16 min 456,1 hektarı arpa olmuşdu. Nümunəvi qulluq sayəsində zəmilərdən bol məhsul biçilmişdir. Buğda sahələrinin hər hektarından orta hesabla 32,4, arpa sahələrindən 30,6 sentner məhsul əldə olunmuşdur. Fermerlərdən Rüstəm Əzizov, Fəxrəddin Quliyev, Etibar Əcəmov, Ramiz Əliyev və başqaları daha çox - hər hektardan 40-45 sentner taxıl biçərək daha yüksək məhsuldarlığa nail olmuşlar.

Gələn ilin məhsulu üçün 30 min hektarda taxıl əkini aparılması nəzərdə tutulmuşdur. Bunun üçün 29 min 350 hektarda keyfiyyətli şum aparılmışdır. Səpin kampaniyasını optimal müddətdə başa çatdırmaq üçün 24 şum, 60 nəqliyyat traktoru, 80 toxumsəpən və digər texnikalar cəlb edilmişdir. Əkin zamanı mülkiyyətçilər toxumla birlikdə torpağa amafos, nitroamafos, karbamid gübrələri verirlər. Sahələrin müəyyən hissəsi suvarılmış və həmin yerlərdə çıxış alınmışdır.

### Hacıqabul

Bu rayonda da digər bitkilərlə yanaşı, taxılçılığa böyük əhəmiyyət verilir. Keçən ilin payızında rayonda 31 min hektardan çox sahədə arpa və buğda əkilmişdir. Çəkilən zəhmət nəticəsində bol məhsul əldə olunmuşdur. Zəmilərdən 31 min 385 ton arpa, 41 min 717 ton buğda biçilmişdir və onlardan 3 min 500 tonu yüksək kondisiyalı toxum olmuşdur. Həmin toxumlar yerli fermerlərə satılmışdır.

Gələn ilin bol məhsulu üçün indi möhkəm təməl qoyulmaqdadır. 33 min hektar sahədə taxıl əkilməsi hədəf götürülmüşdür. Bunun 11 min hektarı arpa, 22 min hektarı buğda olacaq. Səpini yüksək keyfiyyətlə və vaxtında başa çatdırmaq məqsədilə rayonda xüsusi qərargah yaradılmışdır. Səpin kampaniyasına 120-dən artıq müxtəlif traktor, 60 mala və 38 səpin aqreqatı cəlb olunmuşdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Kəmərlər Səngəçalda qovuşur

*Əvvəli 1-ci səh.*



2002-ci ildə burada Ulu Öndər Heydər Əliyev dünyanın müxtəlif yerlərindən gəlmiş mötəbər qonaqların iştirakı ilə üçüncü minilliyin nəhəng mühəndis qurğusu - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməlini qoyub. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın dövlət başçılarının, eləcə də tərəfdaş şirkətlərin nümayəndələrinin iştirakı ilə kəmərə ilk neft vurulub. Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşən "Cənub qaz dəhlizi" kimi qlobal bir layihənin təməlqoyma və açılış mərasimləri də Səngəçalda olub.

Terminal bu layihələrlə birgə böyüyüb. Hər yeni yatağın hasilatını qarşılamaq, ilkin emaldan keçirmək, saxlamaq və nəhayət, ixrac etmək üçün bir az da genişlənib. Buradakı çənlərin, boru xətlərinin, avadanlıq və qurğuların sayı ildən-ilə artır. "Şahdəniz-2" qazını qəbul edib istehlakçılara ötürmək üçün tikilən yeni obyektlərin sayəsində keçən il terminal daha möhtəşəm görkəm alıb.

Azərbaycanda ən iri neft-qaz və ixrac layihələrinin operatoru olan BP şirkətindən aldığımız məlumata görə, "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından hasilatın sualtı boru kəmərləri vasitəsilə terminala göndərilməsi davam edir. Hazırda Səngəçal terminalının texniki emal sistemlərinin gündəlik gücü 1,2 milyon barel neft və "Şahdəniz" qazı üçün təqribən 80 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 100 milyon standart kubmetrdir.

Cari ilin ilk üç rübü ərzində terminaldan dünya bazarlarına 198 milyon bareldən çox neft və kondensat daşınıb. Bu həcmin 178 milyon bareldən çoxu Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri və 20 milyon bareldən çoxu Qərb İxrac Boru Kəməri marşrutu ilə ixrac edilib.

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri, bu kəmərin genişləndirilmiş sistemi və terminalın qaz emalı obyektlərini "Azəriqaz" sistemi ilə birləşdirən, SOCAR-a məxsus xətlə nəql olunur.

Bu ilin 9 ayı ərzində terminaldan həmçinin gündə orta hesabla 44 milyon standart kubmetr (təqribən 1 milyard 548 milyon standart kubfutdan çox) "Şahdəniz" qazı ixrac edilib.

Misilsiz iqtisadi əhəmiyyəti ilə yanaşı, Səngəçal həm də öz gözəlliyi ilə seçilən bənzərsiz sənaye nəhəngidir. Azərbaycan neftçiləri indiyədək çox möcüzələr yaradıblar. Təkcə polad dirəklər üzərində qurulan Neft Daşlarını xatırlatmaq kifayətdir. Bir möcüzə də Azərbaycanın yeni neft strategiyasındakı tərəfdaşları ilə birlikdə tikib-qurduğu Səngəçal terminalıdır. Bakıdan 55 kilometr cənubda, daim güclü küləklərin əsdiyi, əvvəllər payızda-qışda palçıq, yayda bürkü və toz içində olan yarımsəhra zonada misilsiz bir obyekt baş qaldırıb. Bu, gündüz də, gecə də əsrarəngiz görkəmi ilə diqqəti cəlb edən Səngəçal terminalıdır. Dünyanın ən böyük neft-qaz terminalı...

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 21 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# 23 dekabr bələdiyyə seçkiləri günüdür

## Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkiləri ilə əlaqədar Şəkidə seminar-müşavirə təşkil edib



2019-cu il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar seçki mübahisələrinin həllinə dair növbəti regional seminar-müşavirə Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramına uyğun olaraq Şəkidə gerçəkləşdirilib.

AZƏRTAC xəbər verir ki, noyabrın 14-də Şəki şəhərindəki "ASAN xidmət" mərkəzində keçirilən və seçki hüquqlarının pozulmasına dair şikayətlərin məhkəmə qaydasında həlli mövzusuna həsr olunan seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının nümayəndələri, müvafiq məhkəmə orqanlarının təmsilçiləri, eləcə də Şəki və ətraf regionların 17 seçki dairəsi üzrə dairə seçki komissiyalarının sədrləri iştirak ediblər.

Operativlik, şəffaflıq, nəzakətlilik və məsuliyyət prinsipləri ilə vətəndaş rahatlığı üçün uğurla fəaliyyət göstərərək ölkəmizin hüdudlarından kənarda da kifayət qədər tanınan və öyrənilən "ASAN xidmət"in digər mərkəzləri kimi, Şəki "ASAN xidmət" mərkəzindəki hərtərəfli şərait tədbirin keyfiyyətlə təşkil olunub keçirilməsinə öz töhfəsini verib.

Seminar-müşavirə MSK katibi Mikayıl Rəhimov, Ali Məhkəmənin hakimi Kəmaləddin Bədəlov və Şəki Apelyasiya Məhkəməsinin sədri Mübariz Əkbərovun açılış nitqləri ilə başlayıb.

Sonra tədbir MSK, Ali Məhkəmə və Şəki Apelyasiya Məhkəməsinin təmsilçilərinin seçki mübahisələrinin həlli ilə bağlı müxtəlif aktual məsələlər - "Vətəndaşların seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onların araşdırılması qaydası", "Seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi" və "Məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat" mövzularında məruzələri ilə davam edib.

Təqdimatlardan sonra əhatə olunan məsələlər ətrafında aparılan müzakirələrdə iştirakçıların sualları cavablandırılıb və seminar-müşavirə başa çatıb.

Xatırladaq ki, Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı əsasında seçki mübahisələrinin həllinə dair növbəti regional seminar-müşavirələrin noyabrın 15-də Şirvanda və 18-də Naxçıvan Muxtar Respublikasında keçirilməsi nəzərdə tutulur.

## "Azərenerji" "Bakı" İstilik Elektrik Mərkəzini qışa hazır vəziyyətə gətirdi

"Azərenerji" ASC "Bakı" İstilik Elektrik Mərkəzində təmir-bərpa işləri apararaq 2 saylı aqreqatın gücünü 40 meqavatdan 50 meqavata qaldırıb.



Qeyd edək ki, 1902-ci ildə "Ağ şəhər" adı altında istismara verilən və Azərbaycanın ilk elektrik stansiyalarından biri olan, hazırda isə "Bakı" İstilik Elektrik Mərkəzi kimi fəaliyyət göstərən müəssisə elektrik enerjisinin istehsalı ilə yanaşı, istilik təchizatı üçün də fəaliyyət göstərir.

"Reabilitasiya Proqramı" çərçivəsində istilik mərkəzinin 2 saylı aqreqatının ehtiyat hissələri dəyişdirilib, istilik təchizatı üçün bəzi borular yenilənib, təmir edilib və test edildikdən sonra istismara verilib.

Elektrik enerjisi istehsal edib ümumi sistemə ötürməklə yanaşı, Əhmədli, 8-ci kilometr qəsəbələri də daxil olmaqla Xətai və Nizami rayonlarındakı əksər yaşayış binalarını istiliklə təchiz edən "Bakı" İstilik Elektrik Mərkəzində noyabr ayının 15-dən etibarən payız-qış mövsümü qrafikinə uyğun olaraq istilik təchizatı işə qoşulacaq.

*"Azərbaycan"*

## "Azəristiliktəchizat" ASC: Noyabrın 15-dən mənzillərə istilik veriləcək

Noyabrın 14-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Azəristiliktəchizat" ASC-nin sədr müavini İlham Mirzəliyev qış mövsümünə hazırlıq işləri ilə bağlı mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında İ.Mirzəliyev ölkəmizdə qazanılan nailiyyətlərin əsasını Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf strategiyasının təşkil etdiyini vurğulayıb.

Onun sözlərinə görə, ölkə rəhbərliyinin vətəndaşların kommunal xidmət təchizatının yaxşılaşdırılması, mövcud problemlərin operativ həlli, son nəticədə vətəndaş məmnunluğunun təmin olunması ilə bağlı tapşırıqlarının icrası istiqamətində müvafiq addımlar atılır. Bütün bunlar ölkə iqtisadiyyatının və əhalinin yüksək standartlara cavab verən kommunal xidmətlərlə təchizatı ilə bağlı bu xidmətləri göstərən müəssisələr qarşısında da məsul vəzifələr qoyur.

ASC sədrinin müavini deyib ki, bu baxımdan aktual əhəmiyyət kəsb edən məsələlərdən biri də ölkədə dayanıqlı istilik təchizat sisteminin yaradılması, əhalinin etibarlı və keyfiyyətli istiliklə təmin edilməsidir.

O qeyd edib ki, ölkəmizdə istilik təchizatı sisteminin bərpası və yaxşılaşdırılmasında dönüş nöqtəsi 2005-ci ilə ölkə başçısı tərəfindən indiki "Azəristiliktəchizat" ASC-nin yaradılması olub: "Ötən illər ərzində Prezident İlham Əliyevin tapşırığı ilə ciddi işlər görülüb. İlk növbədə, təhsil və səhiyyə müəssisələrində istilik sistemlərinin bərpası ilə bağlı çoxsaylı layihələr icra olunub, yaşayış binalarında sistemlərin bərpasına başlanılıb və bu gün də bu işlər davam etməkdədir".

İ.Mirzəliyev diqqətə çatdırıb ki, təmsil etdiyi qurumun strategiyasının 3 əsas prinsipi var. Bunlar uzun illər 1960-70-ci illərin texnologiyalarına əsaslanan həddən artıq mərkəzləşmiş sistemlərin tədricən yenidən qurularaq istilik məntəqələri olan qazanxanalara çevrilməsi, istiliklə təmin edilməyən ərazilərin müəyyənləşdirilərək optimal istilik sistemlərinin yaradılması və mövcud köhnə tipli qazanxanaların modernləşdirilərək müasir tipli qazanxanalara çevrilməsindən ibarətdir. Bu strategiya nəticəsində 2005-2019-cu illərdə 170 istilik mənbəyi yaradılıb, 109 köhnə tipli qazanxana müasirləşdirilib, 57 istilik məntəqəsi müasir qazanxanaya çevrilib, 300-dək qazlaşma layihəsi icra edilib, 1900-dən artıq yaşayış binasında, 400-dən çox təhsil və səhiyyə müəssisələrində istilik sistemi bərpa olunub.

Qeyd olunub ki, ümumilikdə bu illər ərzində 2700-dən çox istilik təchizatı sistemi ilə bağlı layihələr icra edilib. Bunun nəticəsidir ki, bu gün Bakı şəhəri və respublikanın regionlarında 600-ə yaxın qazanxana istismar edilməklə 3800 yaşayış binası, 291 məktəb, 150 uşaq bağçası, 159 səhiyyə müəssisəsi və 1300-dən çox digər sosial obyektlər "Azəristiliktəchizat" ASC-nin xidmət sahəsinə daxil olmaqla istiliklə təmin edilir.

İ.Mirzəliyev əlavə edib ki, əhaliyə göstərilən xidmətə görə tariflərdə yaxın vaxtlarda heç bir artım gözlənilmir.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# Seçki Məcəlləsində səlahiyyətli nümayəndələrin hüquq və vəzifələri, həmçinin fəaliyyətlərinin əsasları təsbit edilib

*Əvvəli 1-ci səh.*

Seçki Məcəlləsinin 52-ci maddəsində siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin, 72-ci maddəsində isə vəkil edilmiş şəxslərin təyin edilməsi qaydası, onların hüquq və vəzifələri, həmçinin fəaliyyətlərinin əsasları təsbit edilib.

MSK öz səlahiyyətləri daxilində Seçki Məcəlləsinin qeyd edilən maddələrin tətbiqi ilə əlaqədar "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimat və "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) vəkil edilmiş şəxslərin statusu haqqında" Təlimat hazırlayıb təsdiq edib.

Həmin təlimatlar kütləvi informasiya vasitələrində dərc edilib, MSK-nın internet səhifəsində yerləşdirilib və toplu şəklində çap edilərək seçicilərin və maraqlı subyektlərin istifadəsi üçün bütün seçki komissiyalarına çatdırılıb.

İlkin olaraq Seçki Məcəlləsinə və təlimata əsasən bələdiyyə seçkilərində səlahiyyətli nümayəndələrin təyin edilməsi qaydası, onların hüquq və vəzifələri və fəaliyyətlərinin əsasları barədə oxuculara məlumat verək.

Seçki Məcəlləsi ilə nəzərdə tutulan seçki hərəkətlərinin həyata keçirilməsi üçün namizəd səlahiyyətli nümayəndə təyin edə bilər. Namizəd irəli sürmüş siyasi partiyalar və siyasi partiyaların blokları səlahiyyətli nümayəndələrini təyin etməlidirlər. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri, həmçinin siyasi partiyanın, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri öz səlahiyyətləri daxilində namizədin iradəsi ilə, siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların qurultayı, konfransı, habelə onların rəhbər orqanının iclasının və ya siyasi partiyaların nümayəndələrinin birgə iclasının qərarı ilə təyin edilirlər.

Seçki Məcəlləsinin 52.1-ci maddəsində göstərilir ki, səlahiyyətli nümayəndələr, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr müvafiq olaraq siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların və ya siyasi partiyaların nümayəndələrinin birgə iclasının qərarı, yaxud onların qurultayı, konfransı və ya rəhbər orqanın iclasının qərarı ilə təyin edilirlər.

Yuxarıda qeyd edilən müvafiq təlimatın 1.2-ci maddəsinə əsasən namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin sayı qanunvericiliyə uyğun olaraq onların öz mülahizəsi əsasında müəyyən edilir.

Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi öz funksiyalarını onun səlahiyyətini, soyadını, adını, atasının adını, doğum tarixini, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsini, yaşayış yerinin ünvanını, iş və ya xidmət yerini, vəzifəsini (bu olmadıqda - fəaliyyət növünü) əks etdirən, maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə isə həm də maliyyə sənədlərinin və həmin sənədlər üçün möhürlərin nümunələrini əks etdirən, siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların qurultaylarının, yaxud konfranslarının və ya siyasi partiya nümayəndələrinin birgə iclasının qərarı əsasında, müəyyən olunmuş səlahiyyətlər həddində həyata keçirirlər.

Siyasi partiyanın səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və ya notariat qaydasında, namizədin səlahiyyətli nümayəndəsinə isə yalnız notariat qaydasında rəsmiləşdirilən vəkalətnamə verilməlidir.

Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları MSK-nın müəyyən etdiyi qaydada və formada tərtib edilərək MSK-ya təqdim edilir. Siyasi partiyanın, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri istisna olmaqla, digər səlahiyyətli nümayəndələrin siyahısı dairə seçki komissiyalarına da təqdim edilir.

Təqdim edilmiş müvafiq siyahıya hər bir şəxsin səlahiyyətli nümayəndə olmağa razılığı barədə yazılı məktubu, habelə arxasında həmin şəxsin şəxsiyyətini müəyyənləşdirməyə imkan verən qeyd aparılmaqla, 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunmalıdır. Namizədin səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə MSK-nın müəyyən etdiyi nümunəyə uyğun hazırlanmış lövhəcik verilir. Səsvermə günü səsvermə otağında olarkən səlahiyyətli nümayəndənin həmin lövhəciyi olmalıdır.

Seçkilərin digər iştirakçıları kimi, səlahiyyətli nümayəndələr də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən şərtlərə riayət etməlidirlər.

Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin aşağıda qeyd edilən hüquqları vardır:

- namizədin qeydə alınması üçün seçki sənədlərini müvafiq seçki komissiyasına təqdim etmək, imza vərəqələrinin müvafiq seçki komissiyasına verilməsi barədə yazılı arayış almaq və imzaların yoxlanılmasında iştirak etmək, imza vərəqələrinin yoxlanmasının nəticələri haqqında protokolun surətini almaq;
- namizədin qeydə alınması barədə qərarın surətini həmin qərarın qəbul edildiyi gündən etibarən 1 gün müddətində almaq, namizədin qeydə alınması üçün təqdim olunan seçki sənədlərində yol verilmiş və aradan qaldırılması mümkün olan səhvlər barəsində 24 saat müddətində xəbərdar edilmək və həmin səhvləri düzəltmək;
- dairə seçki komissiyalarından hüdudları, ünvanları və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını əldə etmək;
- qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyalar bloku üçün seçkiqabağı təşviqat materiallarının dərc edilməsi tarixinin müəyyənləşdirilməsi məqsədilə keçirilən püşkatmada iştirak etmək, seçkiqabağı təşviqat materiallarının ödənişli əsaslarla dərc edilməsi ilə bağlı dövri nəşrlərin redaksiyalarına müraciət etmək, seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün ayrılmış yerlərin siyahısını müvafiq seçki komissiyasından almaq;
- müşahidəçi qismində seçkilərin gedişini izləmək, seçici siyahıları ilə tanış olmaq, səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq, seçicilərin barmaqlarının mürəkkəblənməsini və ultrabənövşəyi lampalarla yoxlanılmasını müşahidə etmək;
- seçki bülletenlərinin seçicilərə verilməsini müşahidə etmək, səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək, seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək, seçki komissiyasının qanuni fəaliyyətinə mane olmadan, müşahidə aparmağı təmin edən şəraitdə və maneəsiz müşahidə aparmağa imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər seçki sənədləri ilə tanış olmaq;
- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;
- seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara əlavə olunmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri MSK tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq;
- səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq, müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- seçki sənədlərinin dairə seçki komissiyasına və MSK-ya göndərilməsini müşahidə etmək, müvafiq seçki komissiyasının qərarından, onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyindən məhkəməyə müraciət etmək, qanunla qadağan edilməyən digər hərəkətlər etmək.

Namizədin, siyasi partiyanın, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinə aşağıdakı hərəkətləri etmək qadağandır:

- seçkiyə təsir etmək məqsədilə seçki kampaniyasının gedişində xeyriyyə fəaliyyəti ilə məşğul olmaq, seçkilərə təsir etmək məqsədilə digər fiziki və hüquqi şəxslərə maddi və maliyyə yardımı etmək, seçicilərə və təşkilatlara maliyyə yardımı, maddi yardım və ya xidmət göstərmək təklifi ilə müraciət etmək;



- teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalist və yaradıcı işçi olduğu halda seçkilərin gedişini kütləvi informasiya vasitəsilə işıqlandırmaq, dövlət və bələdiyyə orqanlarında müəyyən vəzifə tutduqda isə seçkilərin gedişi zamanı öz vəzifə və xidməti mövqelərindən istifadə etmək;
- seçicilərə seçki bülletenləri vermək, seçiciyə necə səs verəcəyi və necə səs verdiyi haqqında sual vermək, seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək, seçicinin xahişi ilə seçki bülletenini doldurmaq, seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək, seçicilər arasında təşviqat aparmaq, bu və ya digər namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun dəstəklənməsinə yönəldilən və dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və çağırışlar etmək, müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək, seçicilərin barmaqlarını mürəkkəblə işarələmək və ya ultrabənövşəyi lampa ilə seçicilərin barmaqlarının işarələnib-işarələnmədiyini yoxlamaq, qanunla qadağan edilən digər hərəkətlər etmək.

Səlahiyyətli nümayəndənin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin səlahiyyət müddəti və səlahiyyətlərinə xitam verməsi qaydası Seçki Məcəlləsi ilə müəyyən edilib.

Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin səlahiyyət müddəti onların təyin edildiyi vaxtdan başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən gec olmayaraq başa çatır.

Seçki Məcəlləsinin 52.5-ci maddəsində göstərilir ki, siyasi partiyaların, siyasi partiyalar blokunun səlahiyyətli orqanının qərarı ilə yazılı formada xəbərdar etməklə nümayəndənin səlahiyyətlərinə xitam verilə bilər; bu barədə qəbul edilmiş qərarın surəti MSK-ya və dairə seçki komissiyalarına göndərilməlidir.

Yuxarıda qeyd edilən təlimatla müəyyən edilmişdir ki, namizəd, siyasi partiya, siyasi partiyaların bloku müvafiq seçki komissiyasını xəbərdar etməklə səlahiyyətli nümayəndələrini istənilən vaxt geri çağıra və onların əvəzinə başqalarını təyin edə bilər. Belə xəbərdarlıq olduqda müvafiq seçki komissiyası geri çağırılan səlahiyyətli nümayəndənin lövhəciyini etibarsız sayır.

Səlahiyyətli nümayəndə namizədi, habelə siyasi partiyanı, siyasi partiyaların blokunu xəbərdar etməklə ona verilmiş lövhəciyi istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq səlahiyyətlərindən imtina edə bilər.

Seçki Məcəlləsinin 72-ci maddəsi ilə vəkil edilmiş şəxslərin təyin edilməsi qaydası və onların fəaliyyətinin əsasları müəyyən edilmişdir.

Məcəllənin həmin maddəsində göstərilir ki, qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın, siyasi partiyalar blokunun vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər namizədi qeydə almış müvafiq seçki komissiyası tərəfindən qeydə alınır. Vəkil edilmiş şəxslərinin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində vəkil edilmiş şəxslər qeydə alınırlar. Ərizədə və ya təqdimatda vəkil edilmiş hər bir şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda - fəaliyyət növü), yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi göstərilməlidir. Siyasi partiyaların, siyasi partiyalar bloklarının müvafiq təqdimatlarına Seçki Məcəlləsinin 52-ci və 64-cü maddələrində müəyyən edilən qaydalar şamil edilir.

Vəkil edilmiş şəxslər müvafiq seçki komissiyasından lövhəcik alırlar. Vəkil edilmiş şəxs qeydə alınmış namizədin seçilməsi ilə bağlı təşviqat aparır və digər bu cür fəaliyyətlə məşğul olur. Vəkil edilmiş şəxs müşahidəçi hüququna malikdir.

Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədlərin vəkil edilmiş şəxslərinin sayı Seçki Məcəlləsinin 220.1-ci maddəsi ilə müəyyən edilir. Həmin maddədə göstərilir ki, bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır.

"Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) vəkil edilmiş şəxslərin statusu haqqında" Təlimatda göstərilir ki, vəkil edilmiş şəxs təyin edilərkən Seçki Məcəlləsinin 74.4.2-ci və 90.2-ci maddələrinin tələbləri mütləq nəzərə alınmalıdır.

Seçki Məcəlləsinin 74.4.2-ci maddəsinin tələbinə görə, öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və təşkilatlarında vəzifədə olan şəxslərə, dövlət və bələdiyyə qulluqçularına, hərbi qulluqçulara seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması qadağandır.

Seçki Məcəlləsinin 90.2-ci maddəsi ilə bir sıra şəxslərə seçkiqabağı təşviqat aparmaq və seçki fəaliyyətinin maliyyələşdirilməsi üçün yaradılan seçki fondunun formalaşdırılmasında iştirak etmək qadağan edilir. Həmin şəxslər sırasına xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, 18 yaşına çatmayan vətəndaşlar, öz vəzifələrini və ya xidməti vəzifələrini yerinə yetirərkən, həm də vəzifəsindən və ya xidməti üstünlüyündən istifadə etməklə dövlət orqanlarında, idarələrində, təşkilatlarında və ya bələdiyyə orqanlarında və ya təşkilatlarında vəzifədə olan şəxslər aiddir.

Namizədin, siyasi partiyaların, siyasi partiyalar blokunun vəkil edilmiş şəxsləri öz funksiyalarını müvafiq olaraq onları təyin etmiş namizəd tərəfindən verilmiş vəkalətnamə və ya siyasi partiyalar, siyasi partiyalar blokunun müəyyən edilmiş qaydada qəbul etdikləri qərar əsasında həyata keçirirlər.

Siyasi partiyanın, siyasi partiyalar blokunun təyin etdikləri vəkil edilmiş şəxslərin siyahıları müvafiq seçki komissiyasına təqdim edilir.

Səlahiyyətli nümayəndələrin qanunla müəyyən edilmiş hüquqlarından əlavə olaraq vəkil edilmiş şəxslərin qeydə alınmış namizədin seçkiqabağı təşviqat kampaniyasında iştirak etmək, qeydə alınmış namizədin seçicilərlə görüşlərinin keçirilməsi üçün yer ayrılması barədə müvafiq icra hakimiyyəti orqanlarına ərizə ilə müraciət etmək hüquqları vardır.

Seçki qanunvericiliyi ilə namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun dövlət və bələdiyyə orqanlarında müəyyən vəzifə tutan vəkil edilmiş şəxslərinə seçkilərin gedişi zamanı öz vəzifə və xidməti mövqelərindən istifadə etmələri qadağan edilir. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə seçkilərin gedişində qadağan edilən hərəkətlərin edilməsi vəkil edilmiş şəxslərə də qadağan edilir.

Seçkilərin digər iştirakçıları kimi vəkil edilmiş şəxslər də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən şərtlərə, həmçinin seçki prosesində müşahidə apararkən Məcəllənin 41-ci və 42-ci maddələrinin tələblərinə riayət etməlidirlər.

Qeydə alınmış namizəd, namizədi qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku, müvafiq seçki komissiyasını xəbərdar etməklə vəkil edilmiş şəxsləri istənilən vaxt geri çağıra və onların əvəzinə başqalarını təyin edə bilər. Bu barədə qəbul edilmiş qərarın surəti müvafiq seçki komissiyasına göndərilməlidir. Belə xəbərdarlıq olduqda vəkil edilmiş şəxsə verilmiş löhvəcik etibarsız sayılır.

Vəkil edilmiş şəxs onu təyin edən subyekti xəbərdar etməklə, ona verilmiş löhvəciyi istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq səlahiyyətlərindən imtina edə bilər.

Vəkil edilmiş şəxslərin səlahiyyətləri müvafiq seçki komissiyasının onları qeydə aldığı gündən başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edilməsi günündən gec olmayaraq, habelə seçki hüquqlarının pozulması barədə şikayət üzrə məhkəmə araşdırması gedirsə, məhkəmənin yekun qərarının qəbul edilməsi günündən gec olmayaraq, Seçki Məcəlləsinin 72.4-cü maddəsində göstərilən hallar istisna olunmaqla, təmsil etdikləri namizədlərin, siyasi partiyanın və ya siyasi partiyalar blokunun statusunun itirilməsi ilə başa çatır.

***Ramiz İBRAHİMOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü***

# Xilaskar təbib

## ◆ Ömür səhifələri

**“Ömür səhifələri”ndə dünyaca məşhur cərrah-onkoloq, Mili Məclisin Səhiyyə komitəsinin sədri, SSRİ Dövlət mükafatı laureatı, SSRİ Tibb Elmləri Akademiyasının N.N.Petrov adına mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının və Polşa Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Elmlər Akademiyasının xarici üzvü, Ümumdünya Onkoloqlar və Ortoped-travmatoloqlar Assosiasiyasının, Avropa Bərpa Cərrahlığı Assosiasiyasının, Amerika Klinik Onkologiya Cəmiyyətinin üzvü, Milli Məclisin deputatı, AMEA-nın Biologiya və tibb elmləri bölməsinin akademik-katibi, Əməkdar elm xadimi, “Şərəf” və “Şöhrət” ordenli Əhliman Əmiraslanovun həyat kitabını vərəqləyəcəyik.**



Əhliman Tapdıq oğlu Əmiraslanov 1947-ci il noyabrın 17-də Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində ziyalı ailəsində anadan olmuşdur.

Bəlkə də, ən kiçik arzulardan başlayır gələcəkdə qazanılacaq böyük uğurlar... Onun da arzuları əslində elə böyük deyildi. Uşaqlıqdan həkim olmağı arzulayırdı. Bir oyun kimi başlayan həkimlik onun gələcək amalına çevrilmişdi. Tibb İnstitutunu bitirəndən sonra kəndə qayıdıb xəstəxana açacaq, el-obasının camaatına şəfa verəcək, xəstələri sağaldacaqdı. Amma sən demə, tale onun qismətinə özünün də xəyalına gəlməyəcək uğurlar, nəinki kəndini, hətta ölkəsini aşacaq şan-şöhrət yazmışdı... O isə bütün bunlardan xəbərsiz qayğısız uşaqlıq həyatını yaşayırdı sadəcə. Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində...

Atası Tapdıq Əmiraslanov orta məktəb direktoru, Basarkeçər rayonu maarif şöbəsinin müdiri, raykom katibi vəzifələrində çalışmışdı. Bütün qüvvə və bacarığını elin savadlanmasına, maariflənməsinə sərf edib, uzunmüddətli qüsursuz pedaqoji fəaliyyətinə görə Əməkdar müəllim fəxri adına layiq görülmüşdü. Belə bir atanın övladı da, əlbəttə, məktəbin əlaçısı olmalıydı.

Amma hər şeydən öncə o, adi bir kənd uşağı idi: “Kənd uşağı necə olursa, mən də eynən elə idim. Başqa uşaqlar kimi, növbəylə qoyun otarmağa gedirdim. Yoldaşlarımla voleybol oynayırdıq, yarışlara qatılırdıq. Hər gün dağa çıxırdıq. Göyçənin iqlimi o qədər sərt olurdu ki, kənddə ağac çox bitmirdi. O yerlərin havası, suyu, təbii şəraiti başqa bölgələrdən tamamilə fərqlənirdi. Qışda çox qar, şaxta olardı, yayda da külək. Yaz gələndə müxtəlif rəngli çiçəklər çəmənləri bəzəyirdi, ətirləri hər yerə yayılırdı. O yamyaşıl dağlar, çəmənlər, buz bulaqlar hələ də yadımdadır... Rayonumuz Kəlbəcərlə həmsərhəd idi deyə ora da tez-tez gedirdik. Maraqlı, gözəl təbiəti, meşələri vardı Kəlbəcərin. Ancaq biz tərəflərdə meşə yox idi. Güclü küləklər ağacları qırırdı. Bircə bizim həyətdə hündür hasar tikmişdik deyə külək ağacları aşıra bilmirdi. Atam həyətimizdə müxtəlif ağaclar əkmişdi. Bizim kənddə azərbaycanlılar yaşayırdı. Rayonun ən böyük kəndlərindən sayılırdı. Atamın işi ilə əlaqədar anam və balaca bacı-qardaşlarım rayon mərkəzində qalırdılar. Mən isə nənəmlə kənddəki evimizdə yaşayırdım. Çünki azərbaycandilli məktəb bizim kənddə idi. Yalnız həftə sonları və tətildə atam maşın göndərirdi, rayona yanlarına gedirdim, sonra yenə qayıdırdım kəndə”.

### Reallığa çevrilən oyun

Bütün uşaq əyləncələri bir yana, dərs də bir yana idi onlar üçün. Hətta ən dəcəl uşağın da təhsilə, elmə böyük marağı, həvəsi vardı. Məktəblilər bir-biri ilə təhsildə yarışırdılar - kim daha çox kitab, bədii əsər oxuyub. Kənd məktəbi olsa da, tədris çox güclü, təhsilin səviyyəsi yüksək idi. Məktəbi bitirən şagirdlərin əksəriyyəti müxtəlif institutlara daxil olurdular: “O vaxt başqa məşğuliyyət də yox idi. Televizor kəndə sonralar gəldi. Yadımdadır, kəndə televizor ancaq bizim evdə vardı. Hamı yığışırdı bizə, baxırdı. Nənəm dərslərimizə ciddi yanaşırdı. Ev tapşırıqlarımı bitirəndən sonra bədii əsərlər oxuyurdum. Hər il ayrı-ayrı fənlərdən keçirilən müsabiqə və olimpiadalarda qalib gəlirdim. Çox yaxşı müəllimlərimiz vardı. Mən elə uşaq vaxtından həkimliyi sevirdim. Nənəm xəstələnəndə barmağımı qoluna, qıçına uzadırdım ki, guya iynə vururam. Stolun üstündəki pendirdən də balaca dilim qoparıb ağzına qo-



yurdum ki, bu da dərmanındır, iç, sağal. Bir gün nənəm möhkəm xəstələndi, ürəyindən əziyyət çəkirdi. O vaxt həkim indiki qədər çox deyildi. Yalnız rayon mərkəzində olurdu. Kənddə isə feldşer vardı, onu evə çağırdıq. Müəyyən dərmanlar verdi, amma nənəm tam sağalmadı. Onda qəti qərar verdim ki, həkim olub nənəmi sağaldacağam”.

Təəssüf ki, nənəsi sevimli nəvəsinin həkim olduğu günü görə bilmir. Əhliman hələ orta məktəbi bitirməmiş nənəsi rəhmətə gedir. Amma bu ölüm onu qərarından döndərmir. Orta məktəbi qızıl medalla bitirən Əhliman 1965-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur. İnstitutda təhsil alarkən fitri istedadı, yüksək erudisiyası ilə fərqlənən tələbə elə təhsil ala-ala Bakı şəhər Onkoloji Xəstəxanasında tibb qardaşı kimi işləməyə başlayır: “Adətən, gecələr xəstəxanada qalırdım, əməliyyatlara girirdim. Orada işləyəndə ağır vəziyyətdə olan onkoloji xəstələri görürdüm. O vaxt onkologiyanın imkanları belə geniş deyildi, məhdud idi. Tədqiq olunmamış sahələr çox idi deyə onkologiya məni daha çox cəlb etdi. Onkologiya üzrə ilk müəllimim görkəmli alim, professor Arif Abbasov olub. Gecə növbəsindən sonra imkan olanda Arif müəllimin əməliyyatlarına girirdim. Mənə böyük rəğbət bəsləyirdi. Bir dəfə soruşdu ki, institutu bitirəndən sonra burada işləmək istəyərsən? Dedim, əlbəttə. Onda professor Arif Abbasov institut rəhbərliyinə məktub yazdı ki, xahiş edirəm Əhliman Əmiraslanovun təyinatını onkoloji xəstəxanaya göndərəsiniz”.

Elə də olur. İnstitutu fərqlənmə diplomu ilə bitirən Ə.Əmiraslanov 1971-ci ildə Bakı şəhər Onkologiya Xəstəxanasının Cərrahiyyə şöbəsində cərrah-onkoloq kimi işləməyə başlayır. 7-8 ay keçməmiş isə şöbə müdiri təyin olunur: “Bu, o vaxt nadir hadisəydi. Şöbədə yaşlı həkimlər, professorlar olsa da, müdir kimi məni seçmişdilər. O dövr mənim cərrah kimi formalaşmağımda faydalı oldu. Professor Arif Abbasov mənə elmi iş də verdi. Təəssüf ki, qəfildən dünyasını dəyişdi. Gördüm ki, ondan sonra burada inkişaf etmək, nəsə əldə etmək çətin olacaq. Ona görə də onkologiya sahəsində biliklərimi dərinləşdirmək üçün Moskvaya getməyi qərara aldım. Qəzetdə elan oxudum ki, Moskvada yeni yaradılmış Onkoloji Elmi Mərkəzin aspiranturasına qəbul var. Heç kimə demədən sənədlərimi ora göndərdim. Yenicə ailə qurmuşdum. Böyük oğlum hələ dünyaya gəlməmişdi, yolunu gözləyirdik. Bir müddət sonra dəvət gəldi ki, imtahandır. Qardaşım Moskva ətrafında əsgərlikdə olduğu üçün evdə dedim ki, qardaşımın yanına gedirəm. Rusiyaya getmişkən elə ona da baş çəkdim. İmtahanları uğurla verib Bakıya qayıtdım. SSRİ Tibb Elmləri Akademiyasının nəzdində Ümumittifaq Onkoloji Elmi Mərkəzində aspiranturaya daxil olmağımla bağlı sənəd gələndə ailədə elan etdim ki, Moskvaya gedirəm. Atam dedi ki, hökmən get. Amma anam istəmirdi. Onda hələ Göyçədə yaşayırdılar. Dedi, heç Bakıya gedib-gələ bilmirik, Moskvaya necə gedəcəyik. Yoldaşım isə tam normal qarşıladı. Özü də həkim idi, internatura oxuyurdu. 1974-cü ildə biz Moskvaya köçəndə oğlum artıq 3 aylıq idi. Getdik, yataqxanada yerləşdik. Yoldaşım da ginekoloq kimi işləməyə başladı. Elmi işimi vaxtından tez hazırladım. Müdafiəmə az qalmış, 1976-cı ilin mayında atam 58 yaşında rəhmətə getdi. İcazə alıb getdim kəndə. Bir də sentyabrda qayıdıb müdafiəmi etdim”.



*Rusiya Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzinin baş direktoru, akademik Nikolay Nikolayeviç Trapeznikov:*
“Çox şadam ki, mənim Əhliman Əmiraslanov kimi bir tələbəm var. Arxayınam və şərəf duyuram ki, istənilən anda o məni Onkoloji Elmi Mərkəzin baş direktoru vəzifəsində əvəz edə bilər. Ə.Əmiraslanovun onkologiya elmi sahəsində əldə etdiyi nəticələrin böyük əksəriyyəti SSRİ-də ilk dəfə əldə edilən son dərəcə yeni elmi nəticələrdir. Bu nəticələr xarici ölkələrin alimlərinin həmin sahədəki elmi nəticələrini ya qabaqlayır, ya da onları tamamlayır”.

### Onkologiya elmində yeni mərhələ

Əhliman Əmiraslanov 1977-ci ildə aspiranturada təhsil müddəti başa çatmamış “Bədxassəli şişlərlə əlaqədar aşağı ətrafların amputasiyasından sonra xəstələrin reabilitasiyası” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək tibb elmləri namizədi olur. Elmi rəhbəri, akademik N.Trapeznikov və Mərkəzin baş direktoru, akademik N.Bloxinin təklifi ilə həmin dünya şöhrətli elmi-tədqiqat mərkəzində kiçik elmi işçi, 1981-ci ildən elmi işçi, 1984-cü ildən böyük elmi işçi vəzifələrində çalışır. Bu dövrlərdə çoxsaylı mürəkkəb cərrahi əməliyyatları, o cümlədən dünyanın yalnız bir neçə məşhur klinikasında icra olunan və SSRİ miqyasında ilk dəfə məhz Əhliman Əmiraslanov tərəfindən həyata keçirilən “Rotasion plastika” cərrahi əməliyyatı böyük məharətlə yerinə yetirilir və ümidverici nəticələr əldə edilir.

Gənc azərbaycanlı alim elmi axtarışlarını uğurla davam etdirir. 1984-cü ildə 36 yaşında “Osteogen sarkomalı xəstələrin kompleks müalicə üsulları” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülür. Alimin elmi işləri nəinki Azərbaycanda və MDB məkanında, eləcə də dünyanın qabaqcıl ölkələrində geniş yayılaraq onkologiya elmində yeni mərhələnin başlanmasına əsaslı zəmin yaradır. Sümük sarkomasının bütün incəliklərini dünya



mətbuatında elmi əsərləri ilə geniş şərh edən, beynəlxalq elmi tədbirlərdə sanballı məruzələri və çıxışları ilə fərqlənən alimin adı dünyanın hər yerində tanınır və şöhrətlənir. Ə.Əmiraslanovun təklif etdiyi yeni müalicə metodları artıq sınaqdan çıxaraq praktiki səviyyədə uğurla tətbiq olunur, müxtəlif klinikalarda geniş miqyasda istifadə edilir. Bu metodlar xəstəlikdən qurtulmanı sürətləndirir, əlillik dərəcəsini azaldır, xəstələrin qısa müddətdə fəal əməyə və məişətə qayıtmalarına kömək edir.

“O vaxtlar gənclərdə sümük sarkomaları çox baş verirdi və bu xəstələrin ayaqlarını amputasiya edirdilər. Bizim apardığımız tədqiqatlar sayəsində yeni süni diz oynaqları icad etdik. Onunla da həm gənclərin ətraflarını xilas etdik, həm də ömrünü uzada bildik” deyən Ə.Əmiraslanov 1985-ci ildə “Sümük sarkomaları” adlı monoqrafiyasına görə SSRİ Tibb Elmləri Akademiyasının 5 ildə bir dəfə təqdim edilən akademik N.N.Petrov adına mükafatı və medalı ilə təltif olunur. Beynəlxalq aləmdə böyük nüfuz qazanan alim “Onkoloji xəstələrin bərpa müalicəsi metodlarının işlənib hazırlanması və onların kliniki təcrübədə tətbiqi” haqqında silsilə elmi-texnoloji işlərinə görə isə 1986-cı ildə elm və texnika sahəsi üzrə SSRİ Dövlət mükafatına layiq görülür. Bu mükafata görə təkcə Azərbaycandan mindən çox təbrik teleqramı alır. Onların arasında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyevin də təbrik teleqramı vardı.

Ə.Əmiraslanov Moskvada işlədiyi dövrdə 12 tibb elmləri namizədi, 5 tibb elmləri doktorunun hazırlanmasına bilavasitə elmi rəhbərlik edir. Professor yüksəkixtisaslı tibbi kadrların hazırlanmasında, eləcə də tibb elminin və səhiyyənin inkişafında xidmətlərinə görə 1991-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülür. 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilir.

Əhliman həkim Moskvada yaşayıb-çalışdığı 20 ilə yaxın müddətdə SSRİ-nin bütün guşələrinə, müxtəlif xarici ölkələrə konsultasiyaya, əməliyyatlara gedib. Eləcə də Moskvada dünyanın dörd bir yanından xəstələri qəbul edib. Onların arasında öz vətəninin övladları, tanınmış ziyalıları da olub. Məsələn, Xalq şairi Mirvarid Dilbazini də Moskvada əməliyyat edərək həyata qaytarıb. Mirvarid xanım “Xilaskar” şeirini bu həkimə ithaf edib:

*Nə adi insansan, nə adi cərrah,*
*Səni mələklərin qanadlarında*
*Xilaskar göndərib bizimçün Allah.*
*Adi əl deyildir sənin əlin də,*
*Bu əl insanları vaxtsız ölümdən*
*Qurtaran əldir...*

### Peşəyə sadiqlik

1990-cı illərin çox çətin, ağır dövrlərində digər sahələrdə olduğu kimi, tibb sahəsindən olan bir çox mütəxəssislər Azərbaycanı tərk edərək başqa ölkələrə gedirdilər. Torpaqlarımızın Ermənistan tərəfindən işğal edildiyi, müharibənin getdiyi dövrdə Əhliman Əmiraslanov Moskvada Klinik Onkologiya İnstitutunda ona təklif olunan direktor vəzifəsindən imtina edib Bakıya gəlmək, vətənin ağır illərində peşəkar həkimliyi, alimliyi, pedaqoji fəaliyyəti ilə xalqına dayaq olmaq qərarına gəlir: “Qərarımı işlədiyim mərkəzin direktoru Nikolay Trapeznikova açıqlayanda dedi, getmə. Görəndə qərarım qətidir, müəllimim kimi məsləhət verdi: “Elə vəzifəyə get ki, xəstələrlə əlaqən kəsilməsin. Sən xəstələrə çox lazımsan”. Həqiqətən də Azərbaycana qayıdanda mənə elə bir vəzifə təklif etdilər ki, qəbul etsəydim, xəstəxana üzü görməyəcəkdim. Amma mən öz peşəmə sadiq qaldım”.

Beləliklə, Əhliman Əmiraslanov 1992-ci ildə vətənə qayıdaraq Azərbaycan Tibb Universitetinin rektoru təyin olunur və 24 ilə yaxın bu vəzifədə çalışır. Alim və həkim kimi əldə etdiyi böyük uğurlarla yanaşı, Əhliman müəllimin təhsil və elmi təşkilatçılıq işlərində yüksək səriştəsi rektor vəzifəsində işlədiyi ilk gündən öz bəhrəsini verir. ATU-da təhsil sistemi beynəlxalq standartlara uyğunlaşdırılır, həyata keçirdiyi çoxsaylı islahatlar sayəsində universitet dünya səviyyəli elm, təhsil və praktiki fəaliyyət mərkəzinə çevrilir. ATU-nun Bolonya sisteminə qoşulması, xaricdə və ölkəmizdə mütəxəssis həkim hazırlığının təşkili, tədrisin kredit sisteminə keçirilməsi, universitetin nəzdində stomatoloji, onkoloji, tədris-terapevtik və tədris-cərrahiyyə klinikalarının yaradılması, beynəlxalq əlaqələrin genişləndirilməsi kimi islahatlar Azərbaycan təbabətinin və tibb təhsili tarixinin əlamətdar hadisələri hesab edilə bilər: “90-cı illərin əvvəlləri ölkəmiz üçün çox çətin dövr idi. Bütün sahələrdə olduğu kimi, təhsil sistemində də problemlər vardı. Universitetdə nə lövhə vardı, nə də bir təbaşir. Dərsləri vaxtında başlaya bilmirdik. Amma ildən-ilə vəziyyət düzəldi. Auditoriyalar müasirləşdirildi, tədrisdə elektron vasitələrin geniş istifadəsinə başlanıldı, beynəlxalq əlaqələr artdı, dünyanın aparıcı elmi-tibbi mərkəzləri ilə müqavilələr və mübadilələr həyata keçirildi. Universitetin 11 mərtəbəli yeni tədris binasını istifadəyə verdik. Mütəxəssis həkim hazırlığı üzrə beynəlxalq sistemin ölkəmizdə də təşkil olunması üçün uzun illər gərgin çalışdım və nəhayət, 2011-ci ildə Azərbaycanda rezidentura təhsili həyata keçirilməyə başlanıldı. Düzdür, bu qərar etirazla qarşılandı. Hətta o vaxt mitinqlər oldu. Axı bir ilə mütəxəssis hazırlamaq olmaz. Düzdür, indi də bu sistem ideal deyil, hələ təkmilləşməyə ehtiyac var. Amma əvvəlkinə nisbətən yaxşıdır”.

500-dək elmi əsərin, 13 monoqrafiya, 26 dərslik, dərs vəsaiti və metodik ədəbiyyatın, 9 ixtira və səmərələşdirici təklifin müəllifi olan professor elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirir. Əhliman Əmiraslanov məktəbinin davamçıları təkcə Azərbaycanda deyil, Orta Asiyada, Moldovada, Belorusiyada, Özbəkistanda, Qazaxıstanda, Macarıstanda, Yunanıstanda da həkim kimi fəaliyyət göstərərək onun yolunu davam etdirirlər. Akademikin bilavasitə rəhbərliyi altında tibb üzrə 12 elmlər, 44 fəlsəfə doktoru yetişib. Rəhbərlik etdiyi Onkoloji Klinikada çalışan həkim heyətinin hamısı onun tələbələridir. Onların arasında 5 professor, çoxlu sayda elmlər namizədi var. O hətta Moskvadan Bakıya qayıdanda orada yetişdirdiyi 6-7 azərbaycanlı həkimi də özü ilə birlikdə bura gətirib işlə təmin etdi. Qısası, Azərbaycan səhiyyəsi Əhliman doktorun yetirmələri ilə zəngindir.

Amma həkimlər tək onun ətrafında yox, ailəsində də var: “Düzdür, ailəmizdə ilk həkim mən olmuşam. Ancaq açdığım yolun davamçıları var. Böyük oğlum Azər onkoloqdur, professordur. Həyat yoldaşım Hicran xanım, iki gəlinim həkimdir. İki nəvəmin də arzusu həkim olmaqdır. Bu da mə-



ni sevindirir. Klinikada da davamçılarım var. Hər biri öz sahəsinin bilicisidir. Sabah mən olmasam, hər biri klinikaya rəhbərlik edə bilər. Onlara arxayınam”.

### Heydər Əliyevin böyük qayğısı və diqqəti

Əhliman Əmiraslanov Bakıdakı fəaliyyəti dövründə Ulu Öndərlə bir neçə dəfə görüşüb: “Rektor işlədiyim dövrdə Ulu Öndər Heydər Əliyev iki dəfə universitetə gəldi. 1998-ci ildə yeni tədris binasının açılışında iştirak etdi. Bir neçə saat gəzdi, auditoriyalara, dərs otaqlarına baxdı, çox bəyəndi. 2000-ci ildə universitetin 70 illik yubileyi münasibətilə də qonağımız oldu. Hər iki görüşdə maraqlı nitq söylədi, 70 nəfəri də təltif etdi. Bundan başqa, İhsan Doğramacının Azərbaycanda yüksək səviyyədə qeyd olunan 80, 85, 90 illik yubileylərində əsas məruzəçisi olduğum üçün görüşmüşük. Maraqlı söhbətlərinin şahidi olmuşam. Dəfələrlə də telefonla danışmışıq, müəyyən xəstələrlə bağlı mənə tapşırıqlar verib. 50 yaşımda mənə “Şöhrət” ordeni təqdim edib. Ulu Öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev də hər zaman ölkəmizdə bütün sahələrə olduğu kimi, səhiyyəyə, tibb təhsilinə xüsusi həssaslıqla yanaşmışdır. Belə ki, cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində 2007-ci ildə ATU-nun Onkoloji Klinikasının açılışı oldu. Bu da ölkəmizdə onkoloji xidmətin, eləcə də tibb elmi və tibb təhsilinin inkişafına güclü təkan verdi. Möhtərəm İlham Əliyevin 11 sentyabr 2007-ci il tarixində imzaladığı “Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının yaradılması haqqında” sərəncamı da dövlət başçısının təhsil və səhiyyə məsələlərinə necə böyük həssaslıqla yanaşdığını bir daha təsdiqləyir. Universitetin cəmiyyətdə yerini yüksək dəyərləndirən Prezident İlham Əliyev 2010-cu il aprelin 28-də “Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında” sərəncam imzalamışdır. Universitetin 80 illik yubileyi ilə əlaqədar ölkə başçısının iştirakı ilə 2010-cu ilin oktyabr ayında bu ali təhsil ocağının ən müasir standartlara cavab ve-



rən Tədris-Terapevtik Klinikasının təntənəli açılışı olmuşdur. Azərbaycan Prezidentinin 2008-ci il 13 mart tarixli sərəncamı əsasında universitetin Tədris-Cərrahiyyə Klinikası da inşa olunmuş, 2013-cü il sentyabrın 12-də klinikanın təntənəli açılış mərasimi keçirilmişdir. Cənab İlham Əliyevlə birgə birinci xanım Mehriban Əliyeva da universitetin klinikalarının təməlqoyma və açılış mərasimlərində iştirak etmişdir. 500 çarpayılıq Tədris-Cərrahiyyə Klinikasının müasir səviyyədə inşası dövlətimizin təkcə bu ali təhsil ocağının deyil, bütövlükdə Azərbaycan Respublikasının səhiyyə sisteminin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilmiş diqqət və qayğının əyani göstəricisidir”.

Əhliman Əmiraslanov IV və V çağırışlar Milli Məclisin deputatı seçilib. 2015-ci ildən Milli Məclisin Səhiyyə komitəsinə rəhbərlik edir. 4 il ərzində komitə tərəfindən 53 qanun layihəsi hazırlanıb, parlamentin plenar iclasına təqdim olunub, hamısı da qəbul edilib. Həkim kimi əsas fəaliyyəti isə uzun illərdir direktoru olduğu ATU-nun Onkoloji Klinikasındadır. Səhər saat 8-də əməliyyata girir, xəstələrini yerbəyer edəndən sonra parlamentdəki işinin başına keçir: “Mənim üçün ilk yerdə həkimlik peşəm dayanır. Akademiklik, deputatlıq, komitə rəhbərliyi - hamısı həkimliyə bağlıdır, onun davamıdır. İnsan ilk növbədə öz sənətinin mütəxəssisi olmalıdır. Əgər sənətinin yaxşı bilicisi oldunsa, digər işlər sonra gələcək. Çalışmışam öz sənətimi - onkologiyanı yaxşı mənimsəyim və buna nail olmuşam. Yenidən həyatımı başlamış olsaydım, yenə bu peşəni seçərdim”.

### “İlk əməliyyatımı 5-ci kursda etdim”

50 ilə yaxındır həkim xalatını əynindən çıxarmayan Əhliman doktor ilk əməliyyatını hələ də xatırlayır. Demə, birinci dəfə əməliyyat otağına girəndə 3-cü kurs tələbəsiymiş: “Yadıma gəlir ki, onda kollapsa düşdüm. Qan görəndə huşumu itirdim. Sonra cərrahlardan bu haqda soruşdum. Hamısı dedi ki, bizdə də elə olub, keçəcək. Bir-iki dəfədən sonra həqiqətən də keçib getdi. İlk müstəqil əməliyyatımı isə 5-ci kursda oxuyanda etmişəm. Müəllimim Qulammirzə Quliyev mənə appendiks əməliyyatını həvalə etdi. Dedi, get, əməliyyatı özün elə. Bu, mənim cərrah kimi ilk işim oldu. O gündən bəri həyata keçirdiyim əməliyyatların dəqiq sayını bilmirəm, bəlkə də on minlərlədir. Düzdür, son illər bir az sayını azaltmışam. Həftənin 3-4 gününü əməliyyat edirəm. Düşünürəm ki, müəyyən yaş həddindən sonra bu sayı məhdudlaşdırmaq lazımdı, amma insanlar xahiş edirsə, buna imkanım da varsa, niyə etməyim? Yəni kimsə məndən bunu xahiş edir-



sə, heç kimi geri çevirmirəm. Bir də o əməliyyatları edirəm ki, bilirəm, onu məndən başqa bu səviyyədə edən olmayacaq. Bəzən deyirlər, yükün çoxdur, yorulmursan? Şükür, hələ şikayətim yoxdur. Əksinə, klinikada xəstələrə baxanda, əməliyyata girəndə dincəlirəm”.

Əhliman həkim təəssüflə etiraf edir ki, bu illər ərzində əməliyyatdan sağ çıxmayan xəstələri də olub. Bu zaman ağır sarsıntı keçirib. Hətta 1 ay əməliyyat otağına girə bilməyib. Amma zamanla özünü toparlayıb. Çünki həyatını ona etibar edən, yaşamaq ümidilə gözləyən xəstələri intizarda saxlamaq olmazdı: “Onkoloji cərrahiyyə ən ağır sənətdir. Digər xəstələrdən fərqli olaraq, onkoloji xəstələrin əməliyyatında səni nə gözləyir bilmirsən. Cərrahın da ustalığı ondan ibarətdir ki, o situasiyada düzgün qərar versin. Ona görə cərrahlara daha çox “əməliyyat etməyi bacaran ağıllı terapevt” deyirlər. Hər şey cərrahın əlindən yox, ağlından asılıdır. Tələbələrimə də həmişə deyirəm ki, cərrahın əli ağlından qabağa getməməlidir. Bəzən böyük riskə gedib əməliyyat edən cərrahlar da var. Bunu qəhrəmanlıq adlandırmaq olmaz. Çünki bu risk başqasının həyatına bədəl ola bilər. Gərək cərrah ölçsün, biçsin, əməliyyat vaxtı doğru qərar qəbul etsin. Geniş cərrahi əməliyyata başladığım dövrdə az da olsa, ölüm halları baş verib, təəssüf ki. Xəstəsinin həyatını xilas edə bilməmək həkim üçün çox böyük faciədir. Sözlə ifadə olunmayacaq dərəcədə... Amma heç bir həkim yüzdəyüz zəmanət verə bilməz ki, bu əməliyyatın nəticəsi əla olacaq. Ola bilməz ki, minlərlə böyük əməliy-



yatın içində heç bir ağırlaşma, qanaxma, infeksiyalaşma olmasın. Sadəcə, bu risklərin faizi təcrübəli həkimlərdə çox aşağıdır. Bir də var həkim səhlənkarlığı - bax bunu artıq bağışlamaq olmaz”.

### “Hər gün 10 kilometr piyada gəzirəm”

Professor deyir ki, son illər bir çox onkoloji xəstəliklərin sayında artım və cavanlaşma var. Buna qadınlarda süd vəzi, kişilərdə ağciyər, prostat vəzi xərçənglərini misal göstərmək olar. Mədə xərçəngi xəstəliyində isə azalma müşahidə olunur: “Xərçəng xəstəliyinin əmələgəlmə səbəblərini dəqiq demək çətindir. Bununla belə, bədxassəli şişlərin yaranmasında bir neçə faktor mütəxəssislərə məlumdur - qidalanma, ətraf mühitin çirklənməsi, siqaret çəkmə, qadınlarda reproduktiv funksiyanın pozulması. Əslində bədxassəli şişlər insan cəmiyyəti mövcud olandan var. Sadəcə əvvəllər heç bilmirdilər ki, nədən ölürlər. İndi isə diaqnostikanın imkanları artıb, xəstəliyi aşkarlamaq asandır. Təəssüf ki, bizim ölkədə şişlərin erkən aşkara çıxarılmasında hələ də problem var. Xəstələr vaxtı keçmiş mərhələdə həkimə gəlirlər. Halbuki erkən diaqnostika insanın həyatını xilas edir. Bu baxımdan insanların maariflənməsi, öz sağlamlığına laqeyd yanaşmaması lazımdır. Bu gün dünyada bədxassəli şişi olan xəstələrin 50-55 faizi tam sağalır, cəmiyyətə qayıdır. Bu, böyük rəqəmdir və mühüm irəliləyişdir. Ümumiyyətlə, onkoloji xəstəliklərin səbəbinin aydınlaşdırılması istiqamətində böyük işlər gedir. Xüsusilə genetika, molekulyar biologiya sahəsində bir çox mexanizmlər aydınlaşıb. Gen terapiyası, molekulyar biologiyada qazanılmış müvəffəqiyyətlər artıq klinikalara daxil olur. Amma kimsə xərçəngin dərmanını tapıb Nobel mükafatı alacaq - bu, sadəcə, söhbətdir. Onkoloji xəstəliklər məfhumu altında böyük qrup xəstəliklər birləşib. Xərçəngin 100-dən çox növü var. Gözləmək ki, hansısa kəşf olacaq, problem həll ediləcək - sadəlövhlükdür. Hazırda bu sahədə hədəf və immun terapiyaları gözəl nəticələr verir. İmmunoloji müalicə ilə hətta yayılmış şişləri olan xəstələri uzun müddət yaşatmaq olur. Düzdür, bu preparatlar yüksək maliyyə tutumludur. Lakin hesab edirəm, onkologiyanın gələcəyi məhz immun terapiya ilə bağlıdır. Və vaxt gələcək, nəvə-nəticələrimiz bizə güləcək ki, gör babalarımız xəstələrə nə qədər əziyyət veriblər, bu xəstəliyi asan yolla müalicə etmək mümkünmüş”.

Maraqlıdır, görəsən, həkim özü necə həyat tərzi sürür? Əhliman doktor özünün sağlam həyat tərzi reseptini belə açıqlayır: “Mən 40 ilə yaxın voleybol oynamışam. Sonra ayağım zədələndi. Bununla da keçdim piyada gəzintiyə. Harada olmağımdan asılı olmayaraq, hər gün səhər saat 7, axşam da 8-dən sonra - 5 km səhər, 5 km isə axşam olmaqla 10 kilometr gəzirəm. Bu, mənim üçün ilk yerdə durur. İkincisi, qidalanmaya fikir verirəm. Çalışıram qırmızı ətdən az istifadə edim - həftədə 2 dəfə. Toyuq, balıq, tərəvəzə daha çox meyilliyəm. Qızarmış, yağlı qidalardan müəyyən yaşdan sonra imtina etmək lazımdır. Bir də çalşıram çəkimi sabit saxlayım. Bunlar mənim sağlam həyat tərzimin əsasıdır”.



### “Göyçə, kəndimiz, o dağlar tez-tez yuxuma girir”

*Bu illər ərzində saysız-hesabsız ölkələr, şəhərlər gəzib Əhliman Əmiraslanov. SSRİ-nin elə bir şəhəri yoxdu ki, orada olmasın. Dünyanın bir çox ölkələrinə gedib. Amerika, Avropa, Yaponiya, Çin, Koreya, Monqolustan, Şimali Koreya... Amma onun üçün ən əziz ölkə Azərbaycandır: “Mən həmişə deyirəm, xoşbəxt o insandır ki, öz vətənində yaşaya və öz övladlarının, dostlarının çiynində torpağa tapşırıla. Mənim ən böyük arzum budur... Azərbaycandan sonra mənim üçün ikinci doğma ölkə Türkiyədir. Oranı çox sevirəm. Xüsusilə dağlar olan bölgələrini. Bizim kəndin dağlarını xatırladır mənə... Axırıncı dəfə 1988-ci ildə Göyçədə olmuşam. Həmin il yurd-yuvamızı orada qoyub gəlməli olduq. Anamı, qardaşımı Bakıya köçürdük. İndi də Göyçə, kəndimiz, o dağlar tez-tez yuxuma girir. Kənddəki evimizi, həyətimizi, məzarı o torpaqlarda qalan atamı yuxularımda görürəm. Bizim evin arxasında sıra dağlar yüksəlirdi. Görürəm o dağların başındayam... Bir neçə il bundan əvvəl bir nazirimiz Ermənistana getmişdi. Ondan xahiş etdim ki, getsin, evimizə baxsın. Sağ olsun, getdi, telefonla da çəkib mənə göstərdi. Əvvəl həyətimizi tanıya bilmədim. Sökülüb dağılmış, o boyda ağaclarımız qurumuşdu. Bircə pəncərələrin kənarlarından evimizi tanıdım. Çox məyus oldum. Orada bir yaşlı kişiylə qadın qalırmış. Deyiblər, evin yiyəsi haradadırsa gəlsin, biz də çıxaq gedək, burada yaşaya bilmirik. Bilmirəm, bir də oranı görmək mənə qismət olacaqmı?! Hər halda, ora mənim doğulduğum, böyüdüyüm torpaqdır. Ora mənim uşaqlığımın, arzularımın məkanıdır. Oradan başlamışdı həkimlik sevdam. Fikirləşirdim ki, institutu bitirəndən sonra kəndimizə qayıdıb orada bir xəstəxana açıb işləyəcəyəm. Ən böyük arzum bu idi. Fikirləşmirdim ki, rəhbər vəzifədə işləyəcəyəm, dövlət mükafatı alacağam, akademik olacağam. Görünür, taleyim belə gətirdi. Hər halda, taleyimdən çox razıyam. İnsan o vaxt özünü xoşbəxt saya bilir ki, o, kiməsə lazımdır. İnsanın həyatı o vaxt bitir ki, o, heç kimə lazım olmur. Əgər bu gün mən xəstəyə lazımamsa, onun həyatını xilas edə bilirəmsə, bundan böyük xoşbəxtlik ola bilməz”...*

*Xilaskar təbibin şəfasına ehtiyacı olan xəstələrin sayı isə, təəssüf ki, hələ çoxdur...*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

AZƏRLOTEREYA

# Hörmətli lotereya iştirakçıları!

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti Sizin www.azerlotereya.com və "Azərlotereya" mobil əlavəsindəki balansınızı artırma üsulunu daha da asanlaşdırdı.

Artıq "MilliÖn" və ya "E-manat" terminalları vasitəsilə daha rahat üsulla balans artırma əməliyyatlarını yerinə yetirə bilərsiniz. Bunun üçün aşağıda göstərilən əməliyyatları yerinə yetirin:

"MilliÖn" və ya "E-manat" **"Elektron pul kisəsi"** bölməsinə daxil olun, sonra isə **"GüvənPay"** yazılan loqoya daxil olursunuz və **"Balansın artırılması"** düyməsini seçirsiniz. **"Açar sözü"** xanasına "AZLOTO" yazısını qeyd edib, **"İstifadəçi İD-si"** xanasına isə istifadəçi İD nömrənizi daxil edin (İD nömrənizi azerlotereya.com səhifəsində şəxsi kabinetinizdən əldə edə bilərsiniz). Növbəti açılan pəncərədə isə mobil nömrənizi daxil edin və məlumatların düzgünlüyünü yoxlayaraq məbləği daxil edin.

Diqqət: Məbləğ balansınıza yüklənənə qədər qəbzi atmayın!

***Sizin "Azərlotereya"***




# Beynəlxalq aləm

## Vaşinqtonda Tramp-Ərdoğan görüşü keçirildi



Vaşinqtonda ciddi qarşılıqlı iddialar fonunda ABŞ və Türkiyə prezidentləri Donald Tramp və Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilmişdir. Bu barədə yerli KİV xəbər verir.

Birgə brifinqdə ABŞ Prezidenti həmkarının ünvanına komplimentlər demiş və bəzi müsbət qərarlar barədə məlumat vermişdir. Amerika KİV diqqəti Ağ ev sahibinin göstərdiyi xüsusi qonaqpərvərliyə yönəltmişdir. Türkiyə lideri isə bəyanatında daha təmkinli olmuşdur.

"Türkiyənin Rusiyadan S-400 kimi qabaqcıl hərbi avadanlıq alması bizim üçün çox ciddi çağırışlar yaradır. Ümidvaram ki, bu məsələnin həllini tapa biləcəyik. Biz dövlət katibimizə və Xarici İşlər nazirimizə, habelə milli təhlükəsizlik üzrə köməkçilərimizə müraciət etmişik ki, dərhal S-400 məsələsinin həlli ilə bağlı işə başlasınlar" deyə Donald Tramp bildirmişdir.

"Biz müdafiə sahəsində ilk növbədə S-400 sistemləri və F-35 proqramı ilə bağlı münasibətlərimiz haqqında səmimi söhbət etdik. Maneələri ancaq dialoq vasitəsilə aşa bilərik" deyə Rəcəb Tayyib Ərdoğan qeyd etmişdir.

Xatırladaq ki, ötən ay ABŞ Prezidenti Suriyadakı vəziyyətlə bağlı Ərdoğana ünvanladığı məktubda qeyri-diplomatik ifadələrdən istifadə etmişdir. Türkiyə lideri həmin məktubu özü ilə Vaşinqtona gətirmiş və Trampa qaytarmışdır.

## Meksikada insan cəsədləri ilə dolu plastik torbalar tapıldı




Meksikanın Xalisko ştatının prokurorluğundan verilən məlumata görə, Qvadalaxara şəhərinin yaxınlığında torpaq sahələrinin birində içərisində doğranmış adam cəsədləri olan 52 plastik torba aşkar edilmişdir. 33 torba analiz edildikdən sonra 12 cəsədin mənsubluğu müəyyənləşdirilmişdir. Onların 5-i qadın, 7-si kişidir. Bu barədə TRT telekanalı xəbər verir.

Xatırladaq ki, sentyabrda Qvadalaxarada quyuların birində 119 analoji torba aşkar edilmişdir. Analiz nəticəsində torbalarda 41 nəfərin cəsədlərinin hissələri olduğu müəyyənləşdirilmişdir.

2006-cı ildə Meksikada kartellərin narkotrafiklərə nəzarət uğrunda müharibəsi başlamışdır. Bu müddətdə 300 min nəfərdən çox adam həlak olmuş, 340 mindən çox meksikalı ölkədən qaçmışdır. Onlardan təxminən 40 mini itkin düşmüşdür.

120 milyon nəfər əhalisi olan Meksikada ötən il 35964 qətl qeydə alınmışdır. 2017-ci ildə qətllərin sayı 32079 olmuşdur. Cari ildə qurbanların sayı 26 minə çatmışdır.

## Morales Boliviyada çevrilişin təşkilində ABŞ-ı ittiham etdi

Boliviyanın eks-prezidenti Evo Morales ölkədə çevrilişin təşkilində ABŞ-ı ittiham etmişdir. Onun dediyinə görə, ABŞ Venesuelaya Xuan Quaydonu sırımışdır, indisə Janin Anyesi Boliviya Prezidenti elan edir.

Morales həmçinin ABŞ Prezidenti Donald Trampın Boliviyanın yeni hökumətinin legitimliyini tanımaq qərarını pisləmişdir.

Bundan əvvəl ABŞ dövlət katibinin köməkçisi Maykl Kozak Amerika hökumətinin Boliviyanın müvəqqəti administrasiyası ilə əməkdaşlıq etməyə hazır olduğunu bildirmişdir.

Boliviya Prezidentinin səlahiyyətləri Senatın ikinci vitse-spikeri Janin Anyesə həvalə edildikdən sonra bir neçə ölkə, o cümlədən Braziliya, Kolumbiya, ABŞ və Böyük Britaniya onun legitimliyini tanımışdır. Eyni zamanda Meksika, Venesuela, Kuba və Argentinanın seçilmiş Prezidenti Alberto Fernandes Moralesin tərəfini tutmuşlar.

## Türkiyədə yeni döyüş helikopteri sınaqdan keçirildi



Türkiyənin "Türk Havacılık ve Uzay Sanayii AŞ" (TUSAŞ) şirkətinin meydançasından havaya qalxmış "Atak Faz-2" döyüş helikopteri uğurla ilk uçuşunu etmişdir. Bu barədə Müdafiə Sənayesi İdarəsinin başçısı İsmayıl Dəmir məlumat vermişdir.

Dəmirin dediyinə görə, radioelektron mübarizə sistemləri ilə təchiz olunmuş "Atak Faz-2" helikopterinin təkmilləşdirilmiş modifikasiyası ilk uğurlu uçuşunu keçirmişdir. Sınaqlar başa çatdıqdan sonra, 2020-ci ilin ortalarında helikopterlər hərbi hissələrə göndəriləcək. "Anadolu" agentliyi xəbər verir ki, idarə Türkiyə təhlükəsilzik qüvvələrinə 53 ədəd "Atak Faz-2" göndərəcək. Planlaşdırıldığına görə, təhlükəsizlik qüvvələri ilk mərhələdə 21 helikopter alacaq.

## ABŞ-ın pilotsuz təyyarələri Əfqanıstanda dinc sakinləri bombaladı



ABŞ-ın pilotsuz təyyarələri Əfqanıstanın Paktiya əyalətində dinc sakinlərə hücum etmiş, nəticədə 7 nəfər həlak olmuşdur. Bu barədə "Pajvak" agentliyi xəbər verir.

Paktiya əyaləti hökumətinin nümayəndəsi Allahmir Bəhramzuy jurnalistlərə bildirmişdir ki, ABŞ ordusunun pilotsuz təyyarələri Aryu Zazay rayonunda dinc sakinləri bombalamışdır. Ölənlər arasında uşaqlar da var. ABŞ-ın Əfqanıstandakı qoşunları hadisəyə şərh verməmişdir.

## İrandan Azərbaycana 25 kiloqrama yaxın narkotik vasitələrin gətirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində ölkə ərazisinə narkotik vasitələrin qeyri-qanuni gətirilməsinin qarşısı alınıb.

Noyabrın 10-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Sım kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində meşəlikdə gizlədilmiş 1 ədəd qara rəngli çanta aşkar olunaraq götürülüb. Çantaya baxış zamanı ümumi çəkisi 24 kiloqram 785 qram olan (13 kiloqram 240 qram heroin, 1 kiloqram 535 qram metamfitamin, 10 kiloqram 10 qram tiryək və 1500 ədəd metadon-40 həb) narkotik vasitələr aşkarlanaraq götürülüb.

Fakt üzrə təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş və nəticədə Astara rayonunun Sım kəndi yaxınlığında qeyd olunan narkotik vasitələri Azərbaycan Respublikasına gətirən İran İslam Respublikası vətəndaşı, 1982-ci il təvəllüdlü Əzimi Əhməd Əmənulla saxlanılıb.

Qeyd olunan fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 19 oktyabr 2019-cu il tarixli sayında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1. İçəri şəhər ərazisində fasad və eyvanların təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) elektron portala 20 noyabr 2019-cu il saat 11:00-a, tender təklifi və bank təminatı 29 noyabr 2019-cu il saat 11:00-a, təkliflərin açılışı isə 02 dekabr 2019-cu il saat 11:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 19 oktyabr 2019-cu il tarixli sayında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə sənədlərin qəbulu (tender təklifi və bank təminatı istisna olmaqla) elektron portala 22 noyabr 2019-cu il saat 11:00-a, tender təklifi və bank təminatı 03 dekabr 2019-cu il saat 11:00-a, təkliflərin açılışı isə 04 dekabr 2019-cu il saat 11:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 22 noyabr 2019-cu il tarixdə "Xüsusi təyinatlı geyim dəstlərinin" satın alınması məqsədilə elan edilmiş kotirovka sorğusu Tender komissiyasının qərarına əsasən ləğv olunmuş hesab edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kompüterin sərt diskindəki (HDD) məlumatların bərpası xidmətlərini kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər **21 noyabr 2019-cu il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı şəhəri Nizami və Xəzər rayonlarında yeni açılacaq DOST mərkəzləri üçün kreslo, divan və oturacaqların satın alınması üzrə keçirilən təkliflər sorğusuna dəvət edir

Təkliflər sorğusu iki LOT üzrə həyata keçirilir.

**LOT 1 - Bakı şəhəri, Nizami rayonunda yeni açılacaq DOST mərkəzi üçün kreslo, divan və oturacaqların alınması;**

**LOT 2 - Bakı şəhəri, Xəzər rayonunda yeni açılacaq DOST mərkəzi üçün kreslo, divan və oturacaqların alınması.**

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** LOT-1 üzrə 100,0 (bir yüz) manat
LOT-2 üzrə 100,0 (bir yüz) manat

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK: CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 22 noyabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 22 noyabr 2019-cu il saat 16:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 25 oktyabr 2019-cu il tarixli sayında Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi üçün nəqliyyat vasitələrinin satın alınması üzrə açıq tenderdə iştiraka dair tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsini əsas götürərək tender prosedurunun davamından imtina olunmuşdur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Fuad Məmmədov, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, İsmayıl Cəfərov, Səməd Sultanov, Rüfət Ələkpərov, Yunis İsmayılov, Ayxan Kazımov, Sədaqət Bağırova, Ceyhun Əliyev və Əsmər İsmayılova Milli Məclisin Maliyyə şöbəsinin müdiri Rəna Qurbanovaya anası
**ƏDİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın həkim-cərrahı Çingiz Osmanova anası
**ZÜLFÜXUMAR XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin kollektivi Bakı Şəhər Xətai Rayon Məhkəməsinin sədri
**NAZİM TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Şəhər Səbail Rayon Məhkəməsinin sədri Ağamalı Qafarov və məhkəmənin kollektivi Xətai Rayon Məhkəməsinin sədri
**NAZİM TAĞIYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, İnşaat fakültəsinin dekanlığı və professor-müəllim heyəti Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, Əməkdar memar Elxan Əsədova anası
**ŞƏFİQƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8902
Sifariş 3825
Qiyməti 40 qəpik